

# 44 fəsil

## Payızda gələn bahar hekayələri

TEAS PRESS

*...8 may 1992-ci il...*

Ana təbiətin yaz fəslində yurdumuza qış gəlmişdi. Kainatın əbədi Günəşinin ılıq bahar şəfəqləri torpağımızı getdikcə daha çox isindirməyə başladığı zaman vətənimizin sinəsinə qar yağmış, buz bağlamışdı.

Baharda gələn bu qış-qar-buz fəsli düz 28 il 6 ay davam etdi.

Düz 28 il 6 aydan sonra rəşadətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan xalqı, müzəffər Ali Baş Komandan "Dəmir yumruq" kimi birləşərək qarı-boranı, çovğunu-qışı ölkəmizdən qovdular və ana təbiətin payız fəslində yurdumuza bahar gəldi! Kainatın əbədi Günəşinin xəfif payız şəfəqlərinin getdikcə solğunlaşdığı bir vaxtda Azərbaycanda yeni bir günəş doğdu: Azadlıq günəşi!

O Günəş uğrunda canından keçən müqəddəs şəhidlər, o Günəşi gətirən qəhrəmanlar, 26 fevrallarda, 3 aprellərdə, 8 maylarda, 23 avqustlarda... doğulan mərd igidlər bu günə illərlə hazırlaşmış, bu günü illərlə gözləmişdilər...

Elə onların dastanını yazanlar da...

Qələbə, azadlıq təşnəsi olan qələm əsgərləri də həmin günü gözləyir, həmin günə hazırlaşır, həmin günə can atırdılar...

Nəhayət, o gün gəldi! Bizsə payızda gələn baharın nəğmələrini bir kitaba topladıq. Topladıq ki, bir dəstə solmayan bahar çiçəyi kimi, bir dəstə solmaz gülü kimi daim masanızın üstündə olsun!

# 44 fəsil

fond

QAF

Fond

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 118232

TEAS PRESS

84(5Aze)
Q 54

44 fəsil
*(hekayələr)*

Bakı, TEAS Press Nəşriyyat evi, 2021, 368 s.

ISBN 978 9952 540 34 5

Kitaba daxil edilən hekayələr TEAS Press Nəşriyyat evi tərəfindən seçilib və çapa hazırlanıb.

www.teaspress.az

Bütün hüquqlar qorunur.
© TEAS Press Nəşriyyat evi, 2021

Türkiyədə çap edilib.

## Mündəricat

*Ön söz. Anar.* Vətən nəğmələri ........ 5
*44 gün, 44 gecə (tərtibçidən)* ........ 9

*Abdullah Hüseynli.* Kaş ki yuxum çin olaydı ........ 11
*Akif Orxan.* Yuxu ........ 16
*Aqil Alışov.* Torpağı öpən ata, savaş marşı oxuyan əsgər ruhu ........ 19
*Alpay Azər.* Ay işığında tabut ........ 22
*Arif Ərşad.* Torpağa qarışan qan ........ 27
*Aysel Şıxlinskaya.* Mənəm – Yusif! ........ 37
*Aysu Əlisoy.* Nə gözəldir ölmək bizə sevgili Vətən üçün ........ 61
*Azad Qaradərəli.* Mən sizdən ayrıldım, amma gülə-gülə ........ 72
*Bəhruz Məmmədov.* Atamın əlləri ........ 75
*Cəlil Cavanşir.* Qəribə və maraqlı günlər ........ 77
*Çinarə Ömray.* 17:00-da dayanan saat ........ 81
*Çingiz Abdullayev.* Körpə və kürən pişik balası ........ 86
*Damət Salmanoğlu.* Danışan onların ruhları idi ........ 92
*Elçin.* Ağadadaşın kişi sözü ........ 96
*Elşən Əzim.* Rəqiblər ........ 110
*Fərhad Kərimli.* Bir qucaq torpaq ........ 121
*Fəridə Zero.* Durnaların lənəti ........ 128
*Gülzar İbrahimova.* Bir gecədə dəyişən arzu və ya uşaqlığın son gecəsi ........ 140
*Günel Anarqızı.* Sərhədsiz səma ........ 148
*Xalid Kazımlı.* Mələyin dəftəri və təsəlli seansları ........ 157
*İradə Aytel.* Biz yenə görüşdük ........ 166
*Kamal Abdulla.* Səngərdəki səs ........ 181
*Kamran Nəzirli.* Mənim sevimli yaddaşım ........ 187

*Kərim Kərimli.* "Şuu... Şuu... Şa!" ........ 201
*Qərib Mehdi.* Məktub ........ 208
*Mirmehdi Ağaoğlu.* Epikriz ........ 219
*Möminəxatun Məmmədova.* Coşqun dəniz ........ 233
*Murad Muradov.* Xurma ağacı ........ 241
*Müşfiq Xan.* Dayanacaq ........ 247
*Nüşabə Əsəd Məmmədli.* Üç gün cənnətdə ........ 251
*Orxan Həsəni.* Qəsəbəmizin payız ahəngi ........ 268
*Pərviz Cəbrayıl.* Dərs ........ 275
*Ramilə Qurbanlı.* Ata, mən evimizdəyəm... ........ 277
*Rövşən Yerfi.* Şəhidlik zirvəsi ........ 285
*Ruslan Mollayev.* Çobanyastığı ........ 289
*Sara İbrahim.* Ana... Qarabağ... Azərbaycandır! ........ 290
*Sevinc Nuruqızı.* Öləram dərdindən, onu bil ........ 291
*Səma Quliyeva.* Zəfər ........ 300
*Şəbnəm Xeyrulla.* Gopçu Mahir ........ 307
*Təranə Məmməd.* Ögey ana ........ 312
*Təvəkgül Boysunar.* Xoşbəxt göyərçinlər, xoşbəxt bayraqlar ........ 321
*Vahid Məmmədli.* Hesab dərsi və ya müqəddəs 44 ........ 331
*Yeganə Kərimzadə.* İlk addım ........ 356
*Zemfira Məhərrəmli.* Zəfər yolunun yolçuları ........ 360

## Ön söz

### Vətən nəğmələri

Bir vaxt "Gecə düşüncələri"mdə yazmışdım: "Ürəyin vətən sarıdan nigarançılıqla döyünür, amma heç kəs bu döyüntünü eşitmir. Amma bax, mən vətənpərvərliyimi təbil sədaları altında bəyan edirəm, hamı eşidir, hamı əl çalır". İndi də vətənpərvərlik mövzusunda yazılmış hekayələr toplusunu vərəqlədikcə, müxtəlif nəsillərdən olan qələm adamlarının nigaran ürək döyüntülərini eşidirəm sanki. Kimisi təcrübəlidir, daha peşəkar şəkildə ifadə edir sevgisini, başqası vətənə məhəbbətdən danışanda gerçək sənət kriterilərini pozur, ayrı birisi hələ təzə-təzə atdığı addımların ürkəkliyini mətnindən hiss etdirir. Amma bütün müəllifləri birləşdirən vətən sevgisi, torpaq qarşısında borc, vətəndaşlıq mövqeyidir.

Vətən ən böyük dəyərdir. Hansı ölkədə doğulacağımızı seçmirik, amma bizi yetişdirən bu torpağa mənəvi borcumuz var. Hekayələri ardıcıl oxuduqca bu məlum həqiqəti hər yazıçının bir cür qələmə aldığını, öz bildiyi, duyduğu şəkildə sözə çevirdiyini görürəm. Həm də xalqımıza xas olan döyüş əzmi, mübarizə ruhu, dönməzlik, iradə ayrı-ayrı qəhrəmanların xarakterində öz əksini tapır. Mən mübarizə deyəndə sadəcə tariximizdə baş verən ağrılı məqamları və torpaq uğrunda döyüşü nəzərdə tuturam. Axı vətən yalnız dünyaya göz açdığımız torpaq deyil, həm də o torpaqda cücərən hər cür nemətlərdir, bu yerlərin insanlarının yaratdığı mənəvi sərvətdir: dil, mədəniyyət, sənət, adət-ənənələr və s. Ona görə də döyüş, mübarizə sadəcə torpaq uğrunda deyil, həm də o mənəvi zənginliyi qorumaq yolundadı.

Tarixən Azərbaycan yazıçıları dilimizin zənginliyini qoruyub saxlamaq, gələcək nəsillərə saf və özümüzə məxsus olan mədəniyyət ötürmək üçün daim çalışıblar. Ona görə təsadüfi deyil ki, postsovet ölkələrinin bir çoxunun dilində olan dəyişikliklər, yabançı dilin təsiri ilə qaçılmaz olan metamorfozlar bizdə baş vermədi. Bir vaxt mədəniyyətin istehkam, qala olduğunu yazmışdım və mənə görə bu istehkamı qoruyub saxlamaq ən çox qələm əhlinin vəzifəsidir. Amma torpaq dardadırsa, ona yağılar göz dikibsə, yurdun insanı incidilirsə, xalqın başına müsibətlər gətirilirsə, qələmin də məsuliyyəti artır... Doğrudur, sənətin yazılmamış qanunları da var, bəzən hansısa tarixi hadisələrin ədəbiyyata çevrilməsi üçün uzun illər lazım olur. Lakin bütün hallarda sənətin çatdırdığı, ifadə etdiyi həqiqətlər unudulmazdır, daha təsirlidir və bəlkə elə tarix kitabları ilə təndir. Ona görə də əlimizdə olan bu kitab qəlbimi fəxarət hissi ilə doldurur. Azərbaycanın müxtəlif nəsillərə aid yazıçılarının Qarabağdan danışması, yazması gələcəyə mesaj kimidir. Bir anlıq düşünürəm ki, qalib ölkənin yazıçısı olmaq tamam ayrı səadət imiş. Şükür ki, bu günləri yaşamaq və Qarabağ mövzusunda yazılmış əsərləri qəhrəmanlıq dastanı kimi oxuculara təqdim etmək nəsibimiz oldu.

Bəlkə, bu gün baş verənləri, 44 günlük vətən müharibəmizin və zəfər savaşımızın bütün ayrıntılarını yazmağa uzun illər lazım olacaq. Gələcək nəsillər bunları araşdıranda heç fərqində olmadığımız faktlar ortaya çıxaracaq, qalibiyyət tarixçəmizi ayrı yöndən yazacaqlar. Amma bununla belə indi sadəcə fakt kimi bildiklərimiz, yaşadıqlarımız da ən ali hissləri oyadır. Qəhrəman, mərd oğullarımızın





yazdığı qələbə dastanı min-min illər dillərdə əzbər olacaq. Heç şübhəsiz ki, Qarabağımızı azad edən nəsili həm də bu xalqın mənəvi zənginliyi – ədəbiyyatı, sənəti, incəsənəti yetişdirdi. İllərlə dilimizdən düşməyən, bütün üsullarla anlatmağa çalışdığımız həqiqətlər heç bir zaman Qarabağda olmayan, ilk savaşdan sonra dünyaya gələn nəsilə ən doğru şəkildə çatdırıldı. Döyüşən, vuruşan, düşmənin başını əzən də məhz onlar oldu. Sənətin, ədəbiyyatın, sözün gücü də məhz ondadır.

Bütün dediklərimin yekunu kimi bu antologiyanın işıq üzü görməsinin vacibliyini vurğulamaq istərdim. Məhz bu cür əsərlərin oxuculara təqdimatı qalibiyyətimizin hərtərəfli dərki və əldə etdiyimiz zəfərə qədirşünaslıqla yanaşılması üçün vacibdir.

*Anar*
*Xalq yazıçısı*

# 44 gün, 44 gecə

Xalqımız 44 gün, 44 gecə yatmadı. Lap nağıllardakı kimi... 2020-ci il sentyabrın 27-dək kiməsə nağıl kimi gələn xəyalları gerçəyə çevirdi. 2020-ci ilin 44 sutkası tariximizə əbədi yazıldı.

44 gün 44 fəsil kimi dəyişirdi. Hər gün yeni-yeni xəbərlər gəlirdi. Əlbəttə, bu xəbərlərin başında Prezidentin tvitləri dayanırdı. Uşaqdan böyüyə, cavandan qocaya hamı – 10 milyondan çox insan hər gün intizarla yeni "tvit-xəbər" gözləyirdi. Hamının gözü onda idi! Qarabağ məsələsi başlayandan həmin "tvit-xəbərlər" qədər bizi sevindirən başqa bir xəbər nə görmüş, nə də eşitmişdik...

44 gün, həqiqətən də, 44 fəsil kimi keçdi. Biz hər gün qış intizarı ilə cəbhədən xəbər gözləyir, yaz sevinci ilə kövrəlir, yay atəşi ilə atəşfəşanlıq edir, payız qüssəsi ilə şəhidlərimizi qarşılayır, qazilərimizə yanırdıq...

44 günlük 44 fəsildə xalqımız dağı dağ üstə qoydu, yağı düşmənə dağ üstdən dağ çəkdi, mümkün olmayanları, mümkün görünməyənləri gerçəyə çevirdi və qalib gəldi. Bunun bütün digər səbəbləri ilə yanaşı bir əsas səbəbi də var idi: xalqımızın müzəffər Ali Baş Komandanın rəhbərliyi altında yumruq kimi, özü də dəmir yumruq kimi birləşməsi! Bəli, Azərbaycan 44 fəsildə sarsılmaz birlik nümayiş etdirdi, Prezidentdən sıravi vətəndaşa kimi hamı eyni cür düşündü, eyni nöqtəyə vurdu və 44 fəslin yekun fəsli kimi yurdumuza əbədi bahar gətirdi – Azadlıq baharı!

Bu gün o böyük zəfərin qazanılmasından keçən aylar ərzində ölkəmizdə hər kəs bu qələbəni öz imkanları daxilində, istedad və bacarığı, istək və zəhməti çərçivəsində əbədiləşdirməyə, heykəlləşdirməyə, təsvir, tərənnüm və vəsf etməyə çalışır, gözəl

nümunələr yaradır. Bu mənada TEAS Press Nəşriyyat evi də müxtəlif layihələr həyata keçirir. Onlardan biri də əlinizdəki bu kitabdır – Azərbaycan yazıçılarının 44 günlük Vətən müharibəsinə, Qarabağ uğrunda Azərbaycan savaşına həsr olunmuş 44 hekayədən ibarət "44 fəsil" adlı hekayələr toplusu...

Əziz oxucular, artıq bu sətirləri oxuyursunuzsa, deməli, bu layihəmizi uğurla başa çatdırmışıq. Buna görə də bir-birimizi təbrik edə bilərik.

Bu kitabda müxtəlif müəlliflərin hərəyə bir hekayə olmaqla 44 hekayəsi toplanıb. Hekayələrin bəziləri dövri mətbuatdan, ədəbi qəzet, dərgi və saytlardan götürülüb, bəziləri isə məhz nəşriyyatın sifarişi ilə yazılıb. 8 Noyabr Zəfər Günündən sonra qələmə alınmış hekayələrin əksəriyyəti bu topluya daxil edilib. Hekayələrin müəyyən qismi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin elan etdiyi "Vətənvərpərlik mövzusunda ədəbiyyat müsabiqəsi"nin və "Mir Cəlal adına hekayə müsabiqəsi"nin qalibi olub və mükafata layiq görülüb.

Əsərlər kitabda müəlliflərin adlarına uyğun olaraq əlifba sırası ilə verilir. Əlbəttə, hörmətli Xalq yazıçılarına, yaşlı və orta nəsillərin nümayəndəsi olan tanınmış söz ustalarına ehtiramımız var. Eləcə də gənc istedadlara yüksək qiymət veririk. Ancaq qərara aldıq ki, əlifba sırası, bəlkə də, ən yaxşı üsul deyil, amma, necə deyərlər, "hələ bundan yaxşısı kəşf olunmayıb".

Bu bizim 44 günlük Vətən müharibəsində bütövlükdə xalqımızın zəhmət və rəşadətini vəsf etmək yolunda bir nəşriyyat kimi töhfəmizdir. Şəhidlərimizin əbədiyyətinə, qazilərimizin dəyanətinə, əsgər və veteranlarımızın əziyyətinə, xalqımızın məharətinə bir heykəldir, yazı abidəsidir. Bu abidənin araya-ərsəyə gəlməsi üçün əsərlərini topluya daxil etməyimizə razılıq vermiş müəlliflərə, eləcə də kitab üzərində təmənnasız zəhməti olan hər kəsə dərin minnətdarlığımızı bildiririk.

*Tərtibçidən*



**Abdullah Hüseynli**

## Kaş ki yuxum çin olaydı

Komandanımızın tapşırığı əsasında ordumuzun hərbi təyyarəsi ilə düşmənin hərbi bazalarını, hücum mövqeyində olan çoxsaylı top, qrad və tanklarını məhv etməli idik. Mən sükan arxasında idim. Yanımda Ömər əyləşmişdi. Yusuf salonda üç əsgərlə düşmən obyektlərinə bomba atmalı, digər dörd əsgər isə düşmənin ərazidə olan canlı qüvvəsini atəşə tutmalı idilər. Biz necə oldu müharibədə iştirak etdik, bunu dərhal anlamaq çox çətin idi. Yadıma düşən o idi ki, biz 286 saylı tam orta məktəbdə 4 il oxumuşduq, hamı bizi "üçəm qardaşlar" adlandırırdı...

Bizə havaya qalxmaq əmri verildi. Təyyarəni çətinliklə havaya qaldırdım. Seyrək buludlardan yuxarı qalxdıq. Hə yadıma düşdü ki, 4-cü sinfi bitirəndən sonra üçümüz də qəbul imtahanı verərək yüksək balla "Zirvə" liseyinə daxil olduq... Tezliklə düşmən obyektləri yerləşən əraziyə çatdıq və bizə hücum komandası verildi. Bir qədər

aşağıdan uçurduq. Düşmən obyektlərini bombalamağa başladıq. Təyyarəmiz düşmənin artilleriya atəşlərinə məruz qaldı. Uçuşa başlamamışdan öncə zöhr namazı qılmışdıq və qələbəmiz üçün Allaha dua etmişdik. Bizə verilən tapşırıq əsasında düşmən obyektləri ətrafında beş dövrə vuraraq, düşmənin canlı qüvvəsini, bazalarında olan hərbi sursatlarını, texnikalarını və bizim orduya hücum edən tanklarını, top, artilleriya silahlarını tamamilə məhv etməli idik. İkinci dövrəni vuranda bazalardan alov və tüstü çıxdığını gördük. Təyyarəmizə atəşlər daha da artırdı. Odur ki, elə manevr edirdik ki, atəş hədəfinə gəlməyək. Təyyarəmizdən düşmən ərazisi bombalanmaqla yanaşı, onların hərbiçiləri də atəşə tutulurdu.

..."Zirvə" liseyindən sonra baş verənləri xatırlaya bilmirdim. Ancaq onu xatırlayırdım ki, biz 5-ci sinifdə bir neçə gün canlı dərslər keçdik. Hər gün bizi liseyin avtobusu aparıb-gətirirdi. Lisey çox xoşumuza gəlmişdi. Sinif otaqları və müəllimlərin dərsləri çox zəngin idi. Sonra koronavirus xəstəliyi artdığından onlayn dəslərə keçdik. Bəs sonra?!... Yadıma heç nə düşmədi. Bir onu bilirdim ki, ölkəmiz faşist ermənilərlə müharibə aparırdı. Məqsəd düşmənin işğal altında saxladığı ərazilərimizi azad etmək idi...

Üçüncü dövrəni vuranda bizə məlumat verildi ki, düşmən təyyarəsi sizə hücum edəcək, özünüzü ondan qoruyun və dördüncü dairəni genişləndirməklə növbəti hücuma bir qədər ləngiyin. Ordumuz tərəfindən düşmənin həmin təyyarəsi məhv ediləndən sonra sizə məlumat veriləcək. Düşmən təyyarəsi düz bizimlə üzbəüz gəlirdi. Ömər həyəcanla mənə çevik manevr etmək lazım olduğunu dedi və





təhlükədən sovuşduq. Çox çəkmədən bizə düşmən təyyarəsinin ordumuz tərəfindən məhv edilməsi xəbəri gəldi və biz dördüncü dövrəni həyata keçirərkən bizə olan düşmən atəşləri azalmışdı və düşmənin hərbi bazaları olan ərazidə alov və tüstü daha da çoxalmışdı.

Bu alov və tüstüləri müşahidə edərkən bizə dörd il dərs deyən və xatirini çox istədiyimiz Sumayə müəllim gözlərim qarşısına gəldi. 4-cü sinifin sonlarında Sumayə müəllim Bakıda olan ali məktəblər haqqında məlumat verərkən Milli Aviasiya Akademiyasını xüsusi ilə qeyd etmişdi. O bildirmişdi ki, ölkəmizin Qarabağ bölgəsi düşmən ermənilərin işğalı altındadır. Bu işğalda olan torpaqlarımızı sülh yolu ilə azad edə bilməsək, hərbi yolla azad etməli olacağıq. Odur ki, ordumuza hərbi təyyarələri kamil bilən pilotlar, mühəndislər, mütəxəssislər də lazım olacaq.

İndi biz Vətən müharibəsində təyyarə idarə edir və düşmənə sarsıdıcı zərbələr endirirdik. İlk fikrimdən keçən o oldu ki, Sumayə müəllim eşitsə, çox şad olacaq.

Öz suallarıma cavab tapa bilmirdim. Necə oldu ki, biz hərbi təyyarəni idarə etməyə başladıq? Atamız minik avtomobilini sürməyi üçümüzə də öyrətmişdi. Lakin təyyarə sürmək barədə bir kəlmə də deməmişdi. "Bəlkə təyyarə sürməyi bizə qohumumuz Emil əmi öyrədib", – bir anlıq düşündüm. Emil Mayılov Vətənimizin sərhədlərinin keşiyində duran çox təcrübəli pilotdu, helikopter idarə edirdi. Emil əmi cavan olmasına baxmayaraq hamı ona həmişə hörmətlə yanaşırdı. Son günlər Vətən müharibəsində ölkəmizi mənfur düşmənin hava hücumundan müdafiə edirdi. Pis düşmən qoşunlarının başına yuxarıdan od yağdırırdı. Doğma torpaqlarımızın geri

alınmasında xüsusi rolu oynayırdı. O, döyüşdən sağ-salamat qayıdanda biz üç qardaşa dünyanın ən gözəl hədiyyəsini – Azərbaycan bayrağını gətirəcəyinə söz verib.

Bizə komandanlıq tərəfindən sonuncu – beşinci dövrəni vurmaq əmri verildi. Artıq səmada sərbəst uçurduq, düşmən tərəfdən bizə atəş yox idi, bizə hücum edən bir düşmən təyyarəsi də gözə dəymirdi. Yəqin ki, onların bir təyyarəsi ordumuz tərəfindən məhv ediləndən sonra düşmən qorxmuş və bizə təyyarə ilə hücum planından vaz keçmişdi. Düşmənə son zərbələri endirdik. Beşinci dövrəni başa vurandan sonra bizə eniş əmri verildi. Normal eniş etdik. Komandanlıq bizi qarşılayaraq uğurlu hava hücumu münasibətilə təbrik etdi. Məlum oldu ki, düşmənin iki yüzə yaxın canlı qüvvəsi, nəzərdə tutulan hərbi bazaları, döyüş silahları olan top, "Qrad" qurğusu, tankları məhv edilmiş və dörd ədəd tank, 5 ədəd avtomobil də qənimət götürülmüşdür. Bütün bunları beynimdə təhlil edərkən nəhayət əsas sualıma cavab tapdım. Biz üçəmlər – mən, Yusuf və Ömər Azərbaycan Milli Aviasiya Akademiyasının Hava gəmilərinin uçuş istismarı fakültəsində oxuyurduq. Üçümüz də orduya könüllü yazılmışdıq və Vətən müharibəsində iştirak edirdik.

"Zirvə" liseyinin 5-ci sinfi ilə Milli Aviasiya Akademiyası arasında olan müddətdə harada olmuşuq?" sualına cavab axtararkən ardıcıl partlayış səsləri gəldi. Ətrafıma göz gəzdirdim. Yataq otağında idim, yanımda heç kim yox idi. Çox qəribədir, hərbiçilər də sanki yox olmuşdular. Bir anda başa düşdüm ki, mən evimizdə, yataq otağındayam. Yenə də partlayış səsləri eşitdim. Qonaq otağına keçdim, atam, anam, Ömər və Yusuf da orada idilər. Onlar





televizorda Ali Baş Komandanımız, hamımızın sevimlisi və fəxrimiz olan möhtərəm prezidentimiz İlham Əliyevin Şuşanın işğaldan azad olması münasibəti ilə xalqa müraciətinə baxırdılar. Mən də onlarla birlikdə bu şad xəbərin paylaşılmasında iştirak etdim. Anladım ki, baş verənlər sən demə yuxu imiş və dərhal yuxumu onlara danışdım. Bildirdim ki, mən Azərbaycan Milli Aviasiya Akademiyasının Hava gəmilərinin uçuş istismarı fakültəsinə daxil olmağı qəti qərara almışam, mənə diqqətlə qulaq asan qardaşlarım Ömər və Yusuf da məni dəstəkləyərək hərbi təyyarəçi olmaq istədiklərini bildirdilər. Ata və anamız da bir ağızdan bizi dəstəklədilər.

Bu gecəyarısı bir qədər sübh namazına yaxın artıq 9 noyabr 2020-ci il idi. Dünən Şuşa şəhərimizin işğaldan azad olması münasibəti ilə bizim həyətdə və binalarda olan şadyanalıq axşamdan başlayaraq indiyə kimi davam edirdi. Məni yuxudan oyadan son partlayış səsləri isə qonşumuzun eyvanından atılan fişəng səsləri imiş. Bütün bu baş verənlərin xoş təsiri altında istər-istəməz məndə belə arzu yarandı: kaş ki yuxum çin olaydı...

**Akif Orxan**

# Yuxu

Sizə bir yuxu danışmaq istəyirəm. Şirin yuxu. Həm də zəhər kimi acı...

Arif astaca örtülən qapının səsindən göz qapaqlarını araladı, yavaş-yavaş yerindən qalxıb qapıya yaxınlaşdı. Bir əli ilə qapını açdı. Oğlu Orxan qapıdan 4-5 metr aralıda əyilərək telefon işığında yerdə otların arasında nəsə axtarırdı. Arif bir anlıq duruxandan sonar anladı ki, oğlu cibindən götürdüyü qəpik-quruşu əlindən salıb itirib, indi onu axtarır...

Orxan orta məktəbi bitirərərək ali məktəbə, hüquq fakültəsinə qiyabi şöbəyə daxil olmuşdu. İşləmək istəyirdi. Atasından onu hər hansı bir işə düzəltməyi xahiş edirdi. Lakin iş tapmaq elə də asan deyildi. Atası ona bunu bildirsə də, Orxan inadkarlığından əl çəkmirdi, bəs nə vaxtadək atamın cibindən pul götürəcəyəm deyirdi anasına. Sonradan Orxanın iş məsələsi də düzəlmişdi və o, şələ-küləsini də yığışdırıb Bakıya getmişdi. Qardaşının





dostu Bakıda işləyirdi və ona bir işçi lazım idi, maaşı da babat idi. Lakin axırda bu iş də alınmamışdı.

Belə ki, Orxanın burun çəpərində əyrilik vardı, polis akademiyasına qəbul olmaq üçün sənəd vermişdi. Komissiyadan keçəndə məhz burun çəpərində olan əyriliyə, onurğa sütununda olan anadangəlmə qüsurlara və damar genişlənməsinə görə bu sistemə yarasız olduğu bildirilmişdi. Burunla nəfəs almasında çətinlik vardı. Ona görə də anasının məsləhəti ilə Arif onu klinikaya aparmışdı. Həkim müayinəsindən sonra əməliyyat olunmuşdu. Lakin həkim Orxanın işləmək arzusunu gözündə qoymuşdu. Belə ki, ona bir müddət işləmək olmazdı. Buna görə də Orxan gec yatır və gec dururdu. Yuxudan ayılanda anasından başqa hamı işdə olurdu. Buna görə də axşam yatmamışdan əvvəl atasının ciblərinə baxır səhər üçün qəpik-quruş götürürdü.

Arif qapının arasından azca baxandan sonra Orxana "ə, dur gəl bəri" dedi. Lakin Orxan dillənmədi. Arif bir az da ötkəm səslə təkrar "ə, dur gəl bəri" deyib içəri qayıtmaq istədi. Fikrində cibindən Orxana pul vermək idi. Bu anda Orxan əyildiyi yerdən başını asta-asta qaldırıb sakitcə üzünü atasına çevirdi... Bu sakit və həlim baxışlarda nələr vardı, nələr... Sanki atasına demək istəyirdi ki, "ata, necə gəlim, ata?"

Arif asta-asta gözlərini açdı. Hava hələ qaranlıq idi. Çarpayının yanındakı stulun üstünə qoyduğu telefona əl atdı. Saat 5-ə qalırdı... 11 dekabr 2020-ci il... Yavaş-yavaş fikri iki ay bundan əvvələ, o müdhiş gecəyə, 10 oktyabra qayıtdı.

O gecə də bu dəqiqələrdə qəflətən pəncərə taqqıltısına oyanmışdı. "Kimsən?" sualına böyük oğlu Turalın

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 118232

"ata, qapını aç" səsini eşitmişdi. Fikirləşmişdi ki, yəqin açarı evdə qalıb, ona görə də yerindən qalxıb qapını açmağa getmişdi. Qapını açanda həyətin ortasında daş kimi dayanmış qardaşı Əlinin "paltarını geyin" dediyini eşitmişdi. Vəssalam. İçəri qayıtmışdı. Bir saniyənin içində gözləri qaralmış, dünya başına fırlanmışdı. Ayaq üstə durmağa heyi qalmamış, astaca evin ortasına çökmüşdü...

19 yaşı cəmi dörd gün əvvəl tamam olmuş əziz balası Orxanın şəhid olduğunu deməyə ehtiyac qalmamışdı.



**Aqil Alışov**

## Torpağı öpən ata, savaş marşı oxuyan əsgər ruhu

Qarşıdakı düşmən mövqeyində yerləşən snayperi zərərsizləşdirmək üçün əməliyyat qurmuşdum. Gecə saat 3-də üç əsgərlə neytral ərazidə mövqe tutmuşduq. Səhərə yaxın əməliyyata başladıq. Bu döyüşdə snayper də daxil olmaqla düşmənin 8 əsgəri məhv edildi. Düşmənin mövqe tutduğu strateji bir səngəri ələ keçirdik. Üç əsgərdən biri ən çox sevdiyim və cəsarətindən həmişə qürur duyduğum İsmayılov idi. Lənkərandan olan bu cəsur oğlan hər atışmada ən qaynar nöqtəyə can atardı. Biz postu alanda İsmayılov qəfil yıxıldı. Tez onu araya aldıq. Məlum oldu ki, döyüş zamanı sinəsindən güllə yarası alıb, amma düşmən tam məhv edilənə qədər dözüb və özünü səngərə çatdırıb. Sinəsini açdıq, al-qanın içində idi. Tez köynəyimi cırıb ehmalca yarasının üstünə basdım ki, qan səngisin. Onu çiynimə alıb geri qaçmağa başladım ki, vaxtında həkimə çatdırıb xilas edək.

Yolda onu yerə qoymağımı xahiş etdi:

– Komandir, məni yerə qoy, üşüyürəm, – dedi.

İsmayılovu astaca yerə qoyub yaxasını açdım ki, rahat nəfəs ala bilsin.

Nəfəsi tıncıxmışdı, qan onu boğurdu. Birdən ağzını açıb nəsə demək istədi, səsi xırıldadı, deyə bilmədi. Sonra gülümsədi və gözlərini yumdu.

Dizlərim büküldü, yerə çökdüm.

Arxamızca gəlib yanımda yerə çökən əsgərə pıçıltı ilə:

– İsmayılov şəhid oldu, – dedim.

Onun nəşini postumuza gətirəndə yolda hərbi hissənin komandiri zəng etdi:

– İsmayılovun atası gəlib, sabah ad günüdür. 7 günlük icazə istəyir. İstəyir ki, ad gününü evdə keçirsin. Onu yola sal, gəlsin, – deyə tapşırıq verdi.

– İsmayılov şəhid oldu, komandir...

– Necə yəni? – komandir tutuldu. – İndi nə cavab verim mən bu kişiyə?

Mən vəziyyəti izah etdim. Komandir dedi ki, onda atasına özün de.

Bir az keçdi, zəng gəldi:

– Salam! Əsgər İsmayılovun atasıdır, komandir. Ona icazə verə bilərsinizmi?

– Hə, icazə verərəm, əmi. 7 günlük yox, həmişəlik, – deyə hönkürdüm.

Kişi dərindən nəfəs alıb susdu...

Mən hərbi hissəyə çatanda qanın içində idim. Hamı elə bildi ki, mən də yaralanmışam. Amma bu, İsmayılovun qanı idi... Oğlunun nəşini görən atanın isə gözlərindən yaş giləlenirdi. Şəhidin cənazəsini yola saldıq.





40 gündən sonra zəng gəldi ki, İsmayılovun atası gəlib. "Görəsən, nəyə gəlib?" – deyə düşündüm.

O yanıma gəldi. Sonuncu xahişə gəldiyini dedi:

– Komandir, bu, son xahişimdir. Məni oğlumun şəhid olduğu yerə apar.

Biz onu İsmayılovun şəhid olduğu posta apardıq. Biz o posta İsmayılovun adını vermişdik...

– Burada son nəfəsini tapşırdı, əmi, – dedim.

Şəhidin atası diz üstə çöküb oğlunun qanı axmış torpağı öpməyə başladı. Üz-gözü palçığa, toz-torpağa bulaşırdı. Biz quruyub qalmışdıq. Nə deyəcəyimizi bilmirdik. Bu, dəhşətli mənzərə idi: yerdə qan, göz yaşı və torpaq, göydə isə igid bir əsgərin savaş marşı oxuyan ruhu...

**Alpay Azər**

# Ay işığında tabut

Axşam saat doqquzda evdə oturub xəbərlərə baxdığım vaxt Hərbi komissarlıqdan zəng elədilər ki, Qarabağdan şəhid gətiriblər, təcili Aytəpə kəndinə aparmaq lazımdır.

Doxsan ikinci ilin iyun ayı idi, İcra hakimiyyətinin humanitar şöbəsində il yarımıydı təlimatçı işləyirdim. İndiyə qədər rayonumuza gələn iyirmi səkkiz əsgər meyitini Hərbi komissarlığın zabitiylə bir yerdə aparıb ailələrinə təhvil vermişdim. (Hamısının da adını, soyadını sıra nömrəsiylə bloknotuma yazırdım.) Ağlaşmalara, ağılara hardasa öyrəşmişdim, bircə qızlar, qadınlar, nənələr üzlərini cıranda, yanaqlarından axan qanı görəndə, söyürdüm bu həyatı.

Qaçaraq özümü çatdırdım Hərbi komissarlığa. Dedilər ki, bu dəfə mənə köməkçün adam verə bilməyəcəklər: iki saat əvvəl cəbhədən gələn əsgər meyitini bir podpolkovniklə başqa kəndə göndərmişdilər. "Ona görə incimə, qardaş, tabutu köməkli maşına qoyarıq, ora çatanda yaxınları





kömək eliyərlər sizə", – komissarın müavini narazı sifətimi görüb dedi. Üstəlik, ordan icranın Aytəpədəki nümayəndəliyinə nə qədər zəng etsəm də, telefonu götürən olmadı: tapşıracaqdım, kimsə bir saat sonra məni kəndin girəcəyində gözləsin, meyiti bir yerdə aparıb ailəsinə verək. Öz-özümə deyinsəm də, pəncərədən qaranlığa baxanda başa düşdüm ki, bu vaxt işdə kiminsə olmaması normaldı.

Məsələnin başqa bir pis tərəfi Hərbi komissarlıqda işləyənlərin indi meyitini apardığımız on doqquz yaşlı İbrahimov Qurban Sahib oğlunun hansı kənddən olduğunu gec müəyyən etməkləriydi: şişməsin deyə, bədəninə buz parçaları bağlayıb bir gün komissarlığın zirzəmisində saxlamışdılar.

Artıq daşlı-kəsəkli dağ yoluyla gedirdik. Mənə elə gəlirdi, tabutu lazım olan qədər mismarlamayıblar, maşınımız hər dəfə çala-çuxura düşəndə, deyirdim, bu dəqiqə mismarlar laxlayıb yerindən çıxacaq, tabutun qapağı açılacaq, ona görə tez əlimlə üstündən yüngülcə basırdım. İlk dəfəydi gecə, üstəlik, yaxınlarına xəbər etmədən əsgər meyiti aparırdım. Yolda ağlıma gəldi ki, kəndə girən kimi qarşımıza çıxan birinci evin qapısını döyüb şəhidin ailəsinin yaşadığı ünvanı soruşub öyrənim. Amma fikirləşəndə ki, qapını açan meyit yiyəsi ola bilər, ətim ürpəşdi.

Arada gözümü tabutdan çəkib aya baxanda, özümü başqa yerdə hiss edirdim: bədirlənmiş ay məni gecə tabutu xofundan xilas edirdi, bir az rahatlıq gətirirdi mənə. Amma elə ki "UAZ"ımız kələ-kötür yollarda silkələnirdi və ay işığı gah tabutun başına, gah da ortasına düşürdü, onda meyit rənginə oxşar taxta tabutun üzərində hərəkət edən, titrəyən ayın əksindən xoflanırdım. Vahimədən qəfil xəyalıma belə bir şey gəldi: ordan çıxan əsgərin ruhu

üzbəüz oturub mənə dedi ki, xəbərim var, indiyə qədər özüm daxil rayonumuza gələn iyirmi doqquz əsgər meyitini aparıb yaxınlarına çatdırmısan. (O vaxtlar, elə indi də, inanıram ki, ruhlar bu dünyada baş verənlərdən xəbərdardılar, üstəlik, adamların ürəyini oxuya bilirlər.) Amma bu dəfə sənə çətin olacaq, özün də bilirsən, evdəkilərin heç nədən xəbəri yoxdu, ona görə hazır ol, anam, atam sənə ən ağır sözlər deyəcəklər. Cavab verdim ki, nə günah iş tutmuşam, məni söysünlər, tapşırılan işi görürəm də, kimsə bunu etməlidi, ya yox? Xəyali söhbətimizin bu yerində sürücü qəfil əyləci basdı, tabut irəli gedib maşının böyrünə dəydi. Ürəyim düşdü, elə bildim, bu dəqiqə qapağı açılacaq.

– Nooldu?! – sürücüyə qışqırdım.

– Keçi çıxdı qabağıma, – xısın-xısın güldü. – Deyəsən, dağ keçisiydi.

– Eee, – əsəbiləşdim bunun gülməyinə, tabutu maşının ortasına çəkdim.

Artıq kəndə yaxınlaşırdıq, adda-budda işıqlar sayrışırdı. Hərbi komissarın müavini şəhid əsgərin ailənin tək övladı olduğunu demişdi: qohum-əqraba yığışandan sonra ağlaşmanı balaca kənddə, yəqin çox adam eşidəcəkdi.

Ön pəncərədən irəli baxıb bilmək istəyirdim görüm, birinci evin işığı yanırmı, sürücü qəfil əyləci basdı, ardınca küt "tupp" səsi eşidildi. Müvazinətimi saxlayammadım, dizlərim tabuta dəydi.

– İndi nə idi?! – ayağa durub qışqırdım.

Sürücü heç nə demədən əliylə sükana bir zərbə vurub qabaq qapıdan, dalınca da mən arxa qapını açaraq yerə düşdük. Gecə paltarının üstündən qara, yun jaket





geymiş ortayaşlı, arıq bir qadın arxası üstə uzanmışdı, gözləri yarıyumulu halda inildəyə-inildəyə nəsə deyirdi. Sürücüylə mən tez onu yerdən qaldırdıq, uzun saçlarının ucları az qalırdı yerə dəysin, aparıb maşında tabutun yanına uzatdıq. Sürücü öz kabinəsinə qayıdıb, ordan su dolu şüşəni gətirib, bizə qəribə-qəribə baxan qadının üzünə su çiləməyə başladı:

– Ay arvad, gecənin bu vaxtı bizi xataya salmaqda nədi məqsədin? Yaxşı ki, vaxtında əyləci basdım. Yoxsa, Allah göstərməmiş, – mənə baxıb davamını demədən başını buladı. – Müəllim, neyniyək? Aparaq bunu rayon balnisəsinə?

Qadın qəfil əllərini yerə dirəyib dikəldi:

– Mənə heç nə olmayıb. Sür kəndə, – sürücüyə baxıb əmr tonunda dedi...

Maşın yavaş-yavaş kəndin içərisinə doğru hərəkət edirdi, artıq iki-üç evin yanından keçmişdik. "Bu qadın kimdi?" sualına cavab axtarsaq da, nə mən, nə də sürücü özündən nəsə soruşmağa cəsarət edirdik. Tabutu sığallamağa başlayan qadın ağlamsınıb həzin səslə "Gəlməyini xəbər eliyən balam" deyəndə içimdə zəlzələ baş verdi. "Hardan bilib?" Başa düşdüm ki, kimsə bizdən qabaq kəndə çatıb xəbər edib oğlunun şəhid olduğunu.

– Buludlar pilləkən kimiydi, – gözlərini mənə zilləyib danışmağa başladı, – balam buludların üstüynən qaça-qaça göydən yerə gəlirdi. Dedim, a bala, tələsmə, yıxılarsan. Qayıdasan ki, qorxma, ay ana, pambıq kimidi buludlar, elə yumşaqdılar ki, – son sözləri uşaq kimi dedi. – Sonra da gülə-gülə "Baax" deyib hoppandı ən yekə buludun üstünə, – qəfil əsəbiləşdi. – Zəhrimar bulud da

qaçdı o yana. Gördüm, balam ildırım sürətiynən düüüz üstümə gəlir. Elə sürətnən gəlirdi, əllərimi açıb tutmağa qorxurdum, elə bilirdim, saxlayammıyacam, əlimdən sürüşüb yerə dəyəcək, tikə-tikə olacaq. Vaay deyib qışqırdım. Ayılan kimi durub qaça-qaça çıxdım yola... Kaş elə balam düşəydi başıma, – iki əliylə başına vurdu, – məni də yanına aparaydı.

Danışdıqca sifətində yaranan əsəb, həyəcan, peşmanlıq ifadələri elə təbii idi, sanki bütün bunlar başına gəlmişdi. Tüklərim biz-biz olmuşdu, dilim-ağzım kilidlənmişdi. Az sonra qadın sürücüyə səsləndi:

– Qadan alım, bir az qabaqda körpü görəssən, onu keçəndən sonra sola dönüb dördüncü evin qabağında saxlıyarsan, – bunları deyib başını tabutun baş tərəfinə qoydu, başladı oğluyla pıçıltıyla danışmağa, dediklərindən heç nə başa düşmədim.

Ay işığı tabutu sığallayan "Buluddan yıxılan balam" desə də, gözündən bir damcı yaş çıxmayan ananın arxaya getmiş kəlağayısını, azca ağarmış saçlarını, bir də tabutun özünü işıqlandırırdı. Mənsə heykələ dönüb anayla balanın görüşünə tamaşa edirdim.



**Arif Ərşad**

# Torpağa qarışan qan

Artıq üç gün idi ki, ermənilər kəndi atəş altında saxlayırdılar. Kiçik və iriçaplı silahlardan atılan güllələrlə dinc əhalini vahiməyə salmağa çalışırdılar. Hələ iki ay əvvəl – iyul ayında ermənilərin sərhədlərimizə hücumundan sonra başlanmış beşgünlük müharibə də eyni ssenari üzrə hazırlanmışdı. Düşmən Qarabağdan çox uzaqda olan sərhəd kəndlərimizi atəşə tutmuş, dinc sakinlərin evlərini bombalamışdı. Öz həyətində ağacları suvaran qocaman kənd sakini, 76 yaşlı Əziz kişinin evinə düşən mərminin qəlpələri onun həyatına son qoymuş, həyətdəki tut ağacına hörüklənmiş sağmal inəyini və yaxınlıqda otlayan səkkiz qoyununu, həyət-bacada hərlənən xeyli toyuq-cücəsini yerə sərmişdi. Qonşuya yuxa salmağa köməyə getmiş Nisə arvad partlayış səsini eşidən kimi əlləri unlu halda özünü həyətlərinə yetirəndə artıq gec olduğunu, başından və sinəsindən qəlpə yarası almış əlli illik ömür-gün yoldaşını cansız halda torpağa

yayılan qan içində görmüşdü. O, artıq alovlanmaqda olan, uçub-dağılmış evinə baxaraq, ərinin meydinin yanında yerə çökmüş, son dəfə "Səni yanasan, erməni!" – deyə hayqıraraq saçlarını yolmaq üçün əllərini yuxarı qaldırmaq istədiyi anda ürəyi dözməmiş, elə yerindəcə infarktdan keçinmişdi...

Yayda olan bu hadisədən artıq iki ay keçməsinə baxmayaraq ermənilər tərəfdən atəş hələ də davam edirdi. Onlar bununla kənd əhalisində narahatlıq və təlaş yaratmağa çalışırdılar. O zaman ordumuz erməni təxribatının qarşısını alsa da, düşmən payızın son həftəsində yenidən işğal olunmuş ərazilərdən dinc əhalinin yaşadığı kəndləri atəşə tutmağa başlamışdı. Bununla da onlar bir daha bu kəndlərin sakinləri arasında xof yaratmağa və əhalini yenidən öz doğma yerlərindən pərən-pərən salmağa çalışırdılar. Lakin onlar buna nail ola bilməyəcəklərini görüb, bu dəfə top atəşlərindən daha çox istifadə edirdilər. Ermənilər səngərlərdə onlarla üzbəüz dayanan rəşadətli ordumuzla döyüşməyə deyil, əsgərlərimizin başı üzərindən cəbhə xəttindən xeyli aralıda yerləşən kəndlərin dinc əhalisini ağır toplardan intensiv atəşə tutmağa üstünlük verirdilər. Ermənilərin təxribatı nəticəsində müharibənin yenidən başlandığı üç gün ərzində kənddəki bir çox evlərə, mağazaya, məktəbə, uşaq bağçasına, poçt şöbəsinin və kənd icra nümayəndəliyinin inzibati binalarına düşən mərmilərdən artıq səkkiz dinc sakin dünyasını dəyişmiş, müxtəlif dərəcəli qəlpə yaraları alan on iki nəfər isə xəstəxanalara yerləşdirilmişdi. Yaralananlardan ikisinin vəziyyəti çox ağır olduğundan onları gecəykən paytaxtın mərkəzi klinikasına köçürmüşdülər. Əhali arasında ən çox





hiddət doğuran isə ölənlərdən ikisinin məktəbli olması idi. Amma bütün bunlara baxmayaraq kənd əhalisi evlərini tərk etmək barədə düşünmür, dədə-baba torpaqlarından, yurd-yuvalarından müvəqqəti də olsa ayrılmağı heç ağıllarına belə gətirmirdi. Camaat ordumuza güvənərək gündəlik adi həyatlarını yaşayır, əkin-biçinlə, heyvandarlıqla məşğul olmaqda davam edirdi.

İllərdir ki, ilk xoruz banı olmamış yuxudan oyanan, bu dəfə isə səhərə qədər atılan güllə səslərindən onsuz da yuxusu ərşə çəkilən Yaqub yatağından qalxıb həyətə çıxdı. Sərin payız havasını bir neçə dəfə dərindən sinəsinə çəkib gərnəşdi, əl-qol ataraq idman hərəkətləri edirmiş kimi bir-iki dəfə oturub-durandan sonra, beş yaşlı oğlu Namiqin dünən axşamdan həyətin ortasında qalmış rezin topuna ehmalca bir təpik vurub çəpərə sarı yönəltdi və tələsmədən tövləyə tərəf getdi. Tövlənin qapısını açıb heyvanları kəndin "nobat" sürüsünə qatmaq üçün çölə buraxdı. Hər səhər olduğu kimi, yenə də dərindən nəfəs alaraq, asta səslə öz-özünə "Allah Ali Baş Komandanımızı və rəşadətli ordumuzu qorusun!" – deyə dua etdi.

O bu cür dualar etməklə yanaşı, dövlətin ona yaratdığı şəraitə görə Allaha şükür ifadə etməkdən də yorulmurdu. Hər dəfə mal-qarasını qabağına qatıb sürüyə ötürəndə "Maşallah, Allah bərəkət versin! Allah pis gözlərdən qorusun!" deyə tez-tez şükranlıqla dua edərdi. Bu artıq onda bir adət halını almışdı. Hələ dörd-beş il bundan qabaq işğaldan azad olunmuş kəndlərinə qayıdanda qapısında bir toyuğu belə olmayan Yaqubun, bu gün artıq yüzlərlə toyuq-cücəsi, 50 baş qoyunu, altı baş iribuynuzlu mal-qarası vardı. Dövlət onun ailəsini dədə-baba məhləsində,

uçub-dağılmış evlərinin yerində yeni tikilmiş müasir, tam təmirli üçotaqlı, kürsülü evə köçürməkdən başqa, onlara damazlıq üçün əvəzsiz olaraq 10 baş qoyun və bir baş yanı balalı sağmal inək vermişdi. Bu illər ərzində o, heyvanlarının sayını artırmış, təsərrüfatını xeyli böyütmüşdü. Uşaqlarının körpə olmasına baxmayaraq bu işdə ona həyat yoldaşı da bacardığı qədər kömək göstərirdi. Onların qayğısına qalmaq, ev işlərini görməkdən başqa, heyvanları sağmaq, südündən pendir, yağ tutmaq arvadının öhdəsinə düşürdü. Heyvanları rahlamaq, hər gün tövləni təmizləmək, il boyu onların yemlənməsini təmin etmək üçün ot tədarükü görmək, nobata getmək, bağında yetişən mer-meyvəni, tərəvəzi, eləcə də yumurta, süd, qatıq, pendir və yağ kimi məhsulları satmaq isə Yaqubun üzərinə düşürdü. Arvadı Pəri şəhərdə doğulub böyüsə də gəlin gəldiyi bu beş-altı ildə çətin kənd şəraitinə çox tez öyrəşmişdi, hər hansı bir işdə özündən deyib döşünə döyən kənd qızlarından heç də geri qalmırdı. Oğlu Namiqin, səkkiz aylıq südəmər qızı Nailənin qayğıları da onun bu işləri görməyinə mane olmurdu. Ən başlıcası isə o, bütün bunları çox həvəslə görür və heç vaxt işin ağırlığından və ya çoxluğundan şikayət etmirdi. Hərdən Yaqub da onun bu qədər işi bacarıqla görüb vaxtında başa çatdırmasına heyran qalırdı. Hələ hərdən söhbət düşəndə Pəri ərinə yarı zarafat, yarı gerçək, deyirdi ki, qoy hələ bu müharibə qurtarsın, ordumuz bu mənfur erməni işğalçılarını qovub torpaqlarımızdan çıxardandan sonra, təsərrüfatımızdakı qoyunların sayını 200 başa çatdırmasam, heç atamın qızı deyiləm. Anamın işlədiyi uşaq bağçasını öz öhdəmə götürüb, körpələri pulsuz-təmənnasız ət-südlə, mer-meyvə ilə təmin edəcəyəm...





Hinin qapısını açıb, toyuqlara bir vedrə dən səpəndən, qablarına su tökəndən sonra Yaqub darvazanı açaraq heyvanları qabağına qatıb kənd yoluna tərəf sürdü. Kəndin o başından gələn naxır onsuz da gəlib onun yanından ötəcəkdi deyə, həmişəki kimi yenə də elə burada gözləməyi qərara aldı. Bu vaxt onun mobil telefonu zəng çalmağa başladı. Pencəyinin cibindən çıxartdığı telefonunda Bakıda yaşayan baldızının adını görəndə narahatlıqla düyməni basdı:

– Alo! Eşidirəm Gülpəri! Sabahın xeyir!

– Salam, Yaqub! Yuxudan oyatmadım ki?

– Yox, yox, evdə deyiləm, heyvanları örüşə ötürürəm. Nə işdi? Səhərin gözü açılmamış xeyir ola zəng eləmisən? Narahat oldum.

– Elə biz də dünəndən çox narahatıq. Bütün gecəni yatmamışıq. Axşamüstü səfərbərlik xidmətindən evə zəng vurmuşdular ki, Nazim döyüşlərdə ağır yaralanıb, müalicə üçün bu gün axşama qədər onu Bakıya gətirəcəklər. Bunu eşidəndən sonra anamı hələ də sakitləşdirə bilmirik. Deyir ki, yəqin oğlum ölüb, bunlar da məni aldadırlar. Atam da deyir ki, anamı ancaq Pəri sakitləşdirə bilər. Çağırın Pərini, uşaqları da götürüb gəlsin Bakıya.

Yaqub həyəcanla soruşdu:

– Necə yəni, kim dedi ki, Nazim ölüb?

– Demədilər ey öldüyünü, anam özündən belə düşünür. Cəbrayıl rayonu uğrunda gedən şiddətli döyüşləri televiziya kanallarından izləyəndən sonra arvad özü belə fikrə gəlib. Anadır da, bəlkə də ürəyinə...

Yaqub Gülpəriyə sözünü bitirməyə imkan vermədi:

– Yox, yox, qətiyyən elə düşünməyin! Mən elə bir-iki saata Pərini uşaqlarla birlikdə şəhərə yola salaram. Amma

belə vəziyyətdə mən də onlarla gələ bilmərəm, düz başa düşün, kəndin bu günündə el adamı qınayar. Atışma bir balaca səngiyən kimi gələrəm. Amma bilmirəm bu xəbəri Pəriyə necə deyim?

– Bilmirəm, birtəhər de, başa sal ki, getməlisən, qardaşın ağır yaralıdır. Sən özün hələlik gəlmə, amma uşaqları mütləq göndər! Eşidirsən məni, özün gəlmə, uşaqları göndər! – Gülpəri bunu deyib telefonu söndürdü. Bir dəqiqə keçməmiş yenidən Yaqubun telefonuna zəng gəldi. Zəng edən və bayaqkından fərqli olaraq bu dəfə ağlayaraq hıçqıra-hıçqıra danışan yenə də Gülpəri idi: – Yaqub, Nazim haqqında həqiqəti təkcə mən bilirəm və bunu axşamdan sinəmdə gizli saxlayıram. Sənin xətrini tək yeznə kimi yox, həm də böyük qardaş kimi nə qədər çox istədiyimi bilməmiş deyilsən. Ona görə də hər şeyi sənə açıq deyirəm. Ürəyim partlayır... Axşam zəngindən sonra ürəyim çox narahat idi. Zəng edən hərbi çağırış nümayəndəsindən Nazimin necə və harasından yaralandığını soruşanda, cavab verməkdə çətinlik çəkdiyini hiss etdim. Buna görə də özüm gecə sakitcə həyətə çıxıb hərbi hissəyə zəng edərək Nazimin komandiri ilə danışdım və nə qədər çətin, ağır olsa da həqiqəti eşitməyə hazır olduğumu ona söylədim. O, döyüşlərdə qəhrəmanlıq göstərən Nazimin erməni snayperi tərəfindən ürəyindən vurulduğunu söylədi. Eşidirsən məni?.. Nazim yoxdur artıq, qardaşım şəhid olub!..

Telefon Yaqubun əlindən sürüşüb ayağının altındakı gölməçəyə düşdü və deyəsən onun heç bundan xəbəri də olmadı. Elə bu vaxt kəndin naxırını örüşə aparan oğlan onun yanından ötərkən salam versə də Yaqub heç





qımıldanmadı da. Oğlan bir söz deməyib çiyinlərini oynadaraq Yaqubun heyvanlarını qabağına qatıb, fit çala-çala dərə aşağı getməyə başladı.

Bir neçə dəqiqə durduğu yerdəcə donub qalan, düşmənin atdığı mərmi səsindən diksinərək özünə gələn Yaqub, kəndin o biri başında yaşayan taksi şoferi Bəhmənin evinə sarı yollandı. Belə vəziyyətdə onun köməyinə ancaq Bəhmən çata bilərdi.

Bəhmən II qrup müharibə əlili idi. Hələ 1992-ci ildə torpaqlarımız uğrunda gedən döyüşlərdə sol ayağını itirmişdi. Yeriyəndə ayağının birinin protez olmağı azacıq bilinirdi. Bütün bunlara baxmayaraq ümumilikdə səhhəti ona maşın sürərək Tərtər – Bakı yolunda taksi fəaliyyəti ilə məşğul olmağa heç bir çətinlik yaratmırdı. O, köhnə "Mercedes" maşını ilə hər gün camaatı rayondan şəhərə və əksinə daşımaqla məşğul olur, ailəsinə çörək pulu qazanırdı.

Darvazaya yaxınlaşan Yaqub Bəhmənin alaqapısını döyməklə kifayətlənməyib, onu adı ilə də səsləməyə başladı. Alaqapını özü açan Bəhmən Yaqubun ağarmış sifətini görüb narahatlıqla soruşdu:

– Sabahın xeyir. Nə olub, a qağa? Elə haylayırsan ki, elə bil kəndimizin bombalanmasını ilk dəfədi görürsən, həyəcanla mənə xəbər verməyə gəlmisən!

– Yox, ay Bəhmən. Atışma neçə illərdi səngimək bilmir. Ermənilərin kəndə atdıqları bombaları onsuz da özün eşidib görürsən. Özün də müharibədə can qoymusan. Ermənilərin mülki əhaliyə qarşı törətdikləri bu təxribatların da ilk dəfə deyil şahidi oluruq. Amma daha əvvəlki vaxtlar deyil, artıq qorxmağa da heç bir əsas yoxdur,

ordumuz ermənilərin vəhşiliklərinin qarşısını qətiyyətlə alır. Mən başqa məsələ üçün gəlmişəm. Sən bu gün Bakıya gedəcəksənmi?

– Hə, gedəcəyəm, amma qabaq oturacaqda bir müştərim var. Arxaya yerləşərsinizmi?

– Hə, yerləşərlər. Mən getmirəm, uşaqları göndərirəm. Nə vaxt yola düşürsən?

– Çörəyimi yeyim, yarım saata tərpənəcəm. Uşaqları şəhərə yollamaqda xeyirdirmi? Yoxsa...

– Yox, yox, xeyir deyil! Pərinin qardaşı dünən Cəbrayıl rayonu yaxınlığında gedən döyüşlərdə şəhid olub. Bu axşam onun meydini dəfn etmək üçün şəhərə aparacaqlar. Hələ bu barədə heç Pərinin özü bilmir. Sən də yolda ona bu barədə heç nə demə, elə et bilməsin. Onu atasıgilə "Qardaşın ağır yaralanıb" adıyla yola salacam, məsələdən Bakıda xəbər tutsa yaxşıdır. Allah torpaq uğrunda ölən bütün şəhidlərimizə rəhmət eləsin! Mən gedim, sən də hazırlaş. Səni evdə gözləyirəm, darvazanın yanına çatanda siqnal verərsən, çıxarıq. Tez gedim ki, uşaqlar da yola hazırlaşsınlar...

Yaqub darvazanın balaca qapısını açıb həyətə girəndə Pəri samovar qaynadırdı. Armud ağacının altındakı stolun üstündə səhər yeməyi üçün hər şey hazır idi. Yaqubun yeməyə iştahı olmasa da arvadı ilə salamlaşaraq stola yaxınlaşıb əyləşdi. Pərinin qaynar samovardan süzdüyü pürrəngi çayla dolu armudu stəkanı qarşısına çəkdi. Hadisəni Pəriyə söyləmək üçün uyğun məqam axtardığı bir anda, atasının səsini eşidib yuxudan oyanan Namiq əlində şalvarı və köynəyi anasına yaxınlaşdı. Bu zaman içəri otaqdan körpə Nailənin səsi eşidildi. O, ağlamaqla yuxudan oyandığını və sanki bu yolla ac olduğunu anasına





xəbər verməyə çalışırdı. Pəri ona sarı gələn oğlunu götürüb ərinin qucağına otuzdurdu:

– Qurbanın olum, Yaqub, sən Namiqi geyindir, mən də Nailəylə məşğul olum. Onun altını dəyişdirib, əmizdirməsəm, sakitləşən deyil. Qoy onu rahlayım, sonra gələrəm birlikdə çörəyimizi yeyərik, – deyə Pəri qızının yanına tələsdi.

Bəhmən dediyi vaxtda maşınına oturub evdən çıxan zaman ermənilər kəndin aşağı tərəfinə daha bir top mərmisi atdılar. Düşmən tərəfdən arabir pulemyotlardan kəndə sarı atılan güllələrin səsi də açıq-aydın eşidilirdi. Ordumuzun əsgərləri düşmənin top və pulemyotlarını susdurmağa çalışsalar da, ermənilər, yenidən meydanda olduqlarını bildirmək istəyirmişlər kimi, dinc əhalinin yaşadığı kəndə atəş açmaqda davam edirdilər. Bəhmən maşını ehtiyatla sürərək kəndin baş yolundan dövlət tərəfindən tikilmiş yeni məhlələrə tərəf döndərəndə insanların küçə boyu qaçdığını görüb sürəti azacıq artırdı. O, bir tayı aşaraq kənara düşmüş, qəlpələrdən deşik-deşik olmuş, digər tayı hələ də aram-aram yellənərək cırıldayan darvazaya yaxınlaşıb maşını saxladı. Maşından düşüb həyətə yaxınlaşanda gözlərinə inanmadı. Bir neçə dəqiqə bundan qabaq həyətə düşmüş bombanın partlaması nəticəsində torpaqda böyük çala əmələ gəlmişdi. Evin ön divarının dağılması isə tavanın çökməsinə səbəb olmuşdu və bu da içəridə kiminsə sağ qalmasına güman yeri qoymurdu. Qonşulardan kimsə həyətdəki meyitlərin üzərinə ağ mələfə çəkmişdi. Üstü örtülmüş meyitlərdən birinin uşaq olduğu aralıdan bilinirdi. Bəhmən həyətə toplaşmış qonşuların yanından keçib meyitlərə yaxınlaşdı. Başını

qaldırıb qəzəb və həyəcanla evə sarı boylandı. Bu vaxt uçmuş evin qalıqları altından sanki zəif inilti eşidib tez ora cumdu. Qonşuların köməyi ilə tez bir zamanda uçmuş evin tavanı altından qucağında körpəsini sıxıb saxlayan, başının bir tərəfi dağılmış qadın meydini çıxardıb yerə uzatdılar. Qadının müqəddəs bir məqamda – balasını əmizdirərkən başından aldığı qəlpə yarasından öldüyü bilinirdi. Ananın qanlı döşü hələ də körpə qızcığazın ağzında idi. Qadının başından axan qan zəif bir şırımla süzülərək körpənin sifətinə tökülür, oradan da damcılayaraq torpağa qarışırdı...



**Aysel Şıxlinskaya**

# Mənəm - Yusif!

26 sentyabr

Nəfəsimi içimə çəkib saxlamışdım. Baxışlarım yarpağın üzərində dövrə vuran kəpənəyə zillənmişdi. Hərəkətsiz dayanıb onu izləyirdim. Nəhayət, ürkək hərəkətlərlə astaca yarpağın üzərinə qondu...

Düyməni basdım... Sonra dərindən ah çəkib ayağa qalxdım. Dizlərimin tozunu çırpıb başımı qaldırdım. Tərlan məndən on-on beş addım aralıda, uzanmışdı. Əllərini çarpazlaşdırıb başının altına qoymuşdu. Gözləri yumulu idi. Gülümsəyirdi...

Yanında əyləşdim. Çəkdiyim şəkli göstərmək istəyirdim, ancaq onu xəyaldan ayırmadım. Az sonra özü dilləndi:

– Çəkə bildin?

– Əlbəttə! – açıb şəkli bəh-bəhlə göstərdim.

Payız hələ girməmişdi. Hava təmiz, sakit və küləksiz idi. Hərdən bir uzaqdan quşların səsi eşidilirdi. Gözümü

səmaya zillədim. Sıx və uzun ağaclardan quşları görmək olmurdu. Ara-sıra ağacların budaqları arasından yerini dəyişən günəş şüaları gözümü yaşardırdı. Əlimi onlara tərəf uzadıb ovcumla qabağını alırdım.

– Hava qaralır. Qayıdaq...

Həftənin sonunda Bakının səs-küyündən uzaqlaşmaq üçün kiçik bir dəstə ilə iki günlük təbiətə üz tutmuşduq. İsmayıllıda, meşənin kənarında bir ev kirayələmişdik. Səhər tezdən yastıqlarımızı götürüb evin arxasına – meşənin dərinliklərinə gedir, saatlarla səssizliyə qulaq asırdıq. Deyəsən, pandemiyadan sıxıldığımız bu çətin və keşməkeşli aylardan sonra hamımızın istirahətə ehtiyacı vardı...

– Xəstə sayı da çox azalıb. Deyəsən, çətin günlər geridə qaldı, – gülümsədim. Kefim kök idi.

– Deyəsən. Aygünün yanına gedərik qışda. Avropanı gəzərik.

– Mütləq. Hətta bəlkə oralara köçərik... Düşünürəm bu haqda.

– Mən heç hara köçən deyiləm. Gəzməyə qərib ölkə, ölməyə vətən...

– Bəsdi sən Allah... – Əlimdəki yastığı ona tərəf tulladım. Tərlan əyildi. Yastıq onun çiyninə toxunaraq yerə düşdü.

...Bir yerə toplaşıb axşam yeməyinə oturduq. Hamı telefonun içinə girmişdi. Tərlan yenə stula söykənib, əllərini çarpazlaşdıraraq başının altına qoymuşdu. Ulduzlara baxırdı...

– Bəlkə telefonları unudaq bir günlük? – deyə dilləndi.





– Razıyam. Sosial şəbəkələr insanların canlı ünsiyyətinə güclü ziyan vurur, – Musa telefonunu söndürüb kənara qoydu.

Nərmin kinayə ilə ona baxdı:

– Elə bil bütün günü "Twitter"də şərh yazan bu deyil...

– Mən ciddi mövzular barədə fikir bildirirəm, vətənə xeyir verirəm...

Söhbət uzandı. Başımı aşağı salıb telefonda eşələnməyə davam etdim. Kəpənəyin şəklini açdım. Ağıllı sözlərlə şəkli bəzəmək istəyirdim. Ancaq ağlıma heç nə gəlmirdi.

– Təbiətin səsi... – Tərlan köməyə gəldi.

– "Həyat bir gündür, o da bu gündür" – Musa qəhqəhə çəkdi.

Nərminə baxdım. Başını yellədi:

– Ürəyindən bir şey keçmirsə, nəsə yazmağa məcbur deyilsən...

Bir qədər düşünəndən sonra şəkli paylaşıb axırda: "ürək" işarəsi artırdım... Bu gecə çox gözəl idi: sakit və dinc...

## 27 sentyabr

Saat 10 radələri idi. Gec oyanmışdım. Telefona baxdım, ekran boş idi... Təəccübləndim. Telefonu əlimə alıb instaqramı açdım. Dayanmadan fırlanırdı. İşləmirdi... Geyinib otaqdan çıxdım.

Eyvana boylandım. Oğlanlar həyətdə oturmuşdular. İkisi də telefona baxırdı.

– Sizdə də işləmir? – sual verdim.

Tərlan başını qaldırdı:

– Nəsə olub...

– Nə mənada? – təəccübləndim.

– Azərbaycanda interneti kəsiblər.

– Niyə?

– Müharibə başlayıb, deyirlər.

– İyuldakı kimi?

– İyulda interneti kəsməmişdilər. Deməli, daha ciddi bir şey var, – Musa söhbətə qoşuldu.

Susduq... Anlamırdım... "Nə müharibəsi? Bu hardan çıxdı? Niyə xəbərimiz yoxdu? Nə qədər davam edəcək?.." Bir-iki ay əvvəl Mətanətin söhbət əsnasında: "Müharibə olacaq", – deməyi yadıma düşdü. Onun atası hərbçi idi. O zamanlar inanmamışdım. Hətta atamdan müharibənin başlaması haqda nəsə xəbər eşidib-eşitmədiyini soruşmuşdum. Media işçisi olduğu üçün evdə bütün siyasi xəbərləri ondan alırdıq. Cavabında "Müharibə olsa idi, bu 30 ildə olardı. Bundan sonra çətin... Getdi o torpaqlar..." – ümidsiz halda demişdi...

Nigaranlığımı görən Tərlan yaxınlaşıb əlini çiynimə qoydu.

– Narahat olma. Nədi bilmirəm, amma ehtimal ki, iki-üç günə ara sakitləşəcək. Həmişə belə olub...

Bu zaman evin qapısından Nərmin göründü.

– Sizin də internetiniz işləmir?..

...Yanından ötüb keçdiyimiz maşınlara baxırdım. Dan yeri qızarmağa başlamışdı. Şüşəni azca aralamışdım, içəri dolan külək alnımı kəsirdi. Heç kim danışmırdı. Fikirli idik... Geri qayıdırdıq...

Gün ərzində internetimiz olmadı. Tez-tez yoxlayır, gözümüzü boş ekrana zilləyirdik. Ancaq heç nə yox idi. Evdəkilərlə danışmışdıq. "Vəziyyət qarışıqdı, qayıdın",





– demişdilər. Nə olduğunu anlamadan, ordan-burdan aldığımız xəbərlərlə geri – Bakıya yola düşmüşdük. Yol boyu radio kanallarını dəyişirdik, xışıltıdan başqa heç nə eşidilmirdi. Xəbərsiz qalmışdıq... Telefonu yenə əlimə aldım. İnstaqram hələ də fırlanırdı...

## 28 sentyabr

Ölkədə hərbi vəziyyət elan olundu... Axşam 9-dan sonra küçəyə çıxmaq olmazdı... Arxasınca isə qismən səfərbərliyin olacağı bildirildi... Başım fırlandı. Hiss etdim ki, əllərim əsir. İstəmirdim səfərbərlik olsun, müharibə də istəmirdim. Gül kimi oturmuşduq axı...

...Əslində biz 30 il idi ki, müharibə şəraitində yaşayırdıq. Bütün bu illər ərzində sərhədyanı ərazilərimiz hey atışmalara məruz qalır, insanlar təhlükə altında yaşayırdılar. Dünyanın ayrı-ayrı yerlərində siyasi-diplomatik danışıqlar gedir, konfliktin dinc yolla həlli axtarılırdı. Bəlkə də bizə bilvasitə toxunmurdu deyə bu gərginliyi hiss etmirdik. Paytaxtda, Xəzər dənizinin sahilində, işıqlı Bakı gecələrinin qucağında, isti yataqlarımızda bundan xəbərsiz idik... İndi qəflətən bir zəng gəlir və sənin sevdiyin insanları özü ilə aparır...

Telefonumda adı olan bütün oğlanlara mesaj yazmağa başlamışdım. Hardadılar, necədilər deyə narahat qalmışdım. Bütün gün müharibəni düşünürdüm. Kimə yazsam "Hər şey yaxşıdı", "Çağırsalar gedəcəyik də, nə var ki burda?" tipli cavablar alırdım. Sanki oğlanların tükü də tərpənmirdi. Qızlar isə əksinə... Dayanmadan zənglər gəlir, narahat səslər eşidilirdi. Mətanət isə elə hey: "Gördün? Müharibə başladı. Hamını aparacaqlar", – deyirdi.

O danışdıqca həyəcanım lap artırdı. Hətta pis xəbərlər eşitməmək üçün qərara aldım ki, onunla bir müddət danışmayım...

29 sentyabr

Hələ də internetim yox idi... Eşitmişdim ki, VPN vasitəsilə hamı internetini aktiv edə bilir. Lakin mən etmirdim. Düşünürdüm ki, bir həftə dözə bilərəm. Bir həftə çəkəcəyini hardan bilirdim ki? Niyə elə qərara gəlmişdim? Sanki həftə bitəcəkdi və yenə heç nə olmamış kimi həftənin birinci günü internetlə oyanacaqdıq...

Ürəyim sıxıldı. Tərlana zəng elədim:

– Bəs nə oldu? Bir-iki günə bitirdi?..

Tərlan ah çəkdi.

– Bitənə bənzəmir...

– Səncə, bir həftəyə bitməz?

– Bir həftəyə hələ təzə başlayacaq...

– Sənə zəng gəlməyib?..

– Hələ yox. Hər tanımadığım nömrə zəng vuranda elə bilirəm çağırırlar...

Sağollaşandan sonra VPN yüklədim. Daxil oldum...

Eynən filmlərdəki kimi... Qaranlıqda irəliləyirəm. Qapı görürəm. Aralayıram və otağa daxil oluram. İşıqlar, insanlar, səs-küy...

Gözümü telefondan bir neçə saat ayırmadım. Hər kəs müharibədən yazır, dayanmadan yeni xəbərlər yükləyir, səfərbərliklə aparılan qardaşlarının, dostlarının şəklini paylaşırdı. Sanki ayılmağa başladım. Neçə gündür ağlımda fırlanan və cavabını tapmadığım suallar yavaş-yavaş üzə çıxırdı. Sosial şəbəkələr arasında





dövrə vururdum. Birindən çıxıb o birinə girir, o birindən çıxıb bu birinə daxil olurdum. Oxuduğum bütün xəbərləri evdə bərkdən hamıya deyirdim. Anamla atam başımın üstündə dayanmışdılar. Hər oxuduğum informasiyaya: "Mənbə nədir?" – deyə atam sual verirdi. Çatdırmırdım...

1 oktyabr

Feysbuka girdim. Bir az xəbərləri oxuyandan sonra gözümə Yusifin şəkli sataşdı. Şərhlərdə hamı: "Sağ-salamat qayıt", – yazırdı... İlk tanıdığım adam idi ki, səfərbərliklə çağırılmışdı. Dondum. Son dəfə onunla 19 sentyabrda danışmışdıq... Bir il idi görüşüb çay içməli idik. Amma araya daha "vacib" işlər, pandemiya, karantin və sair düşmüşdü. Nəticədə görüşümüz baş tutmamışdı. Nəhayət, şeytanın qıçını qırıb onunla müharibə başlayandan bir həftə qabaq görüşməli idik. Hətta gün və yer də seçmişdik. Ancaq son anda: "Məndə alınmır. Başqa zamana qalsın", – deyib təxirə salmışdım. Düşünürdüm mən burda, o burda. Görüşərik hələ...

Ancaq indi o burda deyildi. Bu günün işini sabaha qoymamaq lazım imiş. Gec ola bilərdi... Mən isə görüşümüzü təxirə saldığıma görə vicdan əzabı çəkirdim. Kaş ki getməmişdən əvvəl onunla çay içə biləydik...

Ona mesaj yazdım. Çatmadı. Şəklini açıb yaxınlaşdırdım, baxmağa başladım. Sıx qara saçları arasında çoxlu sayda ağ tüklər var imiş. Əvvəl buna fikir verməmişdim. Doluxsundum. Ürəyimdəki sözləri bir-bir ona yazmağa başladım. Ümid edirdim ki, bir gün qayıdıb oxuyacaq...

3 oktyabr

Axşam saat 10-a yaxınlaşırdı. Küçədə sakitlik idi. Arabir boş və səssiz küçələrdən asta sürətlə keçən maşınların zəif faralarının işığı görünürdü. Bəzən uzaqlardan hansısa uşağın "Qarabağ!" deyə qışqırığı gəlirdi. Bu günlərdə, demək olar ki, hər gün bu səsləri eşidirdik. Evlərin içində də sakitlik hökm sürürdü. Ürəyim sıxıldığından tez-tez eyvana çıxır, qaranlıq küçələrə baxırdım. Nə zamansa canlı idi bu küçələr...

İçəri keçib qapını bağlamışdım ki, yenə qışqırıq səsləri eşitdim. Bu dəfə bir yox bir neçə uşağın səsi eyni yerdən gəlirdi. "Qarabağ Azərbaycandır!"... Axı küçəyə çıxmaq olmazdı, "Hardan gəlir bu səslər?" – deyə düşündüm...

Get-gedə səslər artmağa başladı. Hər tərəfdən bir-iki saniyə aralıqla fərqli insanların fərqli səsləri gəlirdi. Hamısı eyni cümləni təkrar edirdi. Tez eyvana çıxdıq: yolun qırağına yavaş-yavaş adamlar yığılmağa başlamışdılar. Boş yolda şütüyən maşınların sayı da sanki artırdı... Uzaqdan mahnı səsləri eşidilməyə başladı: "İgid əsgər, möhkəm dayan..." Sonra yenə qışqırıq səsləri... Hətta göydə ara bir fişənglər də parıldayırdı.

Üzbəüz binada, pəncərələrdən birinin arxasında himnimiz çalınmağa başladı... Bədənimdən üşütmə keçdi. Bərkdən himni oxumağa başladım. Mənə qoşulanlar oldu, getdikcə çoxaldı... Beləcə, bütün pəncərələrin işıqları yandı... Səs bütün şəhərə yayıldı...

Atam yanımda dayanıb sakitcə izləyirdi... Təəccüb içində ona baxdım:

– Birinci dəfədir belə şey görürəm. Bəs sən?

– O qədər görmüşəm... Bu nədir ki? Sən 30 il əvvəl görəydin bu xalqı...

Nələrdən keçmişik biz...





4 oktyabr

Nazlıgilə qonaq getmişdim. Divanda oturub diqqətlə xəbərlərə baxırdıq. Gəncəyə raket atmışdılar. Mat-məəttəl dağıntıları izləyirdim. Belə çıxırdı ki, cəbhədə olanlardan əlavə dinc insanların da həyatı təhlükədə idi... Bundan əvvəl də bir neçə dəfə Gəncə şəhərini vurmuşdular, ancaq zərər çəkən olmamışdı. "Havada zərərsizləşdirirlər, narahatlığa ehtiyac yoxdu", – deyirdilər. Ancaq bu dəfə havada zərərsizləşdirə bilməmişdilər... Özü, yaxud ailəsi Gəncədə yaşayan tanışlarımı yadıma salıb hamısına mesaj yazdım, vəziyyətin necə olduğunu soruşdum. Çox istəyirdim ki, "Hər şey yaxşıdır" desinlər...

Evə qayıdanda dükana girdim. Mağazanın bir küncünə insanlar toplaşmışdı. Satıcı qızın üzü qızarmış, gözləri dolmuşdu. Telefonla kiməsə zəng edir, görünür düşə bilmirdi... Bəzi qırıq kəlmələrdən anladım ki, ailəsi Gəncədədir. Onlara düşə bilmir. Yaxınlaşıb soruşmağa utandım... Ancaq üzümü çevirib dükandan çıxa bilmədim. Beləcə, 5-10 dəqiqə insanların arxasında dayanandan sonra qız məni – müştərini görüb ayağa qalxdı. Yaxınlaşıb: "Üzr istəyirəm, sizlə maraqlana bilmədim", – dedi. Mən də "İnşallah salamatlıq olar"a bənzər bir cümlə işlədib dükanı tərk etdim. Ailədən kiməsə zəng vurub düşə bilməməyin necə duyğu olduğunu fikirləşməyə çalışdım. Fikirləşə bilmədim. Beynim bu səhnəni qəbul etmək istəmədi. "İnşallah, yaxşı olar", – deyib, ah çəkdim. Son zamanlar hər cümləmin axırına, yaxud əvvəlinə "İnşallah" qoşurdum...

## 6 oktyabr

""Bayraktar"a eşq olsun!" – Hamı dronlardan danışırdı. Hara baxsam videolar qabağıma çıxırdı. Atam da əlində kompüter evi gəzib dron videolarını bir-bir hamımıza göstərməyə çalışırdı. Anam: "Baxmaq istəmirəm, pis oluram", – deyib qaçırdı. Mən də...

Özümü humanist sayırdım. Tək insanlara yox, ətrafımda baş verən bütün hadisələrə qarşı həssas idim. Əgər bir insan heç tanımadığı yerlərdə baş verən təbii fəlakətlərə, daşqınlara, meşə yanğınlarına, məsələn, Avstraliyada yanan koalalara görə belə pis olursa, sızıldayırsa, belə bir ürəyin sahibi öz ölkəsində, özü də insanların tələf olmasına necə soyuqqanlı yanaşa bilər? Düşmənə qarşı da duyğularım qarışıq idi. Qabağıma çıxan: "Daha bir ermənini məhv etdik", – tipli xəbərlərdə şəkli paylaşılan gənclərə, düşmən də olsa, acıyırdım. Onlar da kiminsə balası, oğlu idi. Ulu babalarının, atalarının əməlləri onların boynunda deyil, olmamalıdır deyə düşünürdüm...

Bunu ilk dəfə deyildi ki, dilə gətirirdim. Əvvəllər də evdə bənzər müzakirələr gedəndə bu mövqedən çıxış edirdim. Hər dəfə də atam mənə eyni cavabı verirdi, "Eh, sən canlı erməni görməmisən. İlanın ağına da lənət, qarasına da!"

Yenə də içimdəki humanist duyğular məni qarşı tərəfin məhv olmasına, kimlərinsə ölümünə sevinməyə qoymurdu... Ancaq digər tərəfdən də "Ya biz ölməliyik, ya onlar"... "Hər onlardan sağ qalan can bizdən birini apara bilər..." düşüncəsi beynimə hakim kəsilirdi. Bunu dərk etsəm də, yenə də eşitmək, görmək istəmirdim. Videolardan qaçırdım...





## 9 oktyabr

Tərlandan zəng gəldi. Səsi yorğun idi.

– Fuad da gedir. Sabah yola salacağıq.

– Könüllü?

– O elə iyuldan könüllü yazılmışdı. Bilirsən də onu...

– Bilirəm...

Tərlanın ən yaxın dostlarından biri idi Fuad. Dünyanın ən vətənpərvərlərinin siyahısını tutsalar, ora adı düşə bilərdi. Müharibə başlayandan yerində rahat dura bilmirdi. Ümumiyyətlə, çox adamdan eşidirdim: "Burda durmaq olmur, hamı orda ikən... Vətən çağırır..." Fuada uzun-uzun mesaj yazdım. O da: "Pis adama heç nə olmur. Narahat olma", – zarafatyana cavab verdi. Qəribə idi... Gedənlər qalanlara təsəlli verirdilər... Həyatı təhlükə altında olan onlar idi axı... Arzuları yarımçıq qala bilərdi, xəyalları puç ola bilərdi. Həyatları qırıla bilərdi. Təsəlli onlara lazım deyildimi? Bizsə nə mənəvi güclü ola bilirdik, nə də fiziki. Onlar hər iki yükü üzərlərinə götürürdülər...

Sabahı gün Fuadı yola saldıq... Gözümdə kabusa çevrilmiş o iri avtobuslara dolan gənclər gülə-gülə gözüyaşlı valideynlərinə əl edirdilər...

Fuadın getməsi ilə barışa bilmirdim. İnanmaq üçün nömrəsinə mesaj göndərdim. Çatmadı... "Qayıdanda hamınızdan bir qonaqlıq!" son cümləsi idi...

## 11 oktyabr

Piaonun dilləri ilə oynayırdım. Son günlərdə təkrar-təkrar qulaq asdığım tək musiqini çalmağa çalışırdım...

Həzin notlardan başlayıb get-gedə qalınlaşan səs içimi sarırdı. Dilləri özümdən asılı olmadan həmişəkindən bərk basırdım. Ürəyimdə yığılan dərdləri bu şəkildə içimdən çıxarmağa çalışırdım. Köməyimə himnimiz gəlmişdi... "Səndən ötrü can verməyə cümlə qadiriz..." Oxuduğumuz misraları indi sətir-sətir yaşayırdıq...

Özümü tanıyandan pianonun üzərində duran balaca bayrağa gözüm sataşdı. Onu əlimə alıb tozunu sildim. Bir xeyli baxandan sonra atamın yanına getdim.

– Niyə bizim evdə böyük bayraq yoxdur?!

– İstəyirsən alaq...

12 oktyabr

Eyvana çıxdım. Anamla yenicə ütülənmiş, par-par yanan bayrağı altıncı mərtəbədən aşağı salladıq... Qürurdan qəhərləndim...

14 oktyabr

Bayraq tək bizdə deyildi, bütün şəhər bayrağa bürünmüşdü: Azərbaycan və Türkiyə bayraqlarına! Maska taxıb neçə zamandan bəri ilk dəfə idi mərkəzə gedirdim. Yol boyu taksidən ətrafa boylanırdım. Binaların pəncərələrindən bayraqlar dalğalanırdı, mağazaların şüşələri üç rənglə boyanmışdı. Uşaqlar əllərində bayraq yellədə-yellədə küçədə gəzirdilər. Yanımızdan ötən hər maşından bayraqlar asılmışdı. İçimdə qəribə hisslər oyanırdı. Gün keçdikcə isə daha da alovlanan bu hisslərin öhdəsindən gəlmək olmurdu. Sinəmdə böyük dəlik yaranmışdı və yanırdı. Vətən sevgisi?..





Bu zamana kimi harda idi bu bayraqlar? Boz və qayğılı şəhərimizə sanki ikinci nəfəs vermişdi. Rəng qatmışdı, sevgi qatmışdı... "Bundan sonra da həmişə ucalsın bayrağımız!" – deyə düşündüm.

Birdən qabaqda yenə "kabus avtobusları" göründü... Dörd tərəfdən insanlarla əhatə olunmuşdu. Xeyli də polis var idi. Avtobusların bəziləri artıq dolmuş, bəziləri hələ boş idi... Pəncərənin hər iki tayından əllər bir-birinə uzanmışdı. Yaşlı gözlər bir-birinə gülümsəyirdi... Pəncərəni açıb dolu avtobusa diqqətlə baxdım. Bozumtul şüşələrdən orda əyləşən oğlanların üzlərini bir-bir yaddaşıma həkk etməyə çalışırdım. Taksi sürücüsü avtobusların yanından ötəndə sürəti azaltdı. Yaşlı dayı da mənim kimi boylanıb onlara baxırdı...

"Allah sizi qorusun. Sağ-salamat qayıdın, uşaqlar" deyib köksünü ötürdü... Uzaqlaşdıq...

16 oktyabr

Nənəmin ad günü idi. "Qeyd eləmirəm", – desə də nəvələr yığışıb ona kiçik bir tort almışdıq. Ad günü bəhanəsi ilə də bir araya gəlmişdik. Qısa bir müddətlik nənənin qanadları altında dərdlərimizi, problemlərimizi, müharibəni unutduq sanki... Nənənin də kefi kök idi. Gəlmişdik deyə sevinirdi, darıxmışdı bizim üçün. Bir-bir hamımızı sual-cavaba tuturdu. Mənə yaxınlaşıb eyhamla: "Təzə bir şey varmı?" – soruşdu. "Ay nənə, müharibənin ortasında heç yeridi?" – deyib azca əsəbiləşdim. İnternet yox idi deyə nənəm "YouTube" kanalına girə bilmirdi. Təzə öyrənmişdi ondan istifadə etməyi. Bütün

gün nəyəsə baxır, başını qatırdı. Hey deyirdi: "Oradan elə qəşəng reseptlər öyrənmişəm ki..."

Xalam qızı ilə köməkləşib qonaq otağının ortasına özümüz üçün yorğan-döşək sərdik. Komendant saatına görə artıq olduğumuz yeri tərk edə bilməzdik, qalmalı idik. Gün yaxşı keçmişdi. Bizim üçün...

Atamdan mesaj gəldi:

– Gəncəyə yenə bomba atıblar...

Televizoru açdım. Bizdən başqa hamı yatmışdı. Oyatmamaq üçün səsi aşağı saldım. Xalam qızı ilə yerimizdən qalxıb televizorun düz qabağında oturduq. Dağıntılara baxırdıq. Ekranda qucağında çəhrayı bələkdə körpə uşaq tutan bir xilasedici göründü. İnsanları aralayıb balaca cansız bədəni hadisə yerindən apardı. Qanım dondu...

Həmin gecə yata bilmədim. Hey qulağıma səslər gəlir, bədənimdən üşütmə keçirdi. Hərdən səsə başımı qaldırırdım. Xalam qızı ilə göz-gözə gəlirdik. O da mənim kimi yata bilmirdi. İlk dəfə idi özümü evimizdə təhlükədə hiss edirdim. Hər an nəsə ola bilər deyə narahat idim. Özümdən savayı ailəmi, yaxınlarımı düşünməyə başladım. "Görəsən hansı otağa raket düşsə hamı sağ qala bilər?". Məndən asılı olmadan ağlıma minlərlə fikir gəlirdi. Gördüyüm cansız körpə gözümün qabağından getmirdi... Özümə təsəlli verdim: "Bakı yaxşı qorunur. Ola bilməz..." Bəs başqa şəhərlər? Başqa insanlar? Bəs Gəncə? İndi yuxusuz qalan minlərlə ailə?..

17 oktyabr

– Gəlin. Təzə dron videoları var. Gəncənin intiqamı! – atam bizi səslədi.





Hamı əlindəki işi atıb divanda əyləşdi. Maraqlı bir filmə baxırıqmış kimi videogörüntüləri geniş ekranda dörd gözlə izləməyə başladıq... İlk dəfə idi bu cür videolara baxırdım. O səhnələri daha aydın görmək üçün hətta eynəyimi də taxmışdım. Anam da eləcə... Yuxarıdan çəkilən kadrlarda pilotsuz aparatlar onun səsini eşidən kimi səpələnib qaçmağa başlayan əsgərləri "dənləyirdi"... Arada qaça bilən hansısa əsgəri əlimizlə göstərib "biri qaçdı"ya bənzər rəylər bildirirdik. Sanki doğrudan da kinoya baxırdıq. Ancaq bu, film deyildi, real görüntülər idi... Real insanlar idi... Videoların birində partlayışdan sonra başı bədənindən ayrılan əsgər olan hissəni atam geriyə fırladıb bir də qoydu. Yenidən baxdıq. Tükümüz də tərpənmədi. Hətta tam əksinə... Ürəyimizə sanki su səpilirdi... Rahatlıq tapırdıq...

Hamımızın içində intiqam duyğusu alovlanmağa başlamışdı... Halbuki bir-iki gün əvvəl ürəyimizi tutub qaçardıq bu səhnələrdən. İndi isə bir insanın başının bədənindən ayrılmasına sevinən adamlara çevrilmişdik...

Bu biz idikmi? Bəs humanizm nə oldu? Getdi humanizm... Gorbagor oldu...

20 oktyabr

"Yusiflə telefonda danışa bildim. Hər şey yaxşıdı". Dostlarından biri feysbukda Yusifi işarələyib status paylaşmışdı. Çox sevindim. Ön cəbhədə olduğunu bilirdim, ancaq başqa heç bir məlumatım yox idi...

"Ümumiyyətlə, onun kimi sakit təbiətli, yumşaq ürəkli bir insan müharibədə necə iştirak edə bilər, ön cəbhədə kimisə necə öldürə bilər?" – deyə düşünürdüm... Axı o,

qarışqaya belə ziyan verə bilməyən bir adam idi. Bəlkə onun da humanist hissləri mənimki kimi məhv olmuşdu?.. Yox, məhv olmamışdı, o da torpağımızı işğal edən düşmənə qarşı döyüşürdü, dinc insanlara qarşı deyil... Xeyr, humanizm heç hara getməmişdi. Humanizm hissimiz də yerində idi. Ancaq bizim ordunun məhv etdiyi insanlar dinc sakinlər, günahsız insanlar deyildi. Onlar vətənimizi işğal etmiş qəsbkar ordunun əsgərləri idi. Xocalı faciəsi gəldi gözlərimin qabağına... Orada məsum körpələri bax bu ordunun qatilləri güllələbaran etmişdi...

Dayanmadan ölüm xəbərləri gəlirdi... Şəhidlər... Nə qədər cavan canlar itirdik... Hər gördüyüm şəhidin şəklinə uzun-uzadı baxırdım. "Heyf səndən", – deyib başımı yelləyirdim. Necə oğlanlarımız var imiş... Necə dözəcəyik bu itkilərə? Ailələri, yaxınları necə dözürlər görən?! Sonra yenə Yusif gəlirdi gözümün önünə. Görəsən nə edir? Haradadır? Harada yatır? Üşüyürmü? Saçlarında ağ tüklərin sayı artıbmı? Ancaq suallar yenə cavabsız idi... Fikirləşirdim ki, heç bir xəbər yoxdusa, deməli, sağdır...

Güzgüdəki əksimdə saçımın üst hissəsinin işığın altında parıldadığını hiss etdim. Güzgüyə yaxınlaşıb ağarmış ilk telimi nəzərdən keçirdim. Mənim saçım ağarmağa başlamışdısa, yuxusuz anaların ağarmamış teli qalmışdımı görəsən?

## 28 oktyabr

Mətanətlə parkda gəzirdik. Deyirdi ki, artıq 1994 və 1993 təvəllüdlü oğlanları çağırmağa başlayıblar. Nişanlısı 1992 təvəllüd idi. "Az qalıb" deyirdi... "O da gedəcək" deyirdi... Yadıma düşdü ki, mənim xalam oğlu da 93





təvəllüdlüdü. İçimə yenə narahatlıq doldu. Ümumiyyətlə, mənim bütün dost-tanışlarım o yaşlarda idi... Yenə bir-bir hamısını düşünməyə başladım. Digər tərəfdən özümə əsəbiləşirdim. Ürəyimdə özümlə müharibə aparırdım. "Aparmasınlar" dediyim yaxınlarımdan cəbhədə vuruşan əsgərlərin fərqi nə idi ki? Onların ailələrindən, analarından, bacılarından nəyimiz seçilirdi? Bütün insanlar dəyərli idi... Hamımızın borcu idi vətən borcu...

Evə qayıdanda xəbərlərdə Bərdə şəhərini göstərirdilər. Hələ olanlardan xəbərsiz idim...

Düşmən Tərtərlə Bərdəni durmadan atəşə tuturdu. Müharibədən əvvəl də bu ərazilərdə atəş səsləri əskik olmurdu. Hər səhər bu cür xəbərlərlə oyanırdıq. Bir dəfə televizorda yaşlı bir kişi dedi ki, biz artıq öyrəşmişik raket səslərinə..." "Buna necə öyrəşmək olar axı?" – inana bilmirdim.

Gödəkçəmi çıxarmadan ekran qarşısında əyləşib xəbərləri izləməyə başladım. Xəbərlərdə qadağan olunmuş kasetli bombalarla Bərdəyə endirilən zərbələrdən danışılırdı. Yanıb külə dönmüş maşın göstərdilər, arxasınca isə 21 nəfərin öldüyünü dedilər... Sonra fəryad edən yaxınların şəkilləri ötüb keçdi gözümüzün gabağından...Yenə qanım dondu... Diqqətimi bir şəkil çəkdi: qadın dayanmışdı, yanında da uşağı. Uşaq ağlayan anasını qucaqlamışdı. Atası onları mağazada düşürdüb, qabağında gözləyirmiş. Kül olmuş maşın da onun idi... İçində o da kül olmuşdu.

İstiləndim. Bu dəfə kövrəlmədim, üzülmədim, ağlamadım... Əksinə. Hirsləndim... İçim qəzəblə doldu... Bədənimi küt ağrı bürüdü. Hər şeyi qırıb tökmək istəyirdim. Bunu edənlərin cəzasını vermək istəyirdim. İntiqam

hissim artır, bu hadisələrə səssiz qalmış dünyaya nifrətim oyanırdı...

Axşam yenə intiqam dronlarının videoları yayıldı. Dəfələrlə baxdım. Ancaq bu dəfə də ürəyim soyumadı...

## 1 noyabr

Cəbhədən gələn xəbərlərin ardı-arası kəsilmirdi. Nəticələr bizim xeyrimizə idi. Ancaq anlamadığım bir şey vardı: niyə dünya bizi haqsız hesab edir? Səsimizi niyə çatdıra bilmirdik? Yoxsa çatdırırdıq, özlərini eşitməzliyə vururdular? Bəs dünyanın ədaləti, insanlığı harada gizlənmişdi?

Bəlkə də yox imiş heç o ədalət. Başqa ölkələri gözümüzdə, zehnimizdə böyüdüb mükəmməlləşdirmişdik. Bəlkə də mükəmməl idilər, ancaq özləri üçün... Bizim ölkənin fəryadı heç kəsə maraqlı deyildi. Bizi özümüzdən başqa heç kəs anlamırdı... Tək dəstəyimiz Türkiyə idi... "Bir millət, iki dövlət" deyiminin mənasını indi daha yaxşı başa düşürdüm. Bəs digər "mükəmməl"lərdən kim oldu dar gündə yanımızda? Ədalətli bir söz deyən ağız, yazan barmaq axtarırdıq. Qumsallıqda qara qum dənəciklərini seçib-ayırmağa bənzəyirdi axtarışlarımız... İlk dəfə idi dünyamızda qəribliyin, yadlığın nə olduğunu dolu-dolu yaşayırdıq. İlk dəfə idi şəhərim mənə ən doğma, ən əziz yer kimi gəlirdi. İlk dəfə idi dərdimiz eyni idi, hamımız eyni dildə danışırdıq... Yolda tanımadığımız insanların əlindən tutacaq, qucaqlayacaq, ağlayacaq qədər yaxın olmuşduq. Heç bu qədər gözəl olmamışdı Azərbaycan...

Deyəsən, doğrudan da, "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı" imiş...





## 3 noyabr

Qabağıma bir şərh çıxdı. "Dəyərmi?" yazmışdı... "Bir qarış torpağa görə..." Düşündüm... Məsələ bu qədər sadə idi ki? Bir qarış torpaq? "Ev" dediyimiz bu torpaqlar deyilmi? İnsan evsiz yaşaya bilərmi? Vətən dediyimiz evimiz deyilmi? Bu "ev"ə görə yaxın keçmişdə on minlərlə qurban vermişdik biz... On minlərlə rahatlıq tapmayan can... Birinci Qarabağ müharibəsində şəhid olanlar...

Doğulduğum şəhəri düşündüm. Bir daha oranı görə bilməsəydim nə hisslər keçirərdim? Bir də bu küçələrdə gəzə bilməsəydim, evimizə gedə bilməsəydim... Ürəyimin bir tərəfi həmişə qırıq qalardı. Yaralı olardı...

1990-cı illər... Həmin illərə aid hər şeydən qaçırdım. O dəhşətli məğlubiyyətimizi, itirdiklərimizi qəbul etmək istəmirdim... Amma özünü görməzliyə vurmaq faktları silib atmırdı, təəssüf ki. Telefonu yandırıb axtarış saytlarına girdim... O illər, uduzduğumuz müharibə haqqında qabağıma çıxan bütün videolara, şəkillərə baxmağa, bütün yazıları oxumağa başladım. Niyəsə içimdə cücərən nifrət özünə yer tapmırdı. Dayanmadan keçmişə qayıdır, bilmədiyim, eşitmədiyim hadisələri araşdırırdım. Niyə? Nə üçün? Hər şeyi bilmək istəyirdim. Təkrar-təkrar dolmaq və unutmamaq üçün. Soyumamaq üçün...

Çingiz Mustafayevin reportajlarından biri çıxdı qabağıma... Döyüşən könüllü əsgərlərimiz danışırdı. Bir cavan oğlan deyirdi: "Qoy onlar eşitsinlər ki, bunun axırı yoxdu. Necə bizi torpaqlarımızdan qovublar, elə də özləri buradan gedəcəklər"... Doğrudan da elə olurdu... Görən həmin əsgərin taleyi necə olub? Sağ qalıbmı, yoxsa döyüşlərdə şəhid olub? Şəhid olubsa harda, necə? Sağdırsa

bunları indi görürmü? Görürsə nə hisslər keçirir? İstənilən halda qoy rahat olsun, intiqamı alınır... "Həmin an mən belə əlimə silah alıb vuruşa bilərdim", – duyğuları ilə fırlanırdım...

Təsiri altına düşdüyüm videolardan sonra evdə anama yaxınlaşıb soruşdum:

– Bu qədər şeydən sonra necə heç nə olmamış kimi yaşaya bilmisiniz? Necə özünüzə gəlmisiniz? Deyə-gülə, həyata davam etmisiniz... Axı siz bunları gözünüzlə görmüşdünüz...

– Həə... Mən də bilmirəm. Elə bilirdik ürəyimizin ağrıları heç zaman keçməyəcək... Amma zamanla insan öyrəşir deyəsən...

Biz də zamanla öyrəşəcəyik deməli... Biz də bunun öhdəsindən gələcəyik. Ancaq öyrəşmək istəmirdim. Xəyanət etmiş kimi ürəyimi narahat edirdi bu öyrəşmək fikri...

8 noyabr

Anam otağa daxil olub məni səslədi.

– Qalx. İndi prezidentin çıxışı olacaq...

Neçə gün idi ki, dildən-dilə eyni mövzu ötürülürdü. "Şuşanı almışıq. Bir-iki günə xəbəri çıxar"...

Şuşa ayrı idi... Məktəbdə oxuduğumuz illərdə gündəliyin ön səhifəsində işğal altında olan rayonlarımızın siyahısı vardı, əzbərləyirdik. Ancaq məhz Şuşanı həmişə ayrı vurğulayardı müəllimlər. Evdə valideynlərim də Şuşadan danışanda gözləri dolurdu... Şuşanın alınmasına ayrı üzülürdülər sanki... Qarabağın döyünən ürəyi... Deyirdilər ki, oranın havası da bir başqadır. O qədər mükəmməlləşdirilmişdi ki, beynimdə Şuşa mənə əlçatmaz bir zirvə





kimi gəlirdi... Hardasa uzaqlarda, ziyarətinə gedə bilmədiyimiz bir doğma kimi...

Müharibə ərzində də çox insandan buna bənzər söhbətlər eşidirdim. Beynimə elə həkk olunmuşdu ki, Şuşanı alsaq, müharibəni udmuşuq deməkdir. Sıldırım qayaların başında, buludların altında yatan bizim Şuşa...

Çayımı süzüb qonaq otağına keçdim... Televizorun qabağında nəfəsimizi saxlamışdıq...

"Əziz Şuşa, sən azadsan!"... O an yerimdən qalxıb var gücümlə qışqırdım. Əllərimi göyə açıb balaca uşaq kimi tullanmağa başladım. Ancaq haqqında eşitdiyimiz, dastana dönmüş Şuşanı gözümüzlə görə biləcəkdik?..

Küçədən səslər gəlməyə başladı... Eyvana çıxdım. Şəhər sanki yaşıl və mavi zolaqların müşayiəti ilə al qırmızı rəngə boyanmışdı. İnsanlar küçələrə axışmağa başlamışdı. Şütüyən maşınlardan qışqırıq səsləri gəlirdi... Pəncərələrdən boylananlar yumruqlarını sıxıb "Şuşa!" deyə var səsləri ilə bağırırdılar... O an hamımız Şuşalı idik... Sanki röya görürdüm...

Mən də var səsimlə "Azərbaycan!" deyə qışqırmağa başladım. "Səni sevirəm!" "Bizi sevirəm!" cümlələri axırdı boğazımdan. Qollarımı açmışdım. Ürəyimdən hamını, hər kəsi bağrıma basmaq keçirdi... "Şuşa şəhəri insan cildində olsa idi, onu bərk-bərk qucaqlayardım", – deyə düşündüm...

Gödəkcəmi çiynimə atıb qapıdan çıxmağa hazırlaşırdım. "Tez gələcəm" demək üçün anamı səslədim. Mətbəxdə oturub fikrə getmişdi... "Şuşa qayalıqların üzərində yerləşir... Qalanı almaq üçün nə qədər igidlərimiz şəhid olub yəqin...", – dedi...

Susdum... Maskanı üzümə keçirdib qapıdan çıxdım...

## 10 noyabr

– Deyəsən, kapitulyasiya imzalanıb...

– Mənbə? – atam yenə eşitdiyinə şübhə edərək məndən soruşdu.

– Nə bilim?! Bir sayt yazır...

– Hər yazılana inanma.

Yarım saat ərzində bu xəbər bütün sosial şəbəkələrdə yayılmağa başladı. Atam fikrə getmişdi. Hey zənglər gəlirdi, nəyisə müzakirə edirdilər. Prezidentin növbəti çıxışı olmalı idi.

Qısa zamanda kapitulyasiya xəbəri bütün ölkəyə yayılmışdı. İnsanlar çaşqınlıq içində idilər. Duyğularımız arasında "dilemma" yaşanırdı. Gecədən keçmiş, İrəvanda baş verən hadisələri göstərən canlı yayıma qoşulmuşdum. Gözümü gah telefonun ekranına, gah da televizora zilləyib gedişatı izləməyə çalışırdım. Anam arada otağından çıxıb "Niyə yatmırsınız?" sualını verirdi. Atam da "Nə yatmaq? Sən də yatma. Tarixi anı qaçırırsan", – deyirdi. Beləcə zaman axırdı...

Nəhayət, gecə dördə işləmiş bütün ölkə dondu...

... Sonra yenə xülya...

"Müharibə bitdi!" – yazıb Yusifə göndərdim... Oxunmayan, sıraya düzülmüş mesajlardan biri də artdı...

...Maşında bərk səslə "Ey vətən" mahnısını qoymuşduq. Səhər saat 6-ya yaxınlaşırdı. Heç kəs yatmırdı. Hamı səs-səsə verib küçələrə axışmışdı. Bakının bütün işıqları yanırdı. Heç bu qədər işıqlı olmamışdı şəhər... Başımı maşının yuxarı pəncərəsindən çıxarmışdım. Üzümə vuran soyuq külək sanki bədənimdən çıxan istiyə qarışaraq buxarlanırdı. Soyuğu hiss etmirdim...





Düşündüyüm tək şey əlimdə bərk sıxıb saxladığım böyük bayrağın dalğalanması idi... Onu əlimdən buraxa bilməzdim. Yol qırağında dayanan insanlar maşınlara əl edir, alqışlayırdılar...

Müharibənin bitməsinəmi sevinirdik, intiqam toxumu səpilən ürəklərimizin rahatlaşdığınamı sevinirdik, yoxsa məcbur evindən didərgin düşmüş insanların ata-baba torpaqlarına qayıdacağınamı sevinirdik... Bəlkə də üçünə birdən. Böyüklü-kiçikli hamının sevinməyinin səbəbi var idi. Yaşlı veteranlar xəstəliyin tüğyan etdiyi, soyuğun kəsdiyi gecədə, bir əlində əsa, digər əlində bayraq küçələri fəth edirdilər. Körpə uşaqlar atalarının boynunda var gücləri ilə qışqırırdılar. Qadınlar göz yaşlarını saxlaya bilməyərək, hönkürtü ilə ağlayırdılar...

Bu günü dəfələrlə xəyalımdan keçirmişdim. Necə olacaq? Nələr yaşanacaq? Fərqli şəkillər gəlmişdi gözümün qabağına. Ancaq indi gördüyüm bütün səhnələr və hiss etdiyim qarışıq duyğular heç zaman fikrimdən keçməmişdi. Başqa idi... Yanımda əyləşən qrup yoldaşım "Hələ də inana bilmirəm. Qubadlını gözümlə görəcəm!" – deyə təkrar edirdi. Hey telefonu açıb evlərindən qalan dağıntıların şəklini göstərirdi... Yurdunu görə biləcəyinə dair ürəyində ümid yaranmışdı...

Hamımızın ürəyində ümid işıqları yanıb-sönürdü...

## 11 noyabr

Yağış yağırdı... Deyəsən, gecikən payız artıq evinə gəlirdi... Səhər gözümü açıb xeyli tavana baxdım. Evimizdə uzun zamandan sonra, özümü yenə təhlükəsiz hiss edirdim...

İnstaqrama daxil olub səhifəmə nəzər yetirdim. Sakit tonlardan üç rəngə etdiyim keçidə baxdım. Son 44 gün həyatımız ancaq bu rənglərdən ibarət olmuşdu sanki...

Gözüm kəpənəyə sataşdı... Şəkli açdım. Müharibə əsnasında unutduğum o gözəl gün yadıma düşdü.

Yenidən paylaşdım. Bu dəfə ürəyimdən keçən sözlərlə:

"Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başında dastana döndüm..."

Paylaşıb yenə gözümü tavana zillədim.

Telefonum səs saldı...

Tanımadığım nömrədən gələn mesaja baxdım:

"Mənəm – Yusif!"



Aysu Əlisoy

# Nə gözəldir ölmək bizə sevgili Vətən üçün

Sürəyya xanımın əsli-kökü Şuşadan idi. 1992-ci il 8 may tarixində Şuşa erməni faşistləri tərəfindən işğal olunanda onun 12 yaşı var imiş. O vaxtdan qaçqınlıq həyatı yaşayırdı. Atası Şuşada şəhid olmuşdu, anası isə qaçqınlıq illərində uzun sürən xəstəlikdən sonra vaxtından tez vəfat etmişdi. Ailənin tək övladı olaraq ata və ana sevgisindən məhrum olan bu qızcığaz yaxın qohumlarının köməkliyi və himayəsi ilə həyatın acılarına duruş gətirə bilmiş, böyümüş, boya-başa çatmışdı. Həyatda sevgisiz böyüməsinə baxmayaraq o, ətrafındakılara daim sevgi göstərərdi. Böyüyüb boya-başa çatan Sürəyya 20 yaşında Musa adlı sevdiyi oğlanla ailə həyatı qurmuşdu. O düşünürdü ki, görmədiyi ailə sevgisini qurduğu ailə ocağında tapar. Bir oğlanları dünyaya gəlmişdi, adını isə Nadir qoymuşdular. Nadir böyüdükcə anası ona yadlar əlində olan doğma torpağı Şuşa haqqında məlumatlar

verir, uşaqlıq xatirələrini danışardı. Nadir orta məktəbdə oxuduğu vaxtlarda Şuşa haqqında anasına çoxlu suallar verərdi. Ona maraqlı idi, Şuşa necə yerdir, havası, suyu və torpağı necədir? Uşağa elə gəlirdi ki, o da Şuşada doğulub, sanki onu ora bağlayan hansısa tellər var idi. Sürəyya ana kimi özünü xoşbəxt hiss edirdi. Axı onun Nadir kimi ağıllı və vətənpərvər bir oğlu böyüyürdü. Lakin, "dərd gələndə batmanla gəlir" deyirlər. Sürəyyanın ailə xoşbəxtliyi bu dəfə də uzun çəkmədi, balaca Nadir 14 yaşına çatanda atası qəfil dünyasını dəyişdi. Sanki Nadirin o gündən uşaqlığı da itdi. Anası ilə birgə evin yükünü çəkməyə məcbur idi. Sürəyya xanım çətinliklə də olsa özünə bir iş tapdı ki, ailənin problemlərini həll edə bilsin, amma Nadir anasının işləməyinə razı deyildi, istəmirdi anası əziyyət çəksin. Sürəyya xanımın isə Nadirdən tək istəyi dərslərinə diqqət göstərməsi idi. Nadir də həyatdakı tək dayağı olan anasının istəyini yerinə yetirirdi.

İllər keçdi, Nadirin əsgərliyə getmək vaxtı gəlib çatdı. Çox sevinirdi Nadir, onun hisslərini sözlərlə ifadə etmək mümkün deyildi. Əsgərliyə yola düşəndə, "narahat olma, ana, hər şey yaxşı olacaq" dedi.

Oğlu əsgərlikdə olduğu müddətdə Sürəyya xanımın sanki bir gözü telefonda idi. Nadir hərdən zəng edər, onunla danışar, səsini eşidərdi.

Artıq bir il keçmişdi. Nadirin geri dönməsinə az vaxt qalmışdı.

27 sentyabr 2020-ci il. Erməni faşistlərinin yeni ərazi iddialarına və təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks hücum əməliyyatlarına başlamışdı. Sürəyya xanım isə bundan xəbərsiz idi. Axı o, televizora çox baxan deyil, özünün də müasir telefonu yox idi ki, internet resurslarından





məlumat əldə edə bilsin. Danışdığı da təkcə Nadir idi. Dünəndən yorğun olduğuna görə səhər tezdən dura bilməmişdi. Qapının səsinə oyanan Sürəyya xanım gözlükdən baxdı, qonşusu Arifə xanım idi. Qonşu onlara nadir hallarda gələrdi. Sürəyya xanım yuxulu halda, həm də təəccüblə qapını açdı. Arifə xanım salam-kalamsız dedi:

– Nadirdən bir xəbər var?

Sürəyya xanım həyəcanla çiyinlərini çəkdi:

– Nadirdən? Nə xəbəri? Nə baş verib? Nə...

Arifə xanım onun sözünü kəsdi:

– Müharibə başlayıb, necə, xəbərin yoxdur?

Sürəyya xanım susdu. Beyni ancaq "müharibə" sözünü təkrarlayırdı. Gözünün önünə Şuşa gəldi, anasını, atasını, evlərini xatırladı. Evlərindən qaçaraq çıxmaqları, güllələrin altında qaçmaqları. Müharibə bunları xatırladırdı ona, bir də atasını. Müharibə onu atasız qoymuşdu, ata sevgisindən uzaq qalmışdı, müharibə onun sevgisiz böyüməsinin əsas səbəbi idi. Tez telefona əl atdı, bəlkə Nadir zəng eləyib deyə, yox heç nə yox idi. Nə bir zəng, nə bir mesaj, heç nə. Tez Nadirin telefonuna zəng vurdu, gözlədi, gözlədi açmadı. Bəzən elə olurdu başqa nömrələrdən də Nadir zəng edirdi. Telefonunda axtarış edib həmin nömrələrə də zəng etdi. Biri sönülü idi, birinə zəng çatmadı, digəri isə açmadı. Sürəyya xanımın əli-ayağı əsdi, tez televizoru qurdu. Evdə o yana, bu yana gedirdi, fikirləşirdi. Sakitləşmək istəyirdi, qəflətən telefonun zəngi eşidildi. Sürəyya xanım tez telefonu açdı və həyəcanla dedi:

– Nadir, oğlum!

Lakin telefondakı Nadir deyildi, iş yerindən zəng etmişdilər:

– Bu gün niyə işə gəlməmisiniz?

Sürəyya xanım sönük bir səslə dedi:

– Özümü narahat hiss edirəm, sabah gələcəyəm. Xahiş edirəm, üzrlü sayın.

– Oldu, – deyə zəng edən sağollaşdı.

Televizorda Ali Baş Komandanın çıxışı başladı. Sürəyya xanım əyləşib diqqətlə qulaq asırdı. 6 kənd və 2 strateji yüksəklik erməni işğalından azad edilmişdi. Sürəyya xanımın üzündə xoş bir təbəssüm yarandı. İlk gündən azad olundu, bu şad xəbəri eşitmək nə qədər xoş idi, fərəhli idi! Telefon zəngi eşidildi, bu dəfə zəng edən oğlu Nadir idi. Sürəyya xanımın ürəyi sanki dayandı, çox həyəcanlı idi:

– Nadir, oğlum, hardasan indi, ön cəbhədəsən? – deyə elə həyəcanla da soruşdu.

– Ana, sakitləş, təmkinlə suallarını cavablandıracağam, əsas odur ki, səni xəbərsiz qoymadım.

– Qoyma oğlum, sən zəng edənə qədər neçə dəfə ölüb-dirilmişəm.

– Mən hazırda ön cəbhədə deyiləm, ana, yaxın zamanda – sabaha, ya biri günə ön cəbhədə olacağam. Narahat olma, ürəyini sakit tut, məndən xəbər almayanda da fikirləşmə ki, nəsə baş verib. Telefonu götürmək və zəng eləmək çox çətindir, amma çalışacağam səni xəbərsiz qoymayım.

– Yaxşı, – ana tərəddüdlə dedi. – Özünə yaxşı bax, bütün əsgərlərimiz üçün dua edəcəyəm.

– Bir də, ana... birdən nəsə olsa... – səs kəsildi.

– Alo, alo, Nadir, nə oldu, hara getdin? Alo...

Sürəyya xanım çox narahat oldu. Özünə təskinlik vermək üçün düşündü ki, yəqin telefon şəbəkəsi zəifdir.





Özünü sakit saxlamağa çalışır, işin ancaq yaxşı tərəfini düşünürdü.

Bir neçə gün keçmişdi, artıq Nadir ön cəbhədə idi. Döyüşdən təzə qayıtmışdı, istirahət vaxtı idi. O, komandirinə yaxınlaşıb dedi:

– Mənim üçün bir vərəq və qələm tapa bilərsən?

– Nə edəcəksən, məktub yazacaqsan? – komandir soruşdu.

– Yox, lazımdır.

– Çalışaram tapım.

Bir-iki saat keçəndən sonra komandir əlində kağız və qələm gəldi:

– Tapdım, buyur.

Nadir təbəssümlə təşəkkür etdi və nəsə çəkməyə başladı. Qəribə bir şey çəkirdi. Əsgər yoldaşları bir məna verə bilmirdilər. Sonda isə bir qadının eskizinin çəkildiyini gördülər. Heç biri başa düşmədi. Adətən, hamı məktub yazıb qoyardı cibinə. Amma Nadir qadın şəkli çəkmişdi.

Əsgər yoldaşlarından biri ona dedi:

– Bu nədi, buna görə kağız-qələm axtarırdın?

– Anamın şəklidir.

– Özünlə niyə gətirməmisən ananın şəklini?

– Bilmirəm, anam heç bir şəkildə ürəkdən gülməyib, içindəki ağrını və acını gözlərində görmüşəm. Onun şəkillərinə baxanda xoşbəxt olmadığını, qəlbindəki qəm-qüssənin hələ də qurtarmadığını, onu günü-gündən məhv etdiyini görürdüm. Amma burda anamın gözlərini elə çəkmişəm ki... Burda anamın gözləri parlayır, sevgi ilə doludur, sanki xoşbəxtdir. Bu şəkil mənə güc-qüvvət verəcək, – deyə sözünü tamamlayıb şəkli ürəyinin üstündə yerləşən cibinə qoydu.

Bir neçə müddət keçdi, oktyabrın 25-i idi. Nə qədər rayon azad olunmuşdu! Axşam da Qubadlının azad olunduğu elan olundu. Yenə şəhərdə fişənglər atıldı, şadyanalıq oldu. Sürəyya xanım hava almaq üçün eyvana çıxdı. Yorğun bir təbəssüm var idi üzündə. Fişənglərə, maşınlarla keçən gənclərə və üçrəngli uca bayrağa baxırdı. Sonra dərindən ah çəkib dedi: "Kaş Şuşanın da azad olunduğu xəbərini eşidəydim, bəlkə yarımı taparam, yarımçıq qalmış xoşbəxtliyimi, yarımçıq qalmış ata və ana sevgimi orda yenə taparam. Şuşam, bir gün sənin üçün də fişənglər atılacaq, mahnılar oxunacaq, o gün yaxındır..." Elə bu düşüncələrlə də içəri keçdi.

Dörd gün idi ki, Nadir zəng eləmirdi. Narahat idi, amma yaxşı düşünməyə çalışırdı. Səhər açıldı, telefona baxdı, zəng və ya mesaj yox idi. Sürəyya xanım özünü ələ almağa çalışırdı. Amma qorxurdu, çox qorxurdu... Çünki təkcə Nadir qalmışdı. Nə ata görmüşdü, nə ana, nə də ailə sevgisi. Onun ailəsi, atası və anası Nadir idi. Əgər ona nəsə olsa...

Birdən zəng səsi eşidildi, tez telofonu açdı.

– Ana!

– Nadir, oğlum! Yaxşısan? Çox qorxdum xəbərsiz qaldım deyə.

– Narahat olma, yaxşıyam hər şey yolundadır.

– Təki elə olsun...

İki-üç dəqiqə danışandan sonra Nadir dedi:

– Ana, bəlkə sənə bir-iki həftə zəng edə bilmədim. Buna görə narahat olmazsan, hər şey qaydasındadır, bir də, ana, özünə yaxşı bax, səni sevirəm, ürəkdən gül həmişə.





– Oğlum, mən də səni sevirəm, amma belə vidalaşan kimi danışma, sən gələcəksən, əminəm ki, gələcəksən. Bax, sən gələndə ürəkdən güləcəyəm mən.

– İndi getməliyəm, özünə yaxşı bax, anacan.

– Sağ ol, oğlum. Rəbbim sizi qorusun.

Üstündən 1 həftə keçdi. Nadirdən bir xəbər yox idi, amma o anasına demişdi ki, zəng edə bilməyəcəyəm. Ona görə anası da çox narahat olmurdu. Hər gün əlini açıb dua edirdi əsgərlər üçün. Bir müddət keçdi, Nadir anasına bu müddət içərisində 1 dəfə zəng eləmişdi onda da 5-6 dəqiqə danışa bilmişdilər...

Artıq Noyabrın 8-i idi. Sürəyya xanım Nadir ilə təxminən noyabr ayının 2-3-də danışmışdı. Səhər saat 7-8 olardı. Sürəyya xanım işə getməli idi. Qonşular dedi ki, bir azdan Ali Baş Komandanın çıxışı olacaq. O da işdən icazə aldı ki, evdə rahat baxsın. Bir-iki saat keçmişdi, lakin hələ də çıxış olmamışdı. Və indi artıq başlamışdı. Sürəyya xanımın dili-dodağı qurumuşdu, bayaqdan televizorun qabağında idi. Bir stəkan su içməyə getdi, sudan bir qurtum almışdı ki, "ŞUŞA ŞƏHƏRİ İŞĞALDAN AZAD OLUNUB!" sözlərini eşitdi. Sürəyya xanımın gözləri doldu, su boğazında qaldı heç uda bilmədi. Tez televizorun qabağına keçdi, yuxu deyildi, 28 ilin həsrətinə son qoyulmuşdu, düşməndən qisas alınmışdı. Bir anlıq o sanki Şuşaya getdi. Evləri, uşaqlığı və atalı-analı günləri gözlərinin önündən film kimi gəlib keçdi. Sevincdən o qədər ağladı ki... Axı o, 28 il həsrətində olduğu öz yurduna və obasına dönəcəkdi, çox xoşbəxt idi. Şuşanın azad olması xəbəri sanki ona itirdiyi hər şeyi qaytarmışdı, gülüşünü, uşaqlıq illərini və daha nələri... Bir cümlə, söz insana nə qədər sevgili hisslər

və sevinc bəxş edərmiş, İlahi... Təkcə uçmağa qanadı yox idi...

Amma... Səhəri gün təxminən saat 7-8 radələri olardı ki, qapı döyüldü. Bu vaxtı kim idi? Sürəyya xanım yemək hazırlayırdı. Onu yarımçıq qoydu. Dünən yaşadığı Şuşa sevinci və təbəssümü hələ də üzündə qalmışdı. Bir ömür qalacaqdı o sevinc. Qapıya doğru irəlilədi, qapını açdı. Duruxdu... üzündəki gülüş bir anda yox oldu... İllər əvvəl atasının şəhid olduğu səhnəni, o anı, anasının fəryadına oyandığı o səhəri xatırladı. Eyni şeyləri görürdü, eyni səhnə təkrarlanırdı. Taleyin oyunu idi, yenidən o günü yaşadırdı. Az qaldı Sürəyya xanım nəfəssiz qalsın, qapıdan tutdu. Ağlamırdı, gözünün içi qıpqırmızı olmuşdu. Qan ilə dolmuşdu. Udqundu, gözünü yumdu, sanki hər şey durmuşdu, başına ağrı doldu, gözü qaraldı...

Nadir şəhid olmuşdu:

– Oğlunuz Nadir Şuşa uğrunda gedən döyüşlərdə Şəhidlik zirvəsinə ucalmışdır...

Sürəyya xanımın dili-dodağı qurumuşdu, amma o bu ağrını və acını bir cümləyə sığışdırdı.

– Vətən sağ olsun... – səsi titrəyirdi...

Amma o artıq Şəhid anası idi. Başını tik tutdu. Ağlamalı deyildi, qürurlanmalı idi. Özünü ələ almalı idi. İçəridə televizor açıq qalmışdı: "Nə gözəldir ölmək bizə sevgili Vətən üçün", musiqi ətrafa yayılırdı. Sürəyya xanımın oğlu Nadirin məktəb illərində bu marşı oxumağı yadına düşdü. Əlində bayraq, əynində əsgər paltarı bu marşı oxuyardı. İndi isə o, şəhidlik zirvəsinə ucalmışdı.

Nadirin dəfn mərasimi keçiriləndən sonra Sürəyya xanım evə gələrək tək qalmaq istəmişdi. Axşam öz-özünə





fikirləşdi: "Mənim oğlum Şuşada şəhid oldu, gör necə qəribədir bu həyat, Sürəyya. Sən ilk nəfəsini aldığın yerdə oğlun son nəfəsini verdi, ilk addımlarını atdığın yerdə oğlun son addımlarını atdı. Dil açıb ilk sözlərini dediyin yerdə son sözlərini dedi oğlun. Sən gözünü dünyaya ilk dəfə açdığın yerdə oğlun gözlərini əbədi olaraq yumdu. Sənin ilklərini yaşadığın şəhərdə oğlun sonlarını yaşadı".

Sürəyya xanım yanında qatlanmış bir vərəq gördü. Götürüb açdı həmin vərəqi. Məktub idi bu, Nadirin son məktubu: "Ana, əgər bu məktubu oxuyursansa, demək mən o istədiyim zirvəyə çatmışam. Çünki əgər çatmasaydım, bu məktubu cıracaqdım. Hal-hazırda necə olduğunu bilmirəm, amma ağlama, heç vaxt ağlama. Mən sənə şəhid anası adını verib getdim, gör nə gözəl ad qoydum sənə mən. Ən böyük arzum şəhid olmaq idi mənim. Həmişə istəmişəm ki, tabutumun üzərinə qurbanı olduğum üçrəngli bayraq sərilsin. Əgər olubsa, bu mənim üçün bilirsənmi necə fəxrdir. Hər kəsə qismət olmur bu şəhidlik zirvəsi. Daima sənə baxacağam burdan. Ağladığını görməyim, ana, mən səni heç ürəkdən gülən görmədim, ağlayanda da görməyim. Sən şəhid anasısan, başını dik tut. Biliräm məndən başqa bir kimsən yoxdur, amma mən cismən olmasam da, ruhən həmişə yanında olacağam. Özünü tək hiss eləmə, çünki sən tək deyilsən, ana. Əgər ağlasan mən burda rahat olmaram ki, sənin hər göz yaşın mənə nə qədər əzab çəkdirər, bilirsənmi? Həmişə gül, şəhidlər ölmür, ana, sadəcə Allah bizi o qədər sevir ki, qiymətləndirmək üçün yanına çağırır. Səni sevirəm, bunu unutma, bir də mənim dediklərimi. Ana ürəkdən güləndə göyə baxarsan, gülüşünü görərəm".

Süreyya xanım çox qəribə hisslər yaşayırdı. Bir də gördü ki, həyətdən səslər gəlir və fişənglər atılır. Televizoru açdı. QARABAĞ AZAD OLUNMUŞDU. Torpaqlarımız düşməndən təmizlənmişdi. Süreyya xanım evindəki üçrəngli bayrağı götürdü, bağrına basdı, öpdü, iylədi. Bu bayraq Qarabağda dalğalanacaq. 28 ilin həsrətinə son qoyulmuş, şəhidlərimizin qisası alınmışdır. Bu gecə qələbə gecəsi idi.

Səhər açıldı. Süreyya xanım bayrağı götürdü və çölə çıxaraq qələbə sevincini qutlayan insanlara qoşuldu, axı bu zəfəri qutlamağa, başını dik tutmağa onun daha çox haqqı var idi, çünki o, şəhid anası idi. Sanki Nadir də yanında idi. Birlikdə Bakıya baxırdılar. Bakıda hamı əlində bayraq bayram edirdi. Hər kəs qələbəni qeyd eləyirdi. Süreyya xanımın yanından əlində Azərbaycan bayrağı, əynində hərbi paltar olan balaca bir oğlan uşağı keçdi. Necə də Nadirin uşaqlığına bənzəyirdi. Özünü saxlaya bilməyib o uşağa yaxınlaşdı, gülümsədi, saçını oxşadı və anidən qucaqladı, sanki Nadiri tapmışdı. Sanki Nadir "uşaqlığı" ilə anasını görməyə gəlmişdi. Sonra uşaq Süreyya xanıma gülümsədi.

Süreyya xanım dedi:

– Şəhid oğlumu xatırlatdın mənə.

Uşaq həyəcanlı bir şəkildə soruşdu:

– Oğlunuz şəhid olub?

– Hə, bircə oğlum var idi. O da şəhidlik zirvəsinə yüksəldi.

– Mən də sizin oğlunuzam, bütün Azərbaycan xalqını qazandınız siz, hamımız sizə borcluyuq.

Ətrafdakılar da bu mənzərədən hali olub onlara qoşuldu. Neçə-neçə gənc Süreyya xanımı qucaqladı, əllərindən





öpdülər, dayaq, dəstək oldular. Bu arada Süreyya xanım göyə baxıb gülümsədi. Ürəkdən güldü. Nadir də göydən onu izləyirdi... Süreyya xanımın artıq 10 milyonluq ailəsi var idi. 10 milyonluq bir ailə, 10 milyonun sevgisini qazanmışdı. İllərdir axtardığı sevgini Azərbaycan xalqı ona vermişdi. Axşam evə getdi. Çamadanını hazırladı, çamadanın içinə məktubu qoyurdu ki, birdən bir kağız da düşdü. Bu bir qadın eskizi idi. Bu qadın eskizi Nadirin çəkdiyi idi. Anası Süreyya xanım idi bu. İndi isə Süreyya xanım bu şəkli ürəyinin üstündəki cibinə qoydu, artıq hər şey hazır idi, çamadan da. Həsrətlə uşaqlığının yarımçıq qaldığı, atasının və oğlunun da şəhid olduğu Şuşaya gedəcəyi və göyə baxıb Nadirin eskizdə çəkdiyi kimi güləcəyi günü gözləyirdi.

**Azad Qaradərəli**

# Mən sizdən ayrıldım, amma gülə-gülə

*(Vətən müharibəsi şəhidi Cavid Həsənovun xatirəsinə)*

Yadınızdadır, ilk dəfə hərbi hissədə görüşəndə məndən soruşmuşdunuz ki, niyə hər zaman gülürsən? Cavab vermişdim ki, biz bu dünyaya gələndə nə ailəmizi, nə vətənimizi, nə milliyyətimizi özümüz seçməmişik. Bu bizə həm gendən gələn kodla ötürülüb, həm də anamızın südü ilə aşılanıb... Və... Bir də demişdim ki, biz bu dünyada müvəqqətiyik. Çiçək kimi, böcək kimi. Onlardan fərqimiz odur ki, biz daha çox yaşayırıq, 70, 80, hətta 90, 100 il də. Onlarsa bəzən bir saat, bəzən bir gün, lap uzağı iki-üç gün... Amma bizim 100 illə onların bir saatı arasındakı fərqi kim ölçüb axı? Kim deyə bilər ki, onların zaman ölçüsü bizimkindən kiçikdir? Axı nisbilik deyilən bir şey var... Bax, əgər biz bu savaşdan sağ çıxmasaq, şəhid olsaq, bizə ölü deməyəcəklər... Şəhid ölmür axı, sadəcə yerini dəyişir...





Qəhqəhə çəkib gülüşmüşdünüz. Mən onda daha ürəkdən gülmüş və demişdim: nə bilirsiniz ki, bir saat sonra hansımız həyatda qalacağıq? Buranın hər saatında ölüm var. Ona görə çalışın mümkün qədər çox gülün. Gülüş ürəyin, bir də gözlərin işidir...

Bir dəfə yadınızdadır, döyüşqabağı hərə bir təklif etdi. Mən isə dedim ki, gəlin telefonun yaddaşından bir qəşəng rəqs səsləndirək və elə bu daş-torpağın üstündəcə rəqs edək!.. Razılaşdınız və bir mərəkə qopdu ki, onda! Şaqraq bir oyun havasının sədaları altda sındıra-sındıra oynadıq! Bah! Heç çıxmırdıq ki, oyundan... Amma döyüşqabağı özümüzü yormamalı idik... Tərli-tərli soyuq torpağa sərildik.

(Sizə demədim, amma onda torpağın məni çəkdiyini hiss etdim!.. Mən üstünə sərildiyim bu torpaq uğrunda şəhid olacağımı ilk dəfə onda fəhm etdim, dostlar! Üstünə sərildiyim bu torpağı elə qucaqladım ki... Onun adi torpaq deyil, canlı olduğunu da onda hiss etdim...)

Mənə əvvəllər qeyri-ciddi bir adam kimi baxan siz silah dostlarımın münasibəti yüzdə yüz dəyişdi. Hər an qəhqəhə ilə gülməyə hazır idiniz və gülürdünüz də. İçimizin ən qaraqabağı da gülmək "xəstəliyi"nə tutuldu tezliklə...

Bir də bir söz demişdim: biz hamımız gübrəyik. Yaranmışıq ki, yaşayaq, ölək, şair demişkən, torpağımız artsın, çoxalsın... Hə, mən neftçiyəm axı!.. Neft də, qaz da, daş kömür də, digər energetik maddələr də canlıların, xüsusən də insanın çürüntüsündən yaranıb! Hə, vallah, onlar ona görə tez alışandır ki, tərkibində insan ruhu var! (Gülmüşdünüz onda da!)

Bir söz də demişdim: "Torpaq, su töküləndə palçıq, tər töküləndə məhsul, qan töküləndə Vətən olur..." Mən qanımı tökdüm, Vətən olsun. Gərəkərsə, siz də tökün. Babaların qanı tökülən bu yerləri yenidən Vətən etməyin zamanı gəlib, zalım dostlar!

Bilirəm, sizinlə haçansa yenidən görüşəcəyik. Yanıma üzüqara gələsiniz, əgər o namərd düşmənin ayağını bu torpaqdan kəsməsəniz!..

Bir də anamı qoymayın ağlasın. Hər şeyə dözərəm, bir onun yanağından süzülən yaşa dözmərəm – tökülər qəbrimə, qəbrim damar, yandırar məni... Sadəcə ona eşitdirin ki, Vətən məhəbbəti hər şeydən ucadaymış, hətta anadan da... Ona görə onu qoyub gedəsi oldum Vətənin yanına ki, düşmən topunun səsindən qorxmasın...

Dəfnimdə atəş açacaqsınız, bilirəm, amma bir də əl çalın ki, gülən gözlərimə o səsdən işıq düşsün...

Bir də...

Heç bilmirəm, bunu necə deyim... Əgər hamı gedəndən sonra boynubükük qərənfilə dönüb üstümə gələn qız görsəniz, anama dediyimi ona da deyin... O bilər. Bilər ki, mən hər səsə gedən deyiləm. Vətən eşqi isə elə bir sevdaymış ki, bihuş kimi olursan. Bütün sevgiləri üstələyə bilirmiş... Səni sehrinə sala bilirmiş. Səni öz övladı edə bilirmiş. Hə. Öz övladı. Vətənin övladı...

A dostlar, zalım dostlar. Şəhidlik hansınıza qismət olmasa, savaş bitəndə, torpağımız yağıdan azad olanda məzarım üstünə gəlin. Heç nə. Qəhqəhə ilə gülsəniz, bəsdir. Anlayacam... İşdir, gülə bilməsəniz, eybi yox, ağlayın. Yetər ki, səsinizi eşidim.

Amma çox ucadan ağlamayın. Polad paşa qonşumdur axı. Ayıbdır, eşidər, bilər, utanarıq. Tanrı bizi utandırmasın...



**Bəhruz Məmmədov**

# Atamın əlləri

Atam ustadır, ev tikir. Yaxşı sənətkardır, əlləri qızıldır deyirlər.

Boş vaxtı olmur. Axşamlar evə gələndə çox az danışır bizimlə. Yorğun baxışlarıyla sanki başımızı sığallayıb, – yaxşı oxuyun, – deyib divanda yerini rahatlayır, televizorun pultunu götürüb kanalları dəyişir.

Özü üçün maraqlı nə isə tapıb gözünü yumur. Elə ordaca yuxuya gedir. Çox da səssiz yatmağı var. Anam çay gətirəndə hamımız bir-birimizə, sonra da atamın yatmış çöhrəsinə baxıb gülümsəyir, yenidən öz dərsimizlə məşğul oluruq...

Neçə vaxt idi ki, atam evə gəlmirdi. Anam deyirdi ki, hansısa başqa kənddə iş götürüb. Amma anamın gizli-gizli ağlamağından bilirdim ki, atam hansısa kənddə yox, müharibədədir.

Qonşumuz Sevil xalanın oğlu şəhid olanda bizə də xeyli adam gəlirdi. Anama təsəlli verib gedirdilər...

Ad günümdən dörd gün əvvəl lap çox adam gəldi evimizə. Şəhərdən əmim də gəlmişdi. Daha bizdən heç nə gizlətmirdilər. Atam müharibədə yaralanmışdı.

Yadımızdan çıxdı bu il ad günümü keçirmədik. Böyük qardaşımın gələn ay 10 yaşı tamam olacaq. Atam deyir ikinizin ad gününü bir yerdə qeyd edərik.

Hə, atam keçən həftə qayıdıb. Maşından düşəndə gördüm ki, gözləri sarıqlıdır.

Qolları da balacalaşıb. Əmim qoluna girib gətirdi evə. Divanda oturandan sonra adımı çəkdi. Mən də qaçıb qucağına atıldım. Saçlarımı öpüb çoxlu-çoxlu qoxuladı.

Sonra adamlar gəldi. Heç tanımadıqlarım da var idi aralarında. Axşama qədər hamısı getdi. Evə sakitlik çökmüşdü. Atam televizoru yandırmağımı istədi. Mən də pultu götürüb oturdum yanında. Bir neçə kanalı çevirib, "hansında qalsın?" – deyə soruşdum.

Cavab vermədi... Deyəsən yatmışdı.

Bundan sonra atam üçün kanalları mən dəyişəcəm.

Onun əlləri Qarabağda qalıb...



**Cəlil Cavanşir**

## Qəribə və maraqlı günlər

Belə bir gün idi, – atam bu əhvalatı danışanda, bunu xüsusi olaraq vurğulayır və əlavə edirdi, – qeybətdən, deyinməkdən, bir-birinin arxasınca asıb-kəsməkdən yorulan kənd camaatı çayxanalara çəkilib domino "çırpanda" kəndə qalxan yolla bir hərbi maşın sürətlə yaxınlaşırdı. Hərbi Səfərbərlik idarəsinin nümayəndəsi, deyəsən, xidmətdən yeni qayıtmış əsgərlərə çağırış vərəqələri gətirirdi. Ürəyində müharibəni lənətləsə də, gətirdiyi vərəqələri paylamalı, orduya çağırılan gənclərin sabah Hərbi Səfərbərlik idarəsində toplaşmalarını təşkil etməli idi.

...Belə bir gün idi, – atam bunu təkrar etməkdən yorulmur. Ancaq Günəş üfüqdə tənbəl-tənbəl şəfəq saçır və qarşıdan gələn soyuq və şaxtalı günlərin müjdəsini verirdi. Hərbi Səfərbərlik idarəsinin nümayəndəsi maşını kəndimizin ən izdihamlı yerində, dükan-bazarın, çayxanaların çox olduğu "Bazar yeri" dediyimiz yerdə saxlayıb,

ağır-ağır aşağı düşdü. Camaatın təəccüblü baxışlarının müşayiəti ilə, cavanların toplaşdığı çayxanaya tərəf yönəldi. Üç-üç, beş-beş toplanmış kişilər mənasız söhbətlərini, qeybət edənlər qeybətlərini yarıda saxlayıb onun arxasınca çayxanaya girdilər. Pandemiyanın tüğyan etməsinə baxmayaraq, kəndlərdə həyat öz axarında davam edirdi, nə çayxanalar bağlanmışdı, nə də kafelər.

...Hərbi Səfərbərlik idarəsinin nümayəndəsi çayxanaya girəndə cavanlar onu bir az təəccüb, bir az da həyəcanla qarşıladı, yerindən qalxıb onun əlindəki çantaya gərginliklə baxanlar da vardı, sivişib aradan çıxmaq istəyənlər də... Cavanların əksəriyyəti hərbi xidmətini yenicə tamamladığı üçün rahat davranıb yerindən tərpənmədi. Qıvraq görünüşlü nümayəndə çantasını boş masalardan birinin üstünə qoyub, siyahısını çıxarıb oxumağa başladı...

Rahatlığını pozmadan domino oynayan cavanlar adları çəkildikcə Hərbi Səfərbərlik idarəsinin nümayəndəsinə yaxınlaşıb vərəqələrini aldı, özü çayxanada olmayanların da atası, qardaşı, əmisi, dayısı, qonşusu, yaxını vərəqəni götürdü. Çayxanadakı narahat səssizlikdə "qu" desən, qulaq tutulardı. Hərbi Səfərbərlik idarəsinin qıvraq görünüşlü nümayəndəsi hərbi maşına minib gəldiyi kimi də çıxıb getdi...

O gün çox şey oldu, – atam bunu deyərkən həmişə uzaqlara baxır – çaxnaşmanı görmək lazım idi. Çağırış vərəqəsini alandan sonra sevdiyi qızla görüşə tələsən cavanlardan biri yolda yıxılmış, ayağı sınmışdı. Oğlunun döyüşə gedəcəyini eşidib, şəkəri qalxan Əhliman kişi oturduğu yerdə insult keçirdi. Çağırış vərəqəsini alan kimi gələcək qudasına zəng edib toyu qeyri-müəyyən vaxta





qədər təxirə salan Abdullanın oğlu evin arxasına keçib, uşaq kimi hönkürüb ağladı. Mal-qaranı örüşdən gətirən çoban Allahyarın oğlu Orxan əmisinin ona uzatdığı çağırış vərəqəsini əlinə alanda sevindiyindən yolun ortasında dəli kimi atılıb düşməyə, çoban çomağını avtomat kimi köksünə sıxıb, naməlum düşmənləri "güllələməyə" başladı. Kəndin küçələrində bir-birini qucaqlayan, halallaşan, vidalaşan böyük-kiçik, kasıb-varlı, qadın-kişi qarışqa kimi qaynaşırdı. O gün kənd çox canlanmışdı. Hamı həmrəy, hamı bir idi. O gün naxırdan gələn inəyini qapıda unudan dul Firəngiz xalanın əsgər gedəcək oğlu olmasa da, qonşuya biş-düşə köməyə getdiyi üçün sabaha qədər inəyi qapıda, buzovu da tövlədə mələdi. Bir də atam danışır ki, o gün qonşu evlərdən gələn ağlaşma səsi, hay-küy sabah dan yeri sökülənə qədər davam etdi...

İnsanlar indiyə qədər heç qucaqlaşmadıqlarını, qonşuya baş çəkməyi unutduqlarını xatırladı. Bəziləri də bir-birinə qarşı kin saxladıqlarını, qonşu davasından küsülü olduqlarını unutmuşdu. Qəribə, maraqlı bir gün idi. Ağır bir gün. O bir gün də digər günlər kimi tez başa çatdı...

Çağırış vərəqəsi gələn cavanlar rayon mərkəzinə yola düşdü. Kənd cavanlarının rayon mərkəzində yerləşən Hərbi Səfərbərlik idarəsində onları gözləyən avtobuslara doluşub, birbaşa döyüş bölgəsində yollandıqları gün hava tutqun idi. Əsgərləri yola salmağa gələn yaxınları da qaşqabaqlı, tutqun görünürdü...

Atam danışır ki, cavanlar müharibəyə gedəndən sonra kəndin səs-küyü, coşqusu azaldı, çayxanalar boşaldı. Çağırışa qoşula bilməyən cavanlar hərdən kənd yolunda başıaşağı, qəmgin halda görünür, əsgər ailələrinə rast

gələndə yağış kimi sual yağdırırmışlar. İndiyə qədər heç qucaqlaşmadıqlarını, qonşuya baş çəkməyi unutduqlarını xatırlayan insanlar bir-birinə daha yaxın, daha məhrəm olmuşdu.

Qəribədir, – atam o günü xatırlayanda bu ifadəni də işlədir – qələbə də günəşli, sakit, gözəl bir gündə elan olundu.

Hər halda hamının beynində pis düşüncələri, laqeydliyi, yadlığı, dünyanın faniliyini unutduğu bir gün var. Əks halda atam bu əhvalatı danışmazdı. Orası da dəqiqdir ki, atam yaşadığı müddətdə o həmrəyliyi, o coşqunu unutmadı. Ancaq hekayəni xüsusi olaraq bu sözlərlə tamamlayırdı: "Bəlkə də həmrəylik olmasa, birlik olmasa, qələbə də mümkün olmazdı... və deyəsən, qələbə üçün başqa şeylər də lazım idi."

Ancaq bu "başqa şeylər"in nə olduğunu atam heç vaxt demədi...



**Çinarə Ömray**

# 17:00-da dayanan saat

Vüsalı çoxdan tanıyırdım. "WhatsApp"da dost qrupumuz vardı. O vaxt jurnalist kimi müsahibələrə gedəndə həmin qrupa yazırdım: "Uşaqlar, filankəsdən müsahibə alacağam. Nə soruşmaq istəyirsiniz, sualınızı göndərin, soruşum". Heç kim əhəmiyyət vermirdi. Bircə Vüsaldan başqa... Elə müsahibənin sütunu da onun göndədiyi suallar olurdu. O vaxtdan onun intellektinə də, dünyagörüşünə də bələd idim.

"Qaçqın" sözü uşaqlıqdan həyatıma, taleyimə qara və iri hərflərlə elə yazılıb ki, onun nə yazılışını, nə də rəngini heç kim mənim üçün dəyişə bilməz. Bircə Vüsalın "Qaçqın" deməyindən incimirdim. Çünki onun təbirincə desək, bu sözü ironiyalaşdırır, qorxusuzlaşdırırdı. O deyirdi ki, insan onu ağrıdan nəsnələrə ironiyayla yanaşmalıdır. Həmişə mənə zarafatla "Necəsən, qaçqın?" – deyirdi. Mən də əsəbiləşib, "Qaçqın sənsən e, Lənkəran dura-dura gəlib Bakıda qalırsan. İndi bax, hansımız

qaçqınıq?" deyirdim. Gülürdü: "Sən gözlə, biz qaçqınlar siz qaçqınları buradan xilas edəcəyik", – deyirdi. Ya da metroda, "Şəhərimizin sakinləri və qonaqları" deyəndə üzümə baxıb gülərək: "Qonaqlar deyəndə səni nəzərdə tuturlar", – deyirdi.

Vüsal həyata da insanlara, insanlığa gülümsəyərək başlamışdı. Üzündə qəribə bir məsumluq, qəlbində tükənməz bir xeyirxahlıqla elə hey bir əli kimisə xilas etmək, kiməsə yardım etmək üçün uzalı idi. Görəsən, son nəfəsində də uzanan əlindən tutan oldumu, Vüsal? Kim vardı yanında?

Vüsal həm də hərbiçi idi. Qismən səfərbərlik elan olunanda içindəki Vətən sevgisi, Vətən ruhu onu rahat buraxmadı. Ön cəbhəyə yola düşdü. Döyüşlərdə iştirak etdi. Gedəndə mənə yazmışdı:

– Qaçqın, gedirəm statusunu əlindən almağa.

– Nə statusu? Hara gedirsən? – deyə təəccüblə soruşmuşdum.

– Gedirəm Qubadlını alam, gələm. Səni qaçqınlıq statusundan məhrum edim ki, bu camaatın da başı dincəlsin sənin "Qaçqınlıq" mövzularından, – yenə zarafatından qalmamışdı.

– Sən Allah, zarafatı kənara qoy, – narahat olmuşdum. – Ciddi deyirsən?

– Əlbəttə, Vətən bizi gözləyir, – deyə bu dəfə ciddi cavab vermişdi. – Xocalının qisasını biz almasaq, eyni taleyi övladlarımız yaşaya bilər. Dua elə, sadəcə dua elə...

– Özünü qoru, başqa nə deyə bilərəm ki... – pərişan halda cavab vermişdim.

Sonra dostlardan öyrəndim ki, Vüsal bütün döyüşlərdə özünü irəli atır, bütün əmrlərə birinci reaksiya verir.





Dostlarının içində mərdliyi, vətənpərvərliyi ilə xüsusi seçilir. "Ona deyin, övladları yolunu gözləyir, ehtiyatlı olsun", – demişdim. Cavabı elə Vüsala yaraşan olmuşdu: "Övladlarımın azad, bütöv bir ölkədə yaşaması üçün canımı da qurban verərəm". Tarix şəxsiyyət yetişdirmir, şəxsiyyətlər tarix yazır. Necə ki, şəhidlərimiz öz qanları ilə tarix yazdılar.

Vüsalın şəhidlik zirvəsinə ucaldığı xəbərini oxuyanda uzun müddət heç nə deyə, yaza bilmədim. Səni nə qədər sevən varmış, dost...

Səni uzaqdan bir dəfə görənlər, bircə dəfə salamlaşanlar da fəxrlə "dostum olub" deməyə çalışır. Nə möhtərəm, nə möhtəşəm yerdəsən, dost! İndi sən dua elə, Vüsal, dua elə ki, Allah bizi bağışlasın...

Bu xəbərin təsirindən uzun müddət özümə gələ bilməsəm də, qərara aldım ki, Lənkərana dostumu ziyarətə gedim. Yol boyu fikirləşirdim: "Nə deyəcəm?", "Salam, mən Vüsalın dostuyam, gəlmişəm qəbrini görəm?" , "Aysələ nə deyəcəm?", "Birdən qızı Nuray məndən atasını soruşar?" Zəli kimi beynimi yeyən bu suallarla necə yola çıxmışdımsa, bir də baxdım ki, artıq Lənkərandayam. Yol məni düz onların kəndinə aparırdı – Yuxarı Nüvədi kəndinə. Birdən kəndin lap girəcəyində Vüsal çıxdı qarşıma. Maşının əyləcini onu vurmamaq üçün necə sıxdımsa, güclə dayandım. Bu, gülümsəyən siması ilə hərbi geyimdə olan Vüsal idi. Yəqin, yolboyu fikirli gəlməyim yormuşdu məni. Gözlərimi silib bir də baxdım. Doğrudan da, bu o idi. Amma özü yox, kəndin girəcəyində vurulmuş böyük lövhədən asılmış şəkli. Onun şəkli belə gənclərə, o kənddə böyüyən gələcəyin əsgərlərinə nümunə idi.

Dostum şəkildə belə, gülümsəməyindən qalmırdı. Onların evlərini kimdən soruşurdumsa, hamı fəxrlə nişan verirdi. İnsanların onu belə anması elə xoşuma gəlirdi ki, az qalırdım yolda-rizdə kimi görsəm, maşını saxlayıb Vüsalgilin evlərini soruşum. Uşaqdan böyüyə qədər də hamı "Şəhidimiz Vüsalı deyirsiniz?" deyib onlara gedən yolu göstərirdilər.

Vüsalın bir gülümsəyən şəkli də yaşadığı məhəllənin girişində var idi. Şəkildə həmişəki məsum gülümsəməsi ilə sanki "Məni unutmayın!" deyirdi.

Bizi birinci Vüsalın atası Kamran müəllim qarşıladı. Onun əzminə, var-yox bir oğul övladını itirmiş olsa da, içindən parçalansa da, dik duruşuna həsəd aparırdım. İçinin bütün ağrılarını, oğul kəlməsini, oğul yanğısını boğazı yana-yana, tüstülənə-tüstülənə udaraq üzdə mətin görkəmi adamı məhv edirdi. Ata olmağın, şəxsiyyət olmağın ucalığı bu imiş deməк.

Daha sonra Vüsalın xanımı Aysel gəldi. Şərəfli olsa da bu qədər ağır yükə körpə canıyla, sısqa çiyinləri ilə dözə bilən Aysel. Axı sən hələ özün gəncsən, sən necə bacarırsan bunu?

Böyük qızı Nurayın 6, kiçik qızı Aynurun 1 yaşı var. Nurayın gözlərindən onlara gələn hər kəsin üzündə, söhbətində, hərəkətində atasını axtardığı elə oxunur ki. Dinməsə də, danışmasa da atasının gözlərinə bənzəyən gözləri hər şeyi danışırdı. O gözlərdəki suallar heç birimizin cavabımız yoxdur. O gözlər qarşısında hamımız acizik.

Kamran bəy "Əvvəlcə Vüsalla görüşək" deyib bizi başqa otağa apardı. İlahi, bir ata oğlunun unudulmaması, özünə təsəlli vermək, yanğısına su səpə bilmək üçün bundan





artıq nə edə bilər? Otaq Vüsalın şəkilləri, geyimləri, ətri, aksesuarları, qanına bulaşmış ay-ulduzlu paqonları ilə bəzədilib. Bu böyüklükdə evdə bu otaq sanki nəfəslik idi. Kamran müəllimin, Ayselin gözündən yaş qarışıq tökülən qüruru görmək ayrı hal idi.

Vüsalın atasına hədiyyə etdiyi saat da burda idi. Səbəbini soruşdum. Kamran müəllim dedi ki, Vüsalın cənazəsi həyətimizə girən anda saat dayandı. Həqiqətən də saat 17:00-da dayanmışdı...

Mən bu ailədə olanda bir şeyi də dərk etdim. Dərk etdim ki, Allah təkcə şəhidləri seçmir, onların ailələrini də seçir. Bu adı layiqli şəkildə yaşada biləcək, uca tuta biləcək, adın haqqını verə biləcək ailəni seçir əvvəlcə. Daha sonra şəhidini böyütmək üçün o ailəyə əmanət edir. Kamran müəllim də, Aysel də seçilmişlərdən idi.

Bir deyim var: "Yaşananlar xatirəyə çevriləndə ağı olur". İndi də mən Vüsala ağı deyirəm elə bil. Vətən anlayışını yeniləyən, insanların bir-birinə inamını, etibarını təzələyən, bərkidən, bayrağımızı, adımızı göylərə ucaldan şəhidlər içində adı olan şəhid dostum, səninlə fəxr edirik!

**Çingiz Abdullayev**

Xalq yazıçısı

# Körpə və kürən pişik balası

Gözəl günlər idi. Həmişəki südlü sıyıqla qarnını doyurandan sonra yuxuya getmək necə də ləzzət edirdi. Adətən, onu anası özü yedirirdi. O, hər dəfə ağzına qoyulan qaşıq dolusu sıyığı ləzzətlə udub növbəti qaşıq üçün ağzını açanadək anası səbirlə gözləyirdi.

Sonra onu qucaqlarına alıb yataq otağına aparırdılar. Orada paltarını dəyişirdilər. Adətən təzə pampers də geyindirirdilər. Bu duyğuya da artıq vərdiş eləmişdi: bədənini səhərə yaxın islanacaq hansısa sərin yarıkağız bir suçəkən parçaya bələyirlər... Bəzən hətta həmişəkindən tez isladırdı.

Belə olanda o da həmişəkindən tez oyanır və zığıldamağa başlayırdı. Yox, o, adətən, qışqırıb kimisə oyatmağa can atmırdı, ancaq sakitcə zığıldayır, sanki astaca anasını köməyə çağırırdı. Anası, demək olar ki, dərhal oyanırdı və onun qayğıkeş əlləri oğlunu beşikdən götürüb öz





çarpayısında yanına uzadırdı ki, artıq islanmış bələyini – pampersini dəyişsin.

O, səhərlər adətən saat yeddiyə az qalmış oyanırdı. Yanındakı çarpayıda yatan anasının təkcə ətrini hətta aralıdan belə hiss etmək necə də böyük xoşbəxtlik idi! Səhərlər anasının onu qucağına alıb paltarını dəyişdirməyə başlaması isə... Bax, bu, ayrıca bir doğmalıq və səadət duyğusu yaradırdı. Bu sevimli qoxu ona doğma idi. Əvvəllər anası onu sinəsinə sıxır, döşünü mehribanlıqla onun ağzına salır, isti əli ilə onun hələ təzəcə dənzərən yumşaq saçını sığallayırdı. O da bu əziz varlıqdan – anasının döşündən pompuş əlləri ilə möhkəm yapışıb acgözcəsinə və ləzzətlə əmirdi. O, südün ətrini hələ unutmamışdı. Kimsə anasına demişdi ki, bir yaşından sonra əmizdirmək elə də vacib deyil. Ona görə də sıyığa keçmişdilər. Ancaq əmdiyi südün iyi uzun müddət yadında qalmışdı və anası hər dəfə onu qucağına alanda özündən asılı olmayaraq bu qədər sevdiyi o gözəl məlhəmin çeşməsini yenə də tapmaq üçün anasının döşlərinə tərəf dartınırdı.

Bəzən gecələr o, başqa bir adamın xorultusunu eşidirdi. Anası həmin adamı ona göstərir və gülümsəyərək deyirdi: "Ata..." Ata anası ilə yanaşı yatırdı. Hərdən onun da səsi gəlir və bu səs hansısa işlək bir maşının çıxardığı xırıltılı küyə bənzəyirdi. Ata danışanda körpə tanış ahəngi eşidərək sanki donub qalırdı. Bu səs ona hələ anasının bətnində olan vaxtlardan tanış idi. Anasının səsinə nisbətən daha kobud və daha xırıltılı olan bu ikinci səs o doğulandan sonra da həmişə yanında idi. Ata evə adətən axşamlar gəlirdi. İri əllərini balaca qollarının altına ehtiyatla salıb onu qucağına götürür, başının üstünə qaldırır,

hərdən hətta atıb-tuturdu da... Ondan ayrı cür qoxu gəlirdi. Atanın ətri başqa idi.

Körpə yavaş-yavaş bu qoxuya da alışırdı. Ata onu görəndə tez-tez gülümsəyirdi, hərdən yenə də qucağına alır, atıb-tuturdu. Güclü ata əllərinin onu qucağına alıb başının üstünə – hamıdan və hər şeydən yuxarıya qaldırması körpənin çox xoşuna gəlirdi. Ata tez-tez üzünü ona tutub gülürdü. O, ucaboy və yaraşıqlı idi. Körpə artıq yeriməyə başlayanda onu başqa adamlardan seçməyə başlamışdı. Onu dərhal tanıyır və yanına yüyürüb dizlərini qucaqlayırdı. Körpənin bu ucaboy, güclü adamdan xoşu gəlirdi. "Ana"dan dərhal sonra öyrəndiyi ilk söz olan "ata" sözündən də xoşu gəlirdi. Ümumiyyətlə, onu ovuclarının içində saxlayan bu iki böyük adamı çox istəyirdi. Körpə ağlayanda o dəqiqə özlərini onun üstünə atırdılar. Bələyini isladan kimi təzələyirdilər. Ona balaca qabda su verir, içib qurtaranadək gözlərini ondan çəkmirdilər.

Əlbəttə, əsas şəxs ana idi. Bəzən səhərlər valideynləri çarpayıda yanaşı uzananda anası onu da qucağına alıb ikisinin arasına uzadırdı. Bu, ayrıca bir ləzzət idi və körpə bundan çox xoşhal olurdu. Onlar bəzən nə barədəsə danışır, deyib-gülür, zarafatlaşırdılar. Və onu da növbə ilə qucaqlayırdılar. O isə heç də tamamilə anlaya bilmədiyi bir duyğu dənizində üzürmüş kimi uzanır, gülümsəyir, özünü olduqca xoşbəxt hiss edirdi. Sanki həm də hiss edirdi ki, ana və ata onun çox etibarlı qoruyucularıdır...

Ancaq balaca pişik balası hamıdan, hər şeydən çox xoşuna gəlirdi. Pişik balası bu evə onunla, demək olar ki, eyni vaxtda gəlmişdi. Bu balaca kürən körpədən daha sürətlə böyüyürdü. Hələ bu harasıdır! Kürən öz rəqibini





diqqətlə izləyirdi. Körpəyə pişik balasından çox diqqət göstərirdilər ki, bu da kürəni əsəbiləşdirirdi. Bəzən o hətta həmişəkindən bərk miyoldayırdı ki, ona da diqqət yetirsinlər. Amma bütün bunlara baxmayaraq, o tez-tez körpənin yanına uzanır və özünü sığallaması üçün ona şərait yaradırdı. Kürən ağıllı pişik idi və getdikcə başa düşürdü ki, bu evdə əsas şəxs hələ, demək olar ki, danışa bilməyən, ilk vaxtlar yalnız öz beşiyində uzanıb aydın olmayan səslər çıxardan bu müəmmalı körpə olacaq.

Ancaq körpə beşikdə çox qalmadı. O qalxdı və əvvəlcə kürən pişik balası ilə birlikdə sürünməyə başladı. Bir qədər sonra iməklədi, daha sonra isə ehtiyatla, yıxıla-dura yeriməyi də öyrəndi. Bəli, düzdür, körpə hərdən yıxılırdı da, hətta hərdən kürən də onu yüngülcə itələməyə ürək eləyirdi. Amma körpə inadkarlıqla yeriməyə can atırdı və tezliklə yalın ayaqlarını şappıldada-şappıldada, xoşbəxtcəsinə gülə-gülə otaqlarda qaçmağa başladı. Artıq yekəlmiş kürən də körpənin dalınca tənbəl-tənbəl gəzir, onu gözdən qoymur, gah nədənsə qoruyur, gah da ona qoşulub şənlənirdi. Ancaq körpə heç vaxt pişiyin yeməyinə toxunmurdu. Bu isə ən vacib məsələ idi. Ona görə də onların dostluğu getdikcə möhkəmlənirdi. Bəlkə də, dostluğun əsas şərti elə bu idi – başqasının malına kəm baxmamaq!

Hərdən hansısa başqa qadın da gəlirdi. O olmazın dərəcədə anaya oxşayırdı. Körpə bunun səbəbini anlaya bilmirdi. O da təxminən eyni cür ətir saçırdı. Ananınkı kimi mehriban, qayğıkeş əlləri vardı. Ancaq o, ana deyildi, başqa qadın idi. Körpə eşidirdi ki, anası bu qadını elə həmin gözəl adla çağıraraq ona "ana" deyir. Başa düşə bilmirdi ki, bir evdə iki "ana" necə ola bilər?! Ancaq onun

özünə həmişə deyirdilər ki, bu, nənədir. Bəzən o gələndə "Nənə gəldi!" deyə körpəni muştuluqlayırdılar. Körpə də kimisə başqa adamı "ana" deyə çağırmaqdan israrla imtina edərək məmnuniyyətlə "nənə" deməyə cəhd eləyirdi.

Bəzən gecələr körpənin təzə çarpayısının yanında kürən üçün balaca boşqabda süd qoyurdular. Yaxşı ki, körpənin heyvanlara qarşı allergiyası yox idi. Onlar ikisi də – körpə də, kürən də qarnı tox, qayğı ilə çimizdirilmiş, tərtəmiz və xoşbəxt halda yuxuya gedirdilər.

...Partlayış gecə baş verdi. O qədər gözlənilməz və güclü idi ki... Körpə oyandı. Əvvəlcə onu kimin və niyə oyatdığını anlamayaraq bir neçə saniyə susdu. Sonra əlini qabağa uzatdı. Çarpayısının üstünə həmişə çəkilən tor yox idi. Buna təəccübləndi: axı anası toru çəkməyi heç vaxt unutmazdı. O, yenə də nəsə qışqırtılar və möhkəm gurultu eşitdi. Üşüməyə başladı. Yorğança üstündən sürüşüb düşmüşdü və maraqlı idi ki, heç kim gəlib onun üstünü örtmürdü. O, bərkdən ağlamağa başladı. Haradasa tanımadığı adamlar qışqırışırdılar. Körpə başını qaldırdı və soyuqdan titrədiyini hiss edərək qərara aldı ki, çarpayıdan sürüşüb düşsün. Həmişəki kimi dalın-dalın sürünməyə başladı ki, yıxılmasın. Əlini adətən ana yatan və ata xoruldayan çarpayıya uzatdı. Ancaq ora bir topa daş tökülmüşdü. Körpə başa düşmürdü ki, ana niyə yoxdur. Ancaq daş topasına ilişəndə öz pişiyi yadına düşdü. Geri dönüb həmişə kürən uzanan tərəfə qaçdı. Kürən körpəni bərkdən miyoldayaraq qarşıladı. Boşqab çevrilmiş, pişik balası böyrü üstə yıxılmışdı. Körpə aşağı əyilib yumşaq, pompuş əli ilə dostuna toxundu. Kürən hərəkətsiz uzanmışdı. Heç tərpənmədi də. Bu, körpənin xətrinə dəydi.





O, dostunu daha bərk silkələyərək onu oyatmağa çalışdı. Ancaq dostu susurdu.

Yaxınlıqda bayaqkı kimi adamlar qışqırışırdılar. Körpə heç cür başa düşə bilmirdi ki, onun valideynləri hara yoxa çıxıblar və kürən dostu ona niyə cavab vermir. Elə bu vaxt kimsə körpəni qucağına aldı. Kimsə onu adyala bükdü.

– Oradakıların hamısı ölüb! – tanımadığı bir səs qışqırdı. – Qonşu otaqda heç kim yoxdur.

Naməlum adam yəqin ki, həyəcandan körpəni möhkəmcə sinəsinə sıxdı. Körpə ağrıdan bərkdən ağlamağa başladı. O hələ də başa düşmürdü ki, onun kürən dostu niyə bu qədər bərk yatıb. O hələ bilmirdi ki, bu gün onun həyatı "qədər" və "sonra" adlanacaq iki hissəyə bölünüb və bu partlayışla eyni vaxtda yoxa çıxan xoşbəxtliyi daş topasının altında qalan anası və atası kimi artıq keçmişdə – "qədər"də qalıb. O bunu bilə bilməzdi. Ancaq o üşüyürdü və çox narahat idi. Ona görə də səsini kəsmir, ucadan qışqıraraq ağlayırdı...

AZƏRTACIN MƏLUMATI: – Dünən gecə Gəncə şəhəri atəşə tutulub. Dinc əhali arasında xeyli ölən və yaralanan var...

**Damət Salmanoğlu**

# Danışan onların ruhları idi

Xüsusi təyinatlı bölmələrimiz kol-koslu, dağlı-dərəli yollarla irəliləyirdi. Hər tərəf dağlarla əhatə olunduğundan, soyuq nəfəsimizi kəsirdi.

Külək qara buludları yavaş-yavaş dağların üstünə toplayırdı. Hava bir az da dolmuşdu, axşama doğru yağış yağa bilərdi.

Komandir bizə səsləndi:

– Uşaqlar, tələsin! Yağış yağa bilər. Axşama kimi bizə verilən əmri yerinə yetirməliyik.

Daşaltı kəndinə yaxın yerlərdə mövqe tutmalıydıq. Sübh çağı, düşmənin xəbəri olmadan qəfil hücuma keçib, kəndi işğaldan azad etməliydik.

Axşama doğru kəndə yaxın mövqeyə çatıb hərə öz postuna yerləşdi.

Komandirimiz durmadan deyirdi:

– Ayıq-sayıq olun, bu savaş ölüm-dirim savaşıdır...

Biz mövqelərimizə yerləşdik. Allahın böyüklüyünə şükür olsun, təbiət də bizə imkan verdi, yağış yağana





kimi gəlib təsdiq olunan məkana çatdıq. Sanki yer-göy bizi gözləyirmiş – göylər bir himə bənd imiş kimi bir anda kükrədi, coşdu. Dayanmadan şaqqıltıyla şimşək çaxır, gurultudan qulaq tutulurdu. Əslində yağışın bizə çox xeyri var idi. Hücuma keçən anda ayaq səslərimiz yağışın şırıltısında eşidilməz olacaq, düşmən duyuq düşməyəcəkdi.

Allah-təala bizim haqq savaşına özü rəvac verib, özü dayağımızda durmuşdu. Çünki biz Vətən müharibəsi aparır, işğal olunmuş şəhər və kəndlərimizi, Vətənimizi azad edirdik.

Kəşfiyyatçılarımız əvvəlcədən düşmənin mövqelərini dəqiqliklə yoxlayıb öyrənmişdi.

Səhər saat 5 tamamda hücum əmri verildi. Hücuma keçib terrorçu yaraqlıları elə qəfildən haqladıq ki, göz açmağa belə macal vermədik, hamısını məhv etdik.

Şuşaya yolumuz açılıdı, amma düşmən tərəf yollarda çoxlu texnika cəmləşdirmişdi. Yəqin düşünürmüşlər ki, biz məhz o yollarla hücuma keçəcəyik və böyük itkilərə məruz qalacağıq.

Hələ bir plan da hazırlayıb adını da "Gorbagor" qoyublar.

Amma onlar bilmirdilər ki, bizim cəngavər generallarımızın hazırladığı plan onların axırına çıxacaq.

Bölmələrimizin bir qismi Şuşaya qalxan yollara yaxın yerlərdə mövqe tutaraq düşmənin diqqətini yayındırmaq məqsədilə onlarla arabir döyüşə girir, sonra geriyə çəkilirdi.

Komandirimizin qərarlarını, əmrlərini dəqiqliklə yerinə yetirirdik, çünki hər əməliyyat dəqiqliklə ölçülüb biçilmişdi.

Hələ uzaqdan Şuşanın möhtəşəm əzəmətini görəndə ürəyim döyünür, gözlərim dolurdu. Elə bil kimsə, əziz bir adam qulağıma pıçıldayaraq, mənə deyirdi: "Axır ki gəldiniz... 28 ildir sizi gözləyirik!" Bu səs Xan qızı Natəvanın səsi idi, bu səs Vaqifin səsi idi. Leysan başıma döyə-döyə ətrafdakı sıldırım qayaları, dərələri seyr edir və qulağıma gələn səslərin, bu bal kimi şirin ləhcənin sahiblərini axtarırdım. Kimsə gözə dəymirdi. Anladım ki, o səslər onların ruhlarının səsidir. Danışan onların özləri deyil, ruhlarıdır.

Bizim dağ atıcı bölmələrimiz keçilməz yerlərdən keçərək, sıldırım qayalara dırmaşaraq düşmənin müqavimətini qırmalıydı.

Noyabr ayının 5-də gecə vaxtı Şuşanın xilaskarlarına əmr verildi:

– İrəli! Alın Xocalının qisasını! Alın qürur mənbəyimiz olan Şuşa şəhərini!

Cəngavər oğullar yüngül silahlarla, "Qırx pilləkən" adlanan ərazidən sıldırım qayalara kəmənd atıb dırmaşaraq, düşmənin gözləmədiyi halda gecənin qaranlığında onlara tapançalarla, bıçaqlarla hücum etdilər.

Qəfildən yaxalanıb çaş-baş qalan düşmən neyləyəcəyini bilmədi.

Komandir öz cəngavərlərinə tapşırıq vermişdi:

– Elə ki girdiniz düşmən mövqeyinə, gördünüz vahiməyə düşüblər, çəkilin kənardan atəş açın onlara, onlar bir-birini qıracaq. Hamısı bir-birini qaranlıqda düşmən əsgəri hesab edib, hara gəldi atəş açacaq.

Düşmən vahimə içində idi, hamısı qışqırırdı: "Türklər gəlib!"





Çoxu mövqelərini tərk edib qaçırdı.

İgidlərimiz şəhərin cənub hissəsinin yolunu azad edib, ordunun şəhərə girməsinə şərait yaratdılar.

Həmin günlər düşmən minlərlə itki verdi, çoxlu sayda yaralıları vardı. Düşmən açıq döyüş meydanında məğlub olaraq şəhəri tərk etməyə məcbur oldu.

Azərbaycanın rəşadətli ordusu üçrəngli bayrağımızı Şuşa qalasına sancdı!

Bu şad xəbəri bütün xalqa çatdıran Ali Baş Komandan noyabr ayının 8-də qədim Şuşa şəhərinin işğaldan azad olunduğunu elan etdi.

Bütün Azərbaycan xalqı Şuşanın azadlığını toy-bayramla qarşıladı.

Şuşanın xilaskarlarının adları Azərbaycan xalqının qəlbinə əbədi yazıldı.

Onlar heç vaxt unudulmayacaq!

**Elçin**

Xalq yazıçısı

# Ağadadaşın kişi sözü

## 1.

... sonra kəndə xəbər yayıldı ki, papaqçı Ağadadaşın oğlu Gülbala da əsgər getdi və Gülbala bu kənddən cəbhəyə gedən yeddinci cavan idi. Hələ ki bu cavanlar pis gözdən irağıydı, hələ ki salamatçılığıydı, təkcə Çörəkçi Firuzənin nəvəsi Atif qarnından qəlpə yarası almışdı, Bakıya hospitala gətirmişdilər, deyilənə görə vəziyyəti ağır idi və bütün kənd camaatının da duası onunlaydı ki, təki uşağa bir şey olmasın. Çörəkçi Firuzə hər gün sübh tezdən avtobusa minib, hospitala gedirdi, axşam da avtobusla kəndə qayıdırdı və təndir çörəyi bişirməyə vaxtı olmadığı üçün kənd camaatı məcbur olurdu ki, çörəyi Cəfərin marketindən alsın. Çörəyə, əlbəttə, pis demək olmaz, çörək çörəkdi, ancaq bir iş vardı ki, Firuzə arvadın təndirə yapıb bişirdiyi çörəyin dadı ayrı idi.





Dəniz kənarındakı bu Abşeron kəndinin qumu da ənciri, ağ şanısı kimi məşhur idi və elə ki yazın axırı gəlirdi, yay başlayırdı, məktəblər tətilə bağlanırdı, necə ki qışdan sonrakı alça, ərik ağacları çiçəkləyirdi, püstə, badam, innab, muşmula oyanıb, adamın üzünə gülürdü, bu kənd də eləcə canlanırdı. Məsələ burasındaydı ki, Bakı sakinlərindən kimin burda bağı varıydısa, bağa köçürdü, bağı olmayan ailəlikcə istirahətə gəlib, ev kirayələyirdi və Bakıdan bura cəmi-cümlətanı 45 kilometrlik yol idi.

Kəndin yaxınlığından elektrik dəmir yolu da keçirdi, elə o kiçik stansiyanın yanında avtobus dayanacağı vardı və ta ki nar dəyənəcən şəhərə get-gəl çox olurdu, salam-əleyküm də, təzə xəbər-ətər də çoxalırdı, Ağakərimin hətta Bakıda məşhur olan kababxanası da müştəridən əskik olmurdu, axşamlar yay kinoteatrında o qədər adam kinoya baxırdı ki, kino bitəndən sonra süpürgəçi Münəvvər arvad Bakıdan gəlmiş arvad-uşağın çırtladığı tum qabıqlarını skamyaların arasından süpürə-süpürə hirslənib, kinonu çıxardanın atasının goruna söyürdü.

Bəzən də yayın cırhacır vaxtında xarici turistlər də dəstə ilə Bakıdan dənizdə çimməyə gəlirdi və kəndin cavanları da turistlərə, çox zaman da turist qızlara, arvadlara həvəslə bələdçilik edirdilər, onları çimərliyin kənarındakı sərin qayalığa aparırdılar ki, oraları da görsünlər və sərinləsinlər. Hətta belə bir hadisə də olmuşdu ki, "Dünya nemətləri" adlı kənd marketinin sahibi və satıcısı Cəfərin oğlu Həmid çimərlikdə Anjel adında bir fransız qızı ilə tanış olmuşdu, indi o qızla evlənib, Fransada yaşayırdı və Parisdən kəndə ayda, yalan olmasın, azı üç-dörd məktub göndərirdi.

Bir sözlə, kənd camaatı yay aylarının səs-küyünə, haray-həşirinə öyrənmişdi, ancaq birdən-birə bu COVID-19 pandemiyası ki, başladı, hər şey dəyişdi: kirayə üçün hazırlanmış otaqlar boş, yayın gün yandıran istisində külafərəngilər boş, Ağakərimin kababxanasında kasadlıq. Hətta dəniz də bu yay, elə bil, yetimlədi – çimərliyin isti narın qumunda gəzən, uzanıb, özünü günə verən də yox idi, uşaqdan tutmuş böyüyə kimi çimən, top oynayan, suyu şappaşap şappıldadan da olmurdu, hərdən ancaq onu görürdün ki, özünü saxlaya bilməyən tək-tük kənd adamı dənizə girib, az qala gözdən itənəcən üzür, sonra da geri qayıdır – vəssalam.

Adama elə gəlirdi ki, dənizin səsi də əvvəlki deyil, elə bil, COVID-19 dənizi də əməlli-başlı darıxdırmışdı və dənizin səsi tənhalığından şikayət edirdi – hər halda təkcə bu kənddə deyil, Abşeronun başqa kəndlərində də yaxşı tanınan şair və meyxanaçı Balaəmi Əhsən belə hiss edirdi, bu barədə gözəl bir qəzəl də yazmışdı.

Kənd o pandemiyalı yayı beləcə dinməz-söyləməz keçirtdi, ancaq payızın gəlməyi ilə sentyabr ayının sonunda ki, Qarabağ müharibəsi başladı, kəndi dopdolu bir həyəcan bürüdü, camaat gecə-gündüz televizorun qabağından çəkilmədi, cəbhədən xəbər gözlədi və Qarabağın kəndləri, qəsəbələri, rayon mərkəzləri gündən-günə azad edildikcə, kənd camaatının sevinc hissi, elə bil o həyəcana dalğa-dalğa gözəl bir coşqunluq yayıb, kəndin bütün ab-havasını dəyişirdi.

Öz musiqiçilər dəstəsi ilə yaxın-uzaq Abşeron kəndlərindəki toyların bir çoxunu idarə edən, məşhur klarnet ustası Cəbrayıl müharibə başlayan gündən ikinci





mərtəbədəki balkonunda xüsusi olaraq mikrofon quraşdırmışdı və cəbhədən gələn hər gözəl xəbərdən sonra balkona çıxıb, gözəl də havalardan birini elə bir şövq ilə çalırdı ki, klarnetin səsi elə bil öz-özünə canlanmış dənizin səsinə qarışıb, bütün kəndə yayılırdı.

## 2.

Gülbala Zübeydə ilə Papaqçı Ağadadaşın yeganə oğlu idi – yeganə oğlu deyəndə ki, ümumiyyətlə, onların yeganə övladı idi və Gülbala cəbhəyə gedəndən sonra Ağadadaş uşağın nigarançılığından özünə yer tapa bilməyən Zübeydəyə təskinlik verməklə məşğul idi, özü isə içində arvadından da betər nigarançılıq çəkirdi. Elə həmin vaxt da Ağadadaş gecə yuxuya getməzdən əvvəl əhd etdi, özü özünə kişi sözü verdi ki, inşallah, Gülbala sağ-salamat qayıtsın, kənddə kim istəsə onun üçün müftə papaq tikəcək.

Ancaq kənddə heç kimin, o cümlədən Ağadadaşla Zübeydənin də xəbəri yox idi ki, onlardan savayı bir nəfər də gecə yerinə uzananda da, səhər duranda da, məktəbdə də ürəyində Allaha yalvarırdı ki, Gülbalaya heç nə olmasın, Gülbala sağ-salamat geri qayıtsın. Bundan Nisənin ən yaxın rəfiqələrinin, hətta 11-ci sinifdə birgə oxuduqları Səriyyənin də xəbəri yox idi və bu sevda dəniz sahilindəki o gözəl Abşeron kəndində təkcə Nisənin ürəyini yaxıb-yandırırdı. Bu elə bir sevda idi ki, Həmid – Anjel romantikasını da bir kənara qoymuşdu – əvvəllər Həmid-Anjel sevgisi barədə fikirləşəndə Nisənin ürəyinə gözəl bir istilik yayılırdı, ancaq indi Həmidlə Anjel də, Parislə Fransa da yaddan çıxmışdı, Nisənin ürəyi ancaq Gülbalaya məxsus idi.

Məsələ burasındaydı ki, hələ keçən il, o zaman ki, Nisə 10-cu sinifdə oxuyurdu və Gülbala da 11-i bitirib, papaqçı dükanında atasına kömək etməyə başlamışdı, on yeddi illik həyatında Nisənin ürəyində ilk dəfə bir sevgi yaranmışdı və bu da ilk dəfə idi ki, Nisə hamıdan gizlətdiyi gündəliyində "Kəpənək" adlı bir şeir yazmışdı, çünki elə bil o sevgi birdən-birə gözəl naxışlarının rəngi bir-birinə qarışmış kəpənək kimi, uçub gəlib onun ürəyinə qonmuşdu – o gözəl kəpənəyin yüngül qanadları necə açılıb-bükülürdüsə, Nisənin də ürəyi eləcə döyünürdü. Nisənin məktəb yolu Gülbalagilin evlərinin qarşısından keçirdi, hərdən də elə olurdu ki, o evdən Gülbalanın tarının səsi gəlirdi və o anlarda məktəbdən evə qayıdan Nisə dünyanın ən gözəl musiqisini eşidirdi, ürəyi də eyniylə o cür döyünürdü.

Elə ki Gülbala cəbhəyə getdi, dörd-beş gündən sonra Nisə daha dözə bilməyib, ürəyinin sirrini Səriyyəyə açdı və Səriyyə:

– Ayzə, nə yaxçı!.. – dedi. – Day bunnan yaxçı nə istəyirsən?! Sevirsən də!.. – Sonra da Nisəyə ürək-dirək verdi. – Bax, sən dedün e, o saat da mənim üreyimə damdı ki, inşallah, sizin toyuvuzda oynıyıceyik! Sağ-salamat qayıdecek Gülbala, Allah qoysa! Sənə deyirəm də, yüz faiz!

Səriyyə Ağakərimin ki, pandemiyaya görə kababxanası kasadlamışdı, yeddinci qızı idi və özündən böyük altı bacısının altısı da bir-bir gözəl ailə qurmuşdular. Yəqin elə buna görə də, Səriyyənin belə əmin-amanlıqla danışmağı elə bil Nisəni bir balaca sakitləşdirirdi, ancaq sonra ayrılırdılar, Nisənin o sakitliyi də uzun çəkmirdi.





## 3.

Ağadadaş öz sənətinin böyük sənətkarı idi, çal papaqdan tutmuş, qulaqlı papağa, cürbəcür kepkalara qədər nə ki kişi baş geyimi var idi, hamısını ən yüksək səviyyədə tikirdi və nə tikirdisə, hər biri onun yaratdığı sənət əsəri idi. Təkcə şlyapa tikmirdi – nəinki kənddə, heç Bakının özündə də daha şlyapa qoyan yox idi. Hərdən televizor ilə göstərilən tarixi filmlərdə, xüsusən Osmanlı padşahlarından danışan türk seriallarında qədim baş geyimlərini görəndə, Ağadadaş fikirləşirdi ki, baş geyimləri də adamlar kimidi, gəlməyi, sonra da birdəfəlik getməyi var, ancaq belə fikirlər onun papaq yaradıcılığına heç vəchlə təsir edə bilmirdi. Bakının özündən də müştərilər gəlib, Ağadadaşa papaq sifariş edirdilər, o cümlədən bir xeyli tanınmış din xadiminin, məşhur xanəndələrin çal papağını da, Dövlət Filarmoniyasınının rəqqasları üçün motal papağı da o tikmişdi. Bu da mat qalmalı bir iş idi ki, televizorda başına papaq qoymuş kimsə görünəndə və o adamı tanıyıb-tanımamağından asılı olmayaraq, Ağadadaş o saat özünün tikdiyi papağı tanıyırdı:

– Alə, baxın e, mənim papağımdır!..

Kənd cavanlarının, onların Bakıdakı dost-tanışlarının da bir çoxunun kepkasını Ağadadaş tikmişdi, çünki hansı təzə kepka dəbə düşürdüsə, bircə dəfə baxmaqla, məşhur Avropa firma kepkalarından da əlasını o tikirdi və bu mənfur COVID-19 bir tuği-lənət olub, müştərilərin də ayağını kəsmişdi. Bir tərəfdən müştəri yoxluğu, o biri tərəfdən də Gülbalanın ayrıca tikiş makinasının kimsəsizliyi, yəni Ağadadaşın dükanda tənha qalması onun ürəyini sıxırdı və gənc çağlarından bu tərəfə, həyatında ilk dəfə idi ki, Ağadadaş öz dükanında darıxırdı.

Bu dükanı Ağadadaşın rəhmətlik atası tikdirmişdi, ömrünün sonuna kimi də burda papaqçılıqla məşğul olmuşdu və Ağadadaş da papaqçılığı bu dükanda atasından öyrənmişdi, indi də burdakı ikinci tikiş makinasının arxasında Gülbala əyləşirdi. Gülbala yeniyetmə vaxtlarından tar çalmağı öyrənmişdi və elə ki məktəbi bitirdi, qaldı iki od arasında: musiqinin dalınca getsin, ya atasının sənətini davam etdirsin? Ağadadaş məsləhət üçün Gülbalayla birlikdə Şakirgilə getdi və Şakir Gülbalanın tar çalmağına diqqətlə qulaq asandan sonra:

– Ağadadaş, – dedi, – uşaq çalmağı öyrənib, özüyçün də pis çalmır, ancaq mən belə başa düşürəm ki, o bu sənətin dalınca getsə, indiki yüzlərlə tar çalandan biri olacaq, onlardan artıq olmayacaq. Sözün düzü belədi. İndi, özün bil.

Ağadadaş:

– Allah atova rəhmət eləsin! – dedi və o vaxtdan da Gülbala bu sənəti atasından öyrənməklə məşğul idi, ancaq hərdən ürəyinə düşəndə tarı qoburundan çıxardıb, evdə çalmağı da var idi.

Həmin Vətən müharibəsi gedən vaxt ki, birdən gecənin yarısı Şakirin klarnetinin səsi qəflətən zilə qalxıb, bütün kəndə yayıldı, onda məlum oldu ki, müharibə qələbə ilə sona çatıb, torpaqlar azad edilib və elə bil ki, Novruz bayramı idi, kəndin camaatı bir-birini təbrik edirdi, bir-birinə gözaydınlığı verirdi, COVID-19-u heç yadına salan və vecinə alan da yox idi. On-on beş gündən sonra da Gülbala sağ-salamat kəndə qayıtdı və elə həmin günün səhəri Ağadadaş vaxtıyla xeyli çətinliklə də olsa, Krımdan gətirtdiyi və xüsusi bir müştəri üçün ehtiyatda saxladığı məşhur qaragül cinsli quzu dərisini çıxardıb, ilk çal papağı





kəndin birinci ağsaqqalı hesab olunan Hacı Müzəffər Ağa üçün tikdi və ona göndərdi.

Kəndin başqa ağsaqqalları da, əlbəttə, özləri durub, gəlib, müftə papaq tikdirməyəcəkdilər, onsuz da onların hamısının başının ölçüsü Ağadadaşın dəftərçəsində səliqə-səhmanla bir-bir yazılmışdı və Ağadadaş daha altı çal papaq tikib, ağsaqqalara göndərdi.

Gülbala ilə Çörəkçi Firuzənin oğlu Atif dost idilər və şükür Allaha ki, Atifin də üzü yaxşılığa doğru gedirdi. Gülbala Atifi yoluxmaq üçün Bakıya gedəndə Ağadadaş ona tapşırdı ki, Atifin də başının ölçüsünü gətirsin və ölçü gələndən sonra yaraşıqlı bir kepka tikib, Çörəkçi Firuzəgilə göndərdi. Bundan sonra da kənd cavanları arasında xəbər yayıldı ki, Papaqçı Ağadadaş hamı üçün müftə papaq tikir və cavanlar, xüsusən də yeniyetmələr kepka üçün növbəyə düzüldülər.

## 4.

Gülbala qayıdandan bir neçə gün sonra birdən kəndə hay düşdü ki, General gəlib, maşını da həmişəki kimi, məktəbin qabağındakı meydançada saxlatdırıb və cavanlar, yeniyetmələr də meydançaya axışıb, Generalın başına yığışdı. General bu kənddə anadan olub, burada böyüyüb boya-başa çatmışdı, orta məktəbi burda bitirmişdi, sonra ailəlikcə Bakıya köçmüşdülər, ancaq bu kəndin doğmalığı və buranın camaatına hörmət-izzəti həmişəlik onun ürəyində idi və aydın məsələdir ki, böyükdən-kiçiyə bütün kənd camaatı da onunla fəxr edirdi.

General əlində portfel tutmuş yavəri ilə birlikdə kənd adamlarının, onlara qoşulmuş uşaqların müşayiəti

ilə gedə-gedə, pişvaza çıxmış camaatla görüşə-görüşə, öpüşə-öpüşə, ayaq saxlayıb, hal-əhval tuta-tuta məhəlləyə çıxmış ağsaqqalların, o cümlədən Hacı Müzəffər Ağanın, ağbirçəklərin xeyir-duasını ala-ala əvvəlcə Çörəkçi Firuzənin təndir dükanına gəldi və gülə-gülə xoş xəbər verdi:

– Salam, ay Firuzə bacı, – dedi. – Gözün aydın olsun, Atif bu gün səhər özü ayağa qalxıb gəzməyə başladı!..

Hələ hospitala getməyə macal tapmamış Çörəkçi Firuzə bir an duruxub yerində dondu, sonra elə bil ətli-əndamlı bir arvad yox, cavan qız uşağı idi, az qala atılıb unlu əlləri ilə Generalı qucaqladı:

– Ay sənə qurban olum! – dedi və sevincindən qəhərlənə-qəhərlənə: – Ay sənə qurban olum! – deyə-deyə Generalın pencəyinə yapışdırdığı unlu barmaq izlərini çırpmağa başladı.

General:

– Narahat olma, ay Firuzə bacı, – dedi, sonra da sinə dolusu nəfəs alıb, yavərinə baxdı: – Səncə, dünyada təndir çörəyinin iyindən gözəl bir şey var?

Cavan yavər elə bil bir az şaşırdı və General özü öz sualına cavab verdi:

– Yox!.. Yoxdu!..

Ordan da General başına toplaşmış adamların müşayiəti ilə birbaşa Ağadadaşın papaq dükanına gəldi və yavərin portfeldən çıxartdığı "Vətən müharibəsi iştirakçısı" medalını öz tikiş makinasının arxasından dik atılan Gülbalanın pencəyinin döşünə taxdı. Yeniyetmələr, cavanlar bu təntənəni telefonla videoya çəkdilər və elə həmin gün də bu video kənd camaatının hamısına yayıldı.





Həmin bazar günü Nisə də öz otağına çəkilib, telefonda Səriyyənin göndərdiyi o videoya baxırdı və Nisənin ürəyi o qədər sevinc və qürur hissi ilə dolurdu ki, hər dəfə təzədən videoya baxanda yanaqlarına bir-iki damcı isti göz yaşı süzülürdü.

General yavəri ilə birlikdə axşamacan kənddə oldu və General ki, hələ gün batmamış klarnet ustası Şakirgilin balkonunda oturub, pürrəngi çay içirdi, Şakirin çaldığı klarnetin dünyanın gözəl işlərindən xəbər verən səsi dənizin səsinə qarışıb, kəndi başına götürdü. Axşam isə General maşına minəndə məlum oldu ki, Çörəkçi Firuzə beş dənə təndir çörəyini Generala, beş dənəsini yavərə, beş dənəsini də sürücüyə pay gətirib, maşına qoyub və Generalın belə şeyləri qətiyyən xoşlamadığını yaxşı bilən sürücü sükan arxasına keçməmişdən əvvəl ona baxdı ki, nə etsin, ancaq General bu dəfə bir söz demədi, gülümsədi, sürücü də arxayın olub, sükan arxasına keçdi.

## 5.

Ağadadaş Gülbala ilə fəxr edirdi, hətta özüylə də fəxr edirdi ki, Gülbalanın atasıdır və evdən çıxıb, dükanına gələnə kimi rastlaşdığı kənd camaatıyla da daxili bir fəxarət hissi ilə salamlaşıb, hal-əhval tuturdu.

Balaəmi Əhsən Gülbalanın şəninə əla bir şeir yazmışdı və o şeir hətta Bakıda qəzetdə də çap olunmuşdu. Nisə ürək eləmirdi ki, özü Nəcəfin qəzet köşkünə gedib, o qəzeti alsın və qəzet almağa Səriyyə getdi. Qəzetçi Nəcəfin qardaşı Ələkbər araqla dostluq edirdi və buna görə də Nəcəf zaman-zaman qanıqara olurdu. Bu dəfə də deyəsən, dilxor vaxtına düşmüşdü və Səriyyə Nisə

üçün o qəzetdən üç-dörd dənə almaq istəyəndə qızın üstünə çımxırdı:

– Bir dənədən artıq olmaz! Başqaları adam döyül?!

Və Səriyyənin gətirdiyi o yeganə qəzeti Nisə tez-tez açıb, daha əzbər bildiyi həmin şeiri təzədən bir də oxuyurdu. İndi Nisənin qürur hissində daha artıq bir hərarət var idi və məsələ burasındaydı ki, Atifin vəziyyəti günü-gündən yaxşılaşırdı, Çörəkçi Firuzə xala da günün birinci yarısı hospitalda ona baş çəkməyə gedirdi, günün ikinci yarısında isə yenə çörək bişirirdi. Gözlənilməz və gözəl bir təsadüf o oldu ki, Nisə təndir çörəyi almaq üçün Firuzə xalanın dükanına gedəndə, orda Gülbala ilə rastlaşmışdı. Nisə nə qədər çalışırdı, cəhd edirdi, amma bu görüş barədə gündəliyinə nəsə yaza bilmirdi, çünki Gülbala onunla elə salamlaşdı, ona elə səmimi, yox, səmimidən də artıq, elə doğma nəzərlərlə baxdı ki, Nisə söz tapa bilmirdi ki, ürəyindəkiləri gündəliyinə köçürsün. Bu işdə Səriyyə də ona heç cürə kömək edə bilmirdi və Səriyyə:

– Sənə demişəm də, ürəyimə damıb, e, damıb, – deyirdi. – Arxeyin olginən, hər şey sənün öz ürəyüncə olacey. Vallah, Həmidlə Anjel yalan olacey sizün yanuvuzda! Görmürsən gündə bir məktub yazıb, göndərir? Anjeli sevir e, buna sözüm yox, ancağ Parisdə darıxır də... Ayzə, istəyirsən sən də Gülbalaya bir məktub yaz, aparım verim ona, hə?

Nisə:

– Yox, mən yaza bilmərəm... – deyirdi.

– Nöşün?

– Yox də, yaza bilmərəm...





Və Generalın o gözəl və unudulmaz gəlişindən sonra Ağadadaş daha artıq dərəcədə cani-dildən və sidq-ürəkdən papaqları tikməyə başladı, papaq həvəskarlarının sayı da xeyli artdı və axırda iş gəlib o yerə çatdı ki, dükanda nə qədər dəri, parça, astarlıq vardısa, hamısı qurtarmışdı. Pandemiyaya görə parça dükanları da bağlı idi və Ağadadaş məcbur oldu Bakıya gedib, tanış börkçü ustalardan əlborcu olaraq bir az parça və astarlıq götürüb gətirsin.

## 6.

Hacı Müzəffər Ağa dünyanın işləri barədə fikirləşəndə, bəzən onun evi, həyəti bu fikirlərə sığmırdı və günün sakit çağlarında Hacı evdən çıxıb, dəniz kənarına gedirdi, orda gəzişirdi. Həmin anlarda Hacıda elə bir hiss yaranırdı ki, elə bil dəniz də onu tanıyır, onun fikrinə-zikrinə aşina olur və bu dəfə də dəniz kənarına gedəndə, qarşı səkidə Ağadadaşın dükanının qabağına üç-dörd yeniyetmənin yığışdığını gördü və ağsaqqalın bu işdən xoşu gəlmədi:

– Ay uşaq, a bala, – dedi. – İnsaf deyilən şey yoxdu süzdə? Alə, bu kişi day söküldü ki!.. Əhdindən keçə bilmir, abırlı adamdı, süzə nə olub? Kişi kastyumunu da söküb, sizə kepka tiksin? Bəs döyül, alə? Hə? Papaq qoyan da, qoymayan da tökülüb gəlürsüz ki, mənə papaq tik. Əyibdi!.. Eşitdüz? Əyibdi!..

Və Hacı Müzəffər Ağanın bu sözlərindən sonra kənd yeniyetmələrinin kepka həyəcanına sərin su səpdilər və elə bil Ağadadaşın tək özü yox, dükanı da bir az dincəldi, ancaq bir-iki gün keçmişdi ki, əvvəlcə araq iyi gəldi, sonra Qəzetçi Nəcəfin qardaşı Ələkbər dükanın açıq qapısından içəri boylandı.

Ələkbərin ürəyi tərtəmiz idi, özü də sakit adam idi, ancaq bu bədbəxt oğlu içən idi və kənd camaatı elə ürəyi təmizliyinə görə də ona dözürdü, özünün də əlindən hər iş gəlirdi: kimin evində elektrik kontakt edirdi, işığı sönürdü, o saat onu çağırırdılar, düzəldirdi, kimin evində krandan, vannadan su axırdı, çağırırdılar, düzəldirdi və sairə bu kimi işlərə yarıyırdı, yaxşı da şahmat oynayırdı, hər halda məəttəl qalmalı bir iş idi ki, samovar çaydanı kimi həmişə dəmdə olan bu bədbəxt oğlu bədbəxtin kənddə uda bilmədiyi adam yox idi. Şahmatı pulla oynayırdı, udurdu, pulu da aparıb verirdi arağa, hərdən də Qəzetçi Nəcəfin tənəsi ona təsir edirdi, içməyi tərgidirdi, ancaq bir müddətdən sonra görürdün ki, yenə şahmat taxtasını qoltuğuna vurub, kənddə gəzə-gəzə şahmat oynamağa müştəri axtarır və onda hamı bilirdi ki, Ələkbər yenə dəmlik aləminin qapısını açıb.

Deməli, əvvəlcə araq iyi gəldi, sonra yenə dəmlik aləmində olan Ələkbər qapıdan içəri boylandı:

– Qədeş, mənimçün də bir dənə kepka tik də, nolar?

Gülbala yenə Atifi hospitalda yoluxmaq üçün Bakıya getmişdi və öz tikiş makinasının arxasında bikar oturmuş Ağadadaş dərindən köks ötürüb:

– Keç içəri, – dedi.

Ələkbər dükana keçdi və əvvəlcə:

– Salam... – dedi, sonra da həmişə cürbəcür parçalar yığılan boş rəfləri gözdən keçirib, belə başa düşdü ki, bu istəyindən bir şey çıxmayacaq.

Ağadadaş:

– Sən də kepka istəyirsən? – soruşdu.

Ələkbər aşkar bir ümidsizliklə:





– Həri də... – dedi.

Ağadadaş zənlə ona baxa-baxa:

– Onda, – dedi, – mənə de ki, Ağadadaş, sən öl, day içməyəciyəm! Heç vaxt! Eşitdün? Heç vaxt!

Ələkbər matdım-matdım ona baxdı:

– Elə beləyçinə deyim?

– Sənə dedim də!..

– Deyim ki, sən öl, day içməyəciyəm?

Ağadadaş başı ilə təsdiq elədi.

Ələkbər dübarə soruşdu:

– Heç vaxt?

Ağadadaş yenə başı ilə təsdiq etdi.

Ələkbər:

– Xudahafiz, qədeş, – dedi. – Mənnik döyül.

Və çönüb dükandan çıxmaq istədi.

Ağadadaş:

– Nöş sənlik döyül, alə? – soruşdu.

Ələkbər ayaq saxlayıb:

– Sənə deyəciyəm sən öl, sonra da təzədən içəciyəm, – dedi. – Mənnik döyül bu, qədeş! Xudahafiz!

Və Ələkbər dükandan çıxa-çıxda Ağadadaş:

– Diyan, alə, – dedi. – Gəl otur burda, başuvun "razmer"ini götürüm.

Və Ələkbər yenə geri çönərək, araq iyi verə-verə kənardakı kürsünü altına çəkib, həvəslə Ağadadaşın qabağında oturdu ki, qədeş onun başının ölçüsünü götürsün və ona yaxşı bir kepka tiksin.

**Elşən Əzim**

# Rəqiblər

Payız günəşi göyün üzündən elə minnətlə baxır ki, elə bil onu kimsə gülümsəməyə məcbur edib. Sonra da naz-qəmzə ilə buludların arxasında gizlənir. Dolu buludlar ipdən asılmış yaş köynək kimi ağır-ağır yellənir. Uçuşan yarpaqların ardınca baxan Çinar və Qovaq ağacları müdrik və səbirli görünsələr də varidatı əlindən alınmış adam kimi məyus ovqatlarını da gizlədə bilmirlər. Kiçik ağaclar və kollar isə oyuncağını itirmiş uşaqtək vurnuxurlar. Bu mənzərəni doyunca izləmkdən zövq alan Lalə müəllimənin qəlbində əsintiyə çevrilən qəribə bir nigaranlıq baş qaldırır. Elə bil bu payızın havası da, rəngləri də əvvəlkilərdən fərqlidir. Sanki 2020-nin payızı nə isə yeni sürprizlər vəd edir. Lalə onsuz da hər payız bir sürprizlə qarşılaşır, neçə illərdir ki, bu hal davam edir. Ali məktəbin birinci kursundan sınamağa başlayıb ömrünün payız sovqatlarını. Bəzən xoş, bəzən də arzuolunmaz hallarla üzləşir hər payız. İndi də





birdən-birə ürəyində həyəcan dolu bir döyüntü əmələ gəlir və bu döyüntü payız küləyinin uğultusuna ritm tutur. "Yenə bu nə həyəncandır ürəyimə doldu? Son vaxtlar səbəbsiz yerə qorxuram, həyəcanlanıram. Allah axırını xeyir eləsin" deyə düşündüyü vaxt kimsə salam verib yeyin addımlarla yanından ötür. Elnur müəllimdir. Elə Lalə üçün iki il əvvəlin xoş olmayan payız sürprizi Elnur müəllim olmuşdu. Məktəbdə siniflərin sayı çoxladığından dərs saatları da çoxalmış, bu səbəbdən yeni dil-ədəbiyyat müəlliminə də ehtiyac yaranmışdı. Müəllimlərin İşə Qəbulu imtahanında yüksək natica göstərən Elnur müəllim də bu qəsəbənin məktəbini seçmiş, necə deyərlər, Lalənin dərslərinə şərik çıxmışdı. Hələ topladığı bal da Lalənin balından çox idi, üstəlik magistr təhsili də almışdı. Bütün bu üstünlüklər Laləni daxilən incitsə də üzə vurmamağa çalışırdı. Məktəbdə dərslərin bölünməsindən elə də narahat deyildi. Əsas məsələ fərdi hazırlığa gələn uşaqların da bir çoxunun Elnur müəllimi seçməsi idi. Lalə düşünürdü ki, insan belə qədirbilməzdir, təzə ay çıxanda köhnəni doğrayıb ulduz qayırırlar. İki gənc müəllim arasında rəqabət günü-gündən artır, hər biri öz üstünlüyünü göstərmək üçün müxtəlif metodiki üsullar düşünür, özünü reklamın ən ilginc məqamlarını axtarırdılar. Lalə Bakı Dövlət Universiteti kimi bir təhsil ocağını bitirdiyini Elnurun isə Gəncədə oxuduğunu tez-tez valideynlərin nəzər və diqqətinə çatdırır, Elnur isə topladığı balın yüksəkliyindən, magistr təhsilinin önəmindən dəm vururdu.

Bu fikrlərin çarpaşıq ovqatıyla yol gedən Lalə yolun tozunu küləyin necə qaldırıb burulğana çevirdiyini də gözdən

qaçırmadı. Ona elə gəldi ki, bu, toz deyil, beynindəki fikir burulğanı, qəlbindəki həyəcan fırtınasıdır. Reklam lövhəsində "hədiyyələr" yazılan mağazanın qarşısından keçəndə yadına düşdü ki, pul yığmaq üçün kassa almalıdır. Mağazada cürbəcür formalarda gipsdən, saxsıdan, şüşədən düzəlmiş kassalar vardı; dəvə, at, fil, göyərçin... "Aha, yenə seçim qarşısında qaldım, zəhləm gedir də, nə isə almaq üçün seçim etməkdən, stresə düşürəm. Kaş hər şeydən yalnız bir növdə, bir formada olaydı". Bu düşüncəylə əvvəlcə "dəvə"ni gözdən keçirdi, sonra "göyərçin"i. "Fil"ə də baxdı, düşündü ki, mənim fil boyda pulum nə gəzir? Öz fikrinə ürəyində güldü də. Qollarını havaya qaldırıb şahə qalxan kürən, səkil "at" deyəsən diqqətini daha çox cəlb etdi. Əsl Qarabağ atıdır. Belə bir atı hansısa rəssamın tablosunda görmüşdü. Əsərdə eynən bu at təsvir olunmuş, arxada isə Şuşa qalası görünürdü. "At muraddır. Elə bunu alım. Bəlkə bu Qarabağ atı heç vaxt görmədiyim ata-baba yurdumda müəllim işləməyimə də vəsilə olacaq. Bəlkə halal müəllim qazancımı bu at kassaya yığıb özümlə Qarabağa aparacam, orada dağılmış evimizi bərpa edəcəm. Ya qismət". Ancaq ağlına başqa bir fikir də gəldi: "bəs pulları nə vaxtsa çıxarmaq üçün atı sındırmalıyam axı, yox əlim gəlməz". Qaytarıb yerinə qoymaq istəyəndə satıcı elə bil qızın ürəyini oxudu:

– Bacı o, fabrişni maldı...

Lalə satıcının sözünü yarımçıq kəsdi:

– Mal deyil atdı.

– O mənada demirəm e, bacı, onu deyirəm ki, əldəqayırma deyil, altında qapağı da var, açarını da verəcəm, pulları çıxarmaq üçün sındırmaq lazım gəlmir.





***

İndi də başqa bir qayğı... Bu dar otqada bu boyda atı hara qoyacaq? Yazı masasının üstü də, rəf də kitab-dəftərlə doludur. Aha rəfin üstü daha yaxşıdır, yox çox qəlbidir, hər dəfə ayağının altına kətil qoymalı olacaq. Eybi yox, bu otaqda at üçün ən urvatlı yer elə rəfin üstüdür. Atı kitab rəfinin üstünə, Azərbaycan və Türkiyə bayraqlarının yanına qoydu.

Gecəni yata bilmədi. Axşam internetdə müharibə anonsları dolaşırdı, sosial şəbəkələr, saytlar "YouTube" kanalları bir-birinin ardınca həyəcanlı xəbərlər verirdilər. Hətta bəziləri bu gecə müharibənin başlaya biləcəyini yazırdı. Səhərə kimi yayılan xəbərləri oxuyur, telefonunda qohum-əqrəbanın, dost-tanışın eyni mövzuda yazdığı mesajlara baxır, gecənin tənhalığında bu xəbərlərin gətirdiyi qorxu ilə çarpışırdı. Bir azdan başa düşdü ki, onu yatmağa qoymayan qorxu da deyil, nə isə başqa bir hisdir. Sanki kirayə qaldığı kiçik otağa sığışmırdı. Hayqırmaq qışqırmaq istəyirdi. Yatmış qonşuları oyatmaq, "yatmaq vaxtı deyil" demək istəyirdi. Saat 05.30-da qəribə bir guppultu səsi gəldi. Pəncərəni açdı. Atəş səsləriydi.

Həyətin ayaq tərəfində yaşayan gənc ailənin kişisi başını qapıdan çölə çıxarıb gözləri bərəlmiş halda qışqırdı:

– Başladıı!!

Ev sahibi sələmçi Şəfi özünü tələm-tələsik həyətə atdı:

– Nə başladı ə?

– Müharibə.

– Nə müharibəsi, ə? Ağlına gələni danışma.

Hamı həyətə çıxmışdı, ağır artilleriyanın səsi aydınca eşidilirdi.

Doğrudan da, müharibə başlamışdı, özü də əsl müharibə...

Başqa vaxtlar tez-tez işə gecikən Lalə bu gün özünü məktəbə hamıdan qabaq çatdırdı. Həmişə qaraqabaq görünən Elnur müəllim də üzündə şən, məğrur bir ifadə ilə məktəbə gəldi. Bugünkü dərslərini əvəz etməyi Lalədən xahiş edib tələsik harasa getdi. Bir neçə saatdan sonra bütün məktəb Elnur müəllimin könüllü orduya yazılaraq cəbhəyə getdiyini bildi.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerləşdiyi binanın qarşısı qələbəlik idi. Gənclər, orta yaşlı adamlar, Qarabağ qaziləri bir-birinidən irəli keçməyə çalışır, sanki hər kəs savaşa o birindən bir az tez çatmağa can atırdı. Elnur müəllim günortaya qədər növbə gözləsə də içəri keçə bilmədi. Səhər evdən bir stəkan çay içib çıxmışdı. Möhkəm aclıq hiss etdi və özünü yaxınlıqdakı ucuz kafelərdən birinə çatdırdı. Çirkli divarlar, sınıq-salxaq masalar, torlu pəncərələr ürək bulandırsa da kababları əla idi. Belə yerlərə daha çox vuranlar gəlir. Cavan bir ata 9-10 yaşlarında iki qızla içəri daxil olanda Elnur təəccübləndi. Qızların hər ikisi mavi gödəkçə, ağ ket geyinmişdi, hər ikisinin gözlərində eynək vardı, çiyinlərində də məktəbli çantası... Bacıları məktəbdə hamı tanıyır və sevirdi. $5^b$ və $6^c$ sinfinin şagirdləri idi. O siniflərə dil-ədəbiyyat dərslərini Lalə desə də hazırlıq üçün Elnurun yanına gəlirdilər. Atanı isə ilk dəfə görürdü. Uşaqların dərsi ilə daim anaları maraqlanır, tez-tez məktəbə gəlir, müəllimlərlə görüşürdü.





Atanın əyin-başı nimdaş, əlləri qabar idi. Uşaqlar onu görməsin deyə Elnur yerini dəyişdi, divara baxan stula keçdi. "Qəribədir, uşaqlarla nahar etmək üçün şəhərdə xeyli rahat, səliqəli yerlər var. Bu adam iki qız uşağını niyə bu kafeyə gətirib?" Bir azdan özü istəməsə də onların söhbətlərini eşitdi. Sən demə, ata ilə ana ayrılıbmış. Ata uşaqlarını hərdən görür, hər görüşlərində də bu kafeyə gətirib doyunca yedirdirmiş.

Elnur bir şiş döymə kabab, salat, bir şüşə qazlı su sifariş etdi. Əvvəl istədi ki, yüz qram araq da içsin, düşündü ki, yox, Səfərbərlik idarəsinə gedəcək, birdən içkili olduğunu bilib aparmazlar.

Xidmətçi qonşu stulda əyləşən atanın və uşaqların sifarişini gətirdi. Bir limonad, bir stəkan da meyvə arağı qoydu masaya. Qızlardan biri ağzına kimi dolu stəkana baxıb soruşdu:

– Ata, bu nədir?

– Sudur, qızım.

İkinci qız soruşdu:

– Ata, limonad ola-ola niyə adi su içirsən?

– Limonad da içəcəm.

Qısa dialoqdan sonra ata qızlarına həvəslə qulluq etməyə başladı. Lülə kababdan bircə loxma öz qabına qoydu, qalanını qızlarının qarşısındakı boşqablara yığdı. Böyük qız:

– Ata, özünə az götürdün, – deyə etiraz etmək istədi.

– Adam atasının əlini geri qaytarmaz, deyə atası cavab verdi.

Bu cavabdan sonra qız dillənə bilmədi. Sonra tikə kabab gəldi. Ata yenə qızlarını yedirtməyə çalışdı və özünə

balaca bir tikə götürdü. Qızların "daha bəsdi, doymuşuq" kimi sözlərinə məhəl qoymurdu, israrla yeməklərini tələb edirdi. Bir çappa arağı başına çəkdi, tez də limonaddan bir qurtum içdi. Yenə böyük qız dilləndi:

– Ata, adamlar niyə araq içən kimi tez limonad içirlər, ya da tələsik ağızlarına nəsə qoyurlar?

Qız sanki bu sualıyla "içdiyinin su deyil, araq olduğunu bilirəm" demək istəyirdi. Bayaqdan dil-dil ötən ata bu suala cavab verə bilmədi. Söhbətin səmtini dəyişdi. Uşaqların anasını soruşdu. Qızlar sevincək anaları haqqında danışdılar. Səsləri sevincdən cingildəyirdi. Bəlkə də elə bilirdilər ki, daha yaxşı danışsalar ata ilə ananın barışmağına səbəb olacaqlar. Atanın gözləri doldu... Pərt halda başını bulayıb əlini cibinə salıb pul çıxartdı, böyük qıza üç "əllilik" verib dedi:

– Biri sənin, biri bacının, biri də ananın. Amma o, əlinizdən almasın ha... Elnur evdə dördüncü şəxsin də olduğunu anladı. Əvvəl elə bildi ki, ögey atadan söhbət gedir, sonra başa düşdü ki, ailənin dağılmasına səbəb olan qayınana var və atanın ondan zəhləsi gedir.

– Bax ona da kabab alıb göndərəcəm, pullarınızı almasın, – deyib xidmətçini səslədi. Bir stəkan da araq istədi. İki şiş lülə kabab da sifariş edib ayrı-ayrı çörəklərin arasına qoyulmasını xahiş etdi. Evə göndərəcəkdi. Hesabı ödəmək üçün ayağa qalxıb kassaya yaxınlaşdı. Böyük qız atanın getdiyini görüb tez bacısının və özünün stəkanlarındakı limonadı onun boş stəkanına doldurdu. Boşqablarındakı kabab tikələrini də onun qabına qoydu. Bacısının qəribə nəzərlərlə baxdığını görüb ona izah etməyə çalışdı:





– Biz doymuşuq, atam az yedi, qoy qalanını o yesin, limonad da içsin, araq içir axı... Ata qayıdıb arağı başına çəkdi, limonaddan da bir qurtum içdi. Qızların qablarını boş görüb:

– Ay mənim qoçaq balalarım, hamısını yedinizmi? Di duraq gedək, – deyib sevincək ayağa qalxdı. Öz boşqabındakı tikələri görmədi.

Elnur da onların ardınca kafedən çıxdı. Elə yolları da eyni səmtə idi. Ata və qızlar qabaqda gedirdilər. Yolayrıcında dayandılar. Ata qızları bir-bir bağrına basdı, sonra ikisini də birdən qucaqladı, kövrəlmişdi, elə bil bu, son görüş, son ayrılıq idi.

Elnur hərbi Səfərbərlik xidmətinin qarşısına çatanda qızların atasını da orda gördü. O da gedirdi.

* * *

Lalənin yaşadığı sakit, hüznlü həyətin halı dəyişmişdi. Əvvəllər pəncərə gözləriylə bir-birindən hal-əhval tutan qarşı-qarşıya, yan-yana otaqların qapıları qələbə xəbərlərinə taybatay açıq idi. Sakinlər də hər gün həyətə toplaşır, müharibənin gedişini öz aralarında müzakirə edirdilər. Elə bil hamı siyasi şərhçi, hərbi ekspert olmuşdu. Günlər bir-birini dəyişkən ovqatla əvəz edirdi. Gah şəhid, gah qələbə xəbərləri gəlir, hər xəbərin özünəməxsus ovqatını bu həyət də daşı, torpağı, pəncərələri, qapıları və adamları ilə yaşayırdı. Ev sahibi Şəfi hər gün çayxanaya gedir, orda yayılan xəbərləri bu həyətə daşıyırdı. Elə bil Şəfi də dəyişmişdi, başqa vaxt ən sevimli məşğuliyyəti pul saymaq olan bu adam da cəbhəyə sovqat aparanların çağırışına hay verir, əlindən gələni etmək istəyirdi. Lalə də öz maaşından yardım fonduna pul keçirmişdi.

Qəsəbə cəbhə bölgəsinə yaxın olduğundan məktəb bağlanmışdı. Elnur müəllimlə bağlı da müxtəlif xəbərlər yayılırdı, gah deyirdilər tankçıdır, gah da rabitəçi. Bir gün isə onun təkbətək bıçaq döyüşünə çıxaraq və bir neçə düşmən əsgərini öldürdüyünü dedilər. Özü də yaralanıb hospitala düşmüş, ancaq yarası yüngül olduğundan israrla yenidən cəbhəyə qayıtmışdı. Deyəsən bu, dəqiq məlumat idi.

Elnur müəllim gedəndən sonra onun hazırlıq məşğələsinə gedən uşaqlar da yenidən Laləyə üz tutmuşdular. Lalə əvvəlcə bu uşaqları qəbul etmək istəməsə də sonra fikrindən daşındı. Həm də düşündü ki, Elnurun uşaqlarını pulsuz hazırlayar. Bu fikrində də sona qədər qalmadı: "yox pul alacam, amma.." Ağlına gələn fikirdən dodaqlarına təbəssüm qondu, gözləri işıqlandı. Adətən, insan xoş məramlı bir xəyala dalanda üzündə belə ifadə yaranır. Və pırıl-pırıl yanan gözləriylə kitab rəfinin üstündəki "Qarabağ atı"na baxdı.

Atası cəbhəyə gedən eynəkli bacılar da Lalənin məşğələsinə gəlirdi. Bir gün bacılar gəlmədi, uşaqlardan biri onların atasının şəhid olduğunu, qızların da dəfn mərasiminə getdiyini dedi. Heç sonrakı günlər də qızlar gəlmədilər.

Qəsəbənin küçələri də savaş havasına köklənmişdi. Bir gün küçələrdən böyük izdihamla şəhid cənazəsi keçir, səhəri gün həmin izdiham şəhərlərin kəndlərin azad olunması xəbərini bayram edirdi. Lalə də hər gün internetdən, televiziyadan Ali Baş Komandanın yeni müjdələrini gözləyirdi. Hər gün öz ata-baba yurdunun, heç vaxt görmədiyi doğma kəndinin də xoş xəbərini eşitmək istəyirdi. Uşaqlığı məcburi köçkün həyatının ən ağır illərinə düşmüşdü, yaxşı geyimi, oyuncağı olmamışdı.





Bəlkə də uşaq vaxtı bu həyatın ağırlığını o qədər də dərk etməmişdi. Tələbə olanda tətil günlərində uşaqlar öz kəndlərinə gedəndə, hər ay kəndi-kəsəyi olan tələbə yoldaşlarına bolluca kənd sovqatları gələndə daha çox hiss etmişdi yurdu-yuvası olmamağın əzabını. İndi xəyallar qurur, kəndlərinin şəkillərdə gördüyü məktəbini gözləri önünə gətirir, o məktəbdə müəllim işləyir, hətta direktor da olurdu.

Oktyabrın sonu uşaqlar ödənişlərini gətirdilər. Lalə öz şagirdlərinin pulunu çantasına yığır, Elnurun şagirdlərinin gətirdiyi pulları isə "Qarabağ atının" üstündəki dəlikdən içəri atırdı. Allah bilir nələr düşünürdü. Bircə Elnurun şəhid olacağını ağlına gətirə bilmirdi. Bu anı yada salanda gözlərini bərk-bərk yumur, elə bil ağlına gələn səhnəni gözləri önündən qovmaq istəyirdi. Bir zamanlar özünün rəqibi kimi gördüyü Elnur indi onun ən yaxın adamına, sirdaşına çevrilmişdi. Xəyallarında onunla söhbət edir, döyüşlərin ağırlığını, müharibənin dəhşətlərini sanki Elnurun özündən eşidirdi. Tez-tez qulağına onun səsi gəlirdi, elə bilirdi ki, azad olunan bütün kəndlədə Elnur döyüşür, torpaqların hər qarışının azad olunmasında o iştirak edir. Bir bölgəni, bir kəndi, bir şəhəri də Elnursuz təsəvvür etmirdi. Amma bilmirdi ki, doğrudan da belədir. Elnur bir müddət şimal cəbhəsində vuruşandan sonra cənub döyüşlərinə atılmış, Şuşaya qədər gedib çıxmışdı. İndi onun sorağı Şuşadan gəlirdi.

* * *

Dekabrın sonunda qəsəbə əhli səhər yuxudan oyandı ki, qar yağıb. Aran yerinə qar yağanda insanlar toy-bayram kimi

qarşılayır. Böyüklər də uşaqlara qoşulub sevinir. Şəfi eyvana çıxıb əlini gözünün üstünə qoydu, gah göyə, gah yerə baxdı:

– Kəraminə şükür, Allah, nur yağdırırsan, – dedi.

Gənc ailənin uşaqlarının səs-küyü həyəti başına götürdü. Evdən əyniyuxa həyətə dağılan uşaqların ardınca düşən ana onlara palto, papaq, əlcək geyindirmək istəsə də uşaqlar ona məhəl qoymadılar. Həyətdə ipdən asılan paltarlar donmuşdu. Uşaqlardan biri əlinə bir cüt çubuq götürüb Şəfinin zivədən asılmış şalvarında "qoşanağara" çalırdı. Lalə yenə pəncərədən bu mənzərəni seyr edirdi. Çamadanlarını yığmışdı, bayram tətilinə evə getməliydi. Evə deyəndə ki, valideynlərinin məskunlaşdığı şəhərə, oradakı uçuq-sökük yataqxanaya.

Elə bu zaman həyətin darvazası dəli kimi şaqqıldadı. Şagirdlərindən biri təngənəfəs içəri atılıb "Elnur müəllim gəlib, axşamdan gəlib!" deyə sevinclə qışqırdı.

Kitab rəfinin üstündəki Qarabağ atı şahə qalxmışdı. Lalənin qulağına at kişnərtisinin səsi gəldi. Bir anlıq düşündü: "Bəs qəbul etməsə..." Bir azca susub yenə də düşünməyə başladı. "Niyə qəbul etməsin ki, qələbə münasibətiylə döyüşçüyə at bağışlayıram. İçində pul olduğunu sonra deyərəm. Qoy elə bilsin ki, sadəcə hədiyyədir". Öz fikrindən xoşu gəldi: "müdrik fikirdir ha!" Ayağının altına kətil qoyub atı rəfin üstündən götürdü.

Beş dəqiqə sonra atı sinəsinə sıxaraq küçə yuxarı Elnurgilə tərəf qaçırdı. Küçənin hər yanında dirəklərdən, evlərin üstündən, hətta işıq xətlərindən asılmış Azərbaycan və Türkiyə bayraqları dörd tərəfi bürüyən qar bəyazlığına bahar əlvanlığı səpirdi.



**Fərhad Kərimli**

# Bir qucaq torpaq

Ovcumdakı torpaq barmaqlarımın arasından süzüldükcə torpaqdan gələn cənnət ətrini qoxlayıb ciyərlərimə çəkirəm. Hər nəfəs aldıqca bu ətri dərindən hiss edib ona qovuşmağımın sevincini daha ürəkdən yaşamaq üçün gözlərimi bərk-bərk yumuram. Gözlərimi sıxdıqca aramla damcılayan göz yaşlarım ovcumdakı torpağa tökülür, cənnət qoxulu vətən torpağına sanki indiyədək qəlbimi didib-dağıdan həsrətin, nisgilin də ətrini qatır.

Gözümü açdım. Taxtadan düzəldilib torpağa perpendikulyar basdırılmış başdaşı bir qədər yana əyilmişdi. Başdaşını sığallayıb ehmalca düzəltdim, toz-torpağa bulaşmış əlimin arxasıyla gözümü sildim. Amma içimdən gələn ağlamağa, sızlamağa mane ola bilmədim. Göz yaşlarım indi də üstümə, torpağa tökülürdü. Daha özümü saxlaya bilmədim, başımı torpağa atıb hönkürtü ilə ağlamağa başladım.

Bura işğaldan təzəcə azad olunmuş Yağlıvənd kəndinin qəbiristanlığı idi. Ermənilər qəbiristanlığı dağıtsa da, xoşbəxtlikdən yerində nəsə tikməmişdilər. Kənd camaatı təxmini bilirdi ki, kimin atasının, kimin anasının, kimin qardaş-bacısının qəbri hardadır. Atam isə dəqiqliklə deyirdi ki, bura qağasının – yəni babamın qəbrinin yeridir. Hər kəs özününkünün qəbrinin baş tərəfinə bir taxta vurub üstünə ölənin adını yazmışdı. Bizim vurduğumuz taxtada belə yazılmışdı: "Sevindik K."

Başımı atıb hönkürtü ilə ağladığım torpaq qağamın qəbrinin yerləşdiyi yer idi. Qəbirdən əsər-əlamət qalmasa da, ermənilərin ötən illər ərzində buranı şumlayıb-şumlamadıqlarından, qəbirləri çıxarıb başlarına nə oyun gətirdiklərindən xəbərimiz olmasa da, təskinlik tapırdıq. Çünki torpaqlar işğal altında olanda ziyarət etməyə bir daşımız belə yox idi, indi isə camaat tam dəqiq olmasa belə təxmin eləmişdi ki, kimin qəbri hardadır. Bu hamı üçün kifayət idi.

Torpaqlar işğaldan azad olunan kimi hamı geri qayıtmasa da, burnunun ucu el-oba üçün göynəyən, doğulub böyüdüyü torpaq gözündə cənnət olan, daim Vətən üçün hər şeyindən keçməyə razı olan adamlar vaxt itirmədən qayıtmışdılar. Ən sevindirici və təsirlisi o idi ki, hamı gələn kimi birinci qəbiristanlığa baş çəkmişdi. Dünən, demək olar ki, hamı öz yaxınının qəbrinin harda olduğunu təxmin etməyə çalışır, əvvəlki günləri yadlarına salıb çox keçməmiş tapır, tapan kimi də dizlərini yerə atıb hönkür-hönkür ağlayırdı. Yaşı yarımı çoxdan keçmiş kişilər siqaret çəkir, çəkib qurtarandan sonra kötüyünü qəbiristanlığa atmır, söndürüb pencəklərinin, şalvarlarının cibinə qoyur, buradan aralaşandan sonra harasa atırdılar.





Dünən elə bizimkilər də – atam, anam, bacılarım və qardaşım, əmilərim və ailələri, mamalarım, bir sözlə, hamı burda idilər. Arvadlar ağlayır, torpağı öz balalarını qucaqlayantək qucaqlayır, Allaha dua və şükür edirdilər. Kişilərin yarısı siqaret çəkir, yarısı da diqqətlə gözlərini qıyaraq bu mənzərəni izləyirdilər. Mənsə lap uzaqdan hamını izləyirdim. Təkcə bizimkiləri yox, qəbiristanlığa gəlmiş bütün camaatı.

Qəbiristanlıqdan kəndə qayıdanda qərara gəldik ki, sabah nənəmin də qəbrini Füzulinin işğaldan hələ onun vəfatından xeyli əvvəl azad olunmuş kəndinin qəbiristanlığından çıxarıb babamın qəbrinin yanında basdıraq. Səhər tezdən biri bildiriş üçün icra hakimiyyətinə, biri maşın dalınca, biri molla dalınca – hərə bir iş üçün getmişdi. Mən isə qağamın qəbrinin üstünə gəlmişdim.

Qağamı ancaq şəkillərdə görmüşdüm. Haqqında təkcə öz övladları yox, bütün qohumları, tanışları, kəndçiləri danışırdı. Bircə nəfər də mənfi rəy bildirməmişdi. Deyilənlərə görə, bütün kənd camaatı deyirmiş ki, hamı bir yana, qağam bir yana. Çox ağır kişi olubmuş. Çoxdanışan da olmayıb. Ailədə, qohum-əqrəbada sözünü yerə salan, sözünün üstünə söz deyən, sözünü eşitməyən adam olmayıb. Evə gəlməmişdən əvvəl atın nalının səsinə bütün evdəkilər qaçıb çıxarmış çölə. Evə çatmağına hələ dəqiqələr qalsa da, heç kim yerindən tərpənməz, gəlib çatan kimi də oğlunun biri atın başın tutar, biri düşməsinə kömək eləyər, o biri atın yəhərini alıb atı gəzdirər, başqası da su gətirərmiş ki, əlin yusun. Bütün kənd camaatı onu görən kimi söhbətlərinə ara verər, içəri daxil olan kimi ayağa durarmışlar.

Qağamı təkcə bu xüsusiyyətlərinə görə çox istəmirdim. Bir dəfə qış sərt gəldiyinə görə dostu 50 qoyununu qağamın sürüsünə qatıb ki, bu qışdan çıxarda bilsin. Qağam da etiraz eləməyib. Bədbəxtlikdən dostunun qoyunun 30-a yaxını qışda qırılıb. Yaz qabağı qağam 80 qoyun-quzu təhvil verib dostuna ki, 50 baş sən vermişdin, 30 baş quzu da bu qış doğulub. Dostu heç nə demədən sürünü qatıb qabağına aparıb. Bir neçə gündən sonra geri qayıdıb ki, bəs bu qoyunun çoxu heç mənim deyil, dəyişik düşübsə, heç nə olmaz. Mən tanıyıram, icazə ver dəyişim. Qağam da məsələni açıb danışıb ki, sənin 30 qoyunun qırılıb. Mən də əvəzində öz qoyunlarımı verdim. Dostu narazılıq eləyib ki, olmaz belə. Qırılıb-qırılıb də, canın sağ olsun. Öz qoyunlarını götür, heç nə olmaz. Qağam razılaşmayıb. Dostu nə qədər təkid eləsə də, mümkün olmayıb. Sırf belə bir kişi olduğu üçün qağam mənim üçün böyük adamdır.

İndi dünyanın ən cənnət torpağı olan Yağlıvəndin ən cənnət torpağı, mənimçün, elə bu qəbiristanlıqdır. Çünki bu torpaq altında yatan bütün kişilər mərd, qadınlar comərd adamlardı.

Ağlayıb doydum deyəsən. Ya huşumu itirmişdim, ya özümdən getmişdim, nə idisə, özümə gəldim. Başımı qaldıranda qarşımda balaca bir qız dayanmışdı. Ona baxdığımı görüb gülümsəməyə, parıldayan gözləri ilə sanki öz kiçik ürəyindəki sevgidən mənə də pay verməyə çalışırdı. Qızı ilk dəfə görsəm də, tanıyırdım. İşğal vaxtı ermənilər saçından asdığı qız idi. Qızın saçlarını dibindən ucuna doğru izləməyə başladım. Çiyinlərinə çatanda gözlərim qeyri-ixtiyari arxaya sataşdı. Arxadan bizə tərəf





gələn xalanı da ilk dəfə görsəm də, tanıdım. Qoltuğuna vurduğu torba ilə bazardan nəsə almağa gedəndə ermənilərin atdığı bomba ilə bir qolu dirsəkdən yuxarı qırılıb yerə düşən Quba xala idi. Qırılmış qolunu qoltuğuna vurub gəlmişdi. Ətrafa nəzər saldıqca gördüm ki, burda tək deyilmişəm. Bir az aralıdan axsaya-axsaya gələn Mahmud idi. Mahmud qaçaqaç vaxtı yaralandığı üçün atası belinə alıb aparırmış. Mahmud görüb ki, atası onu da apardığı üçün ləngiyir, belə getsə, ermənilər gəlib çatacaq. Anası, bacıları, balaca qardaşı da əsir düşməmək üçün özünü atır atasının belindən yerə və atasına qışqırır ki, məni qoyun gedin. Atası nə qədər oğlunu aparmaq istəsə də, oğlu deyir ki, gələn deyiləm, get. Mənə görə hamınız əsir düşməyin. Atası məcbur olub getmək istəyir. Birdən dayanıb geri dönür. Oğlu hələ sağ olduğu üçün ermənilər onun başına min oyun gətirə bilərdilər. İşgəncələrdən sonra onsuz da öldürəcəkdilər. Bu düşüncələrlə çiynindəki tüfəngi aşırıb oğlunu nişan alır. Mahmud da atasının niyyətini başa düşüb gözlərini yumur... Atəş... Mahmudun yanında gələn isə ermənilərin əsir götürdükləri, daha sonra insanın dərisi olmadan neçə saniyə yaşaya biləcəyini öyrənmək üçün dərisini soyduqları qadın idi. Onun yanındakı barmaqlarını bir-bir kəsib ağzına saldıqları kişi idi. Onlardan sağda isə bütün camaatı çıxarıb özü kənddə qalan, son gülləsinə qədər vuruşan, daha sonra ermənilərin əlinə keçməmək üçün son gülləsini öz başına vuran mərd döyüşçü idi. Daha neçə-neçə dünyanın ən iztirablı ölümünü dadan insanlar idilər. Onlar yaxınlaşdıqca mən torpağa batırdım sanki. Damağımda düyünlənib qalan nə idisə, udquna bilmirdim. Əllərim titrəyir, dişlərim şaqqıldayır,

ürəyim partlayacaq kimi döyünürdü. Birdən kimsə əlini çiynimə qoydu. Qeyri-ixtiyari çönəndə günün qabağını enli kürəyi ilə alan, əsalətli baxışları, nəvazişli gülümsəməsi, iftixarlı duruşu ilə mənə baxan şəhid general Polad Həşimovu gördüm. Görməyimlə ölməyim bir oldu. Buna ona görə ölmək deyirəm ki, keçirdiyim hissləri ifadə edəcək başqa bir söz, başqa bir termin, başqa bir ifadə tapa bilmirdim. Bu yerdə sanki dünya öz oxu ətrafında fırlanmağa ara vermiş, çaylar axmağı, dənizlər coşmağı, küləklər əsməyi, buludlar yağmağı dayandırmışdı. Təkcə fiziki dünyam yox, mənəvi dünyam da dayanmışdı. Sanki Dostoyevski heç zaman qumar oynamamış, Şekspir "Hamlet"i yazmamış, Üzeyir Hacıbəyli "Koroğlu" operasını bəstələməmişdi. Çünki ruhumu cuşa gətirən bunlar idi və indi bunlar yox idisə, deməli, ruhum da yox idi. Polad Həşimov məni qaldırıb iki əli ilə çiyinlərimdən tutdu. Ətrafdakılar getdikcə yaxınlaşır, dövrəmizdə dairəvi şəkildə sıxlaşırdılar. Polad Həşimovun qarşısında tir-tir titrəsəm də, bir tərəfdən də onu qucaqlamaq, bərk-bərk boynuna sarılmaq, Vətən qoxuyan ətrini sinəmə sıxıb ağlamaq istəyirdim. Ağlamaq... Ruhum bədənimi tərk edənə qədər ağlayıb dərin yuxuya getmək... Çiyinlərimdən sıxan kimi bu yuxudan ayıldım. Ətrafa nəzər salıb həmin insanları göstərdi və sözə başladı:

– Ağlama, daha ağlamaq yox, gülmək vaxtıdır. Bunca ağlamaq yetər. Torpaqlarımız azad olundu, düşmən məhv edildi, – deyib sağ əlinin baş barmağıyla gözümdən süzülüb yanaqlarıma axan göz yaşımı sildi, – Bu insanları görürsən? – deyə mərhəmət və qeyrət dolu baxışlarla yenə də ətrafı süzdü, – bu insanların indiyə qədər ruhları





bədənlərindən ayrılmamışdı, ruh ayrılmayanda isə insan ölmür. Onlar ölməmişdilər. Onlar neçə illər idi ki, bizi, sizi gözləyirdilər. Torpaqları azad edib düşməni məğlub etdiyimiz, onların qisasını aldığımız, ruhlarını şad etdiyimiz günü gözləyirdilər. Hər gecə ruhları bədənlərindən ayrılmaq istəsə də, alınmamış qisasımız buna imkan vermirdi. Hər gecə onların ruhu öz sahiblərinə min bir əzab yaşadır, olmazın məşəqqətlərini çəkdirirdi. Bu gün isə ordumuz min illərdir var olan dünyanın ən gözəl qələbəsini qazanaraq onların da ruhunu azadlığa qovuşdurdu.

Sağ əli ilə çiynimə qayğıkeşliklə 3 dəfə vurub aralaşmaq istəyirdi ki, özümü saxlaya bilməyib onu özümə tərəf çəkdim və möhkəmcə qucaqladım. Gözlərimi bərk-bərk yumdum, içimdən gələn ağlamağa, sızlamağa mane ola bilmədim. Göz yaşlarım indi də cənab generalın üstünə tökülürdü. İçimdən gələn ağlamağı dayandıra bilmədim, maneəsiz olduğu üçün də hönkürtüyə çevrildi. Huşumu itirməyə doğru gedirdim. Daha özümü saxlamadım, daha da möhkəm qucaqlayıb hönkürtü ilə ağlamağa başladım. Ağlayıb doydum deyəsən. Ya huşumu itirmişdim, ya özümdən getmişdim, nə idisə, özümə gəldim. Başımı qaldıranda qarşımda atam dayanmışdı. Ətrafda da əmilərim, qohumlarım. Arxada da böyük maşın. Nənəmi gətirmişdilər...

**Fəridə Zero**

# Durnaların lənəti

*"Uşaqlar qurbağaları əylənmək üçün daşlayırlar, amma..."*

Qırmızımtıl-çəhrayı üfüq xətti boyunca durna qatarı düzülmüşdü. Axşamın enməkdə olan toranlığında bu mənzərə məni kədərləndirir, keçmiş, qayğısız uşaqlıq illərimi xatırladırdı.

Axşamlar işıq sönəndə kerosin lampasının divara düşən kölgəsində anam əllərini birləşdirir, yellədir, əllərinin divardakı kölgəsi quş kimi çırpınırdı. Boz, soyuq, maraqsız payız axşamlarında anamın əllərinin kölgəsi bizi əyləndirir, güldürür, yavaş-yavaş mürgülədirdi.

– Buna bax indi, – səsə çevrildim.

Qarabəniz, çəlimsiz, üst-başı mazut içində olan traktorçu oğlan məndən bir qədər aralıda dayanmışdı. Onu dünən də burda görmüşdüm. Evin yanındakı köhnə qarajda traktorların böyür-başında hərlənirdi.

Çevrilib ona baxır, nə deyəcəyini gözləyirdim. Oğlan əyilib yerdən bir daş götürdü və daşı tərsinə çevirib yerinə





qoydu. Əlini gözünün üstündə kölgələyib, sağ əlinin şəhadət barmağını üfüqə tuşladı.

Qeyri-iradi onun göstərdiyi istiqamətə döndüm. Bayaq üfüq boyu qatarlanmış durnalar indi dovğa qazanı kimi qaynayır, havada qarışıq şəkildə, dairəvi çevrə cızırdı. Nə baş verdiyini anlamadan yenidən oğlanın üzünə baxdım. Gülümsəyirdi. Qapqara mazutun, qarabəniz sifətin içindəki gözləri kerosin lampası kimi parıldayırdı. Yenidən əyilib daşı götürdü və çevirib yerinə qoydu.

Tez üfüqə boylandım. Dairəvi durna çevrəsi fırlanıbfırlanıb, qəfildən ipə düzüldü sanki. Yollarına davam etdilər.

Məəttəl qalmışdım. Oğlan gözüylə daşa işarə edib "Sən də yoxla" – dedi.

Böyür-başıma boylandım. Yolun kənarında torpağa batmış yumru daşlardan birini götürüb tərsinə çevirib atdım və dərhal durnalara boylandım. İpə düzülmüş durnalar yenə qaynaşmağa, dairəvi şəkil almağa başladılar. Sevinc qarışıq heyrət duyğusuna bürünmüşdüm. Tez əyilib daşı çevirdim və əvvəlki vəziyyətinə qaytardım. Bir neçə saniyə sonra durna qatarı üfüqdə yenidən düz xətt boyunca düzüldü.

– Amma durnaların lənəti tutacaq bizi, biləsən, – oğlan əllərini cibinə salıb sakitcə uzaqlaşdı.

* * *

Anamın xəstəliyi yenidən şiddətlənmişdi. Qanda şəkərin səviyyəsi qalxır, müalicə, iynə-dərman kömək etmirdi. Bu şoğərib mərəz hər nə idisə şəhərə köçəndən düşmüşdü anamın canına. Yazıq qadın illərdi xəstəxanalara, ora-bura gedib-gəlməkdən birtəhər olmuşdu.

İndi də bu virus başlayandan qorxudan hamı evlərə tıxılıb qalmış, evdən bayıra çıxa bilməyən anamın əsəbləri tamam pozulmuşdu. Axırda həkimi demişdi ki, havasını dəyişmək ona yaxşı təsir edər.

İlk ağlagələn yer kənd, köhnə ocağımız, ata evimiz olmuşdu. Qardaşım çoxdan evlənib ailə-uşağa qarışdığı, şəhərdə işlədiyi üçün anamla mən gələsi olmuşdum.

Yayın bürküsü yavaş-yavaş seyrəlmiş, havanın beli sınmışdı. Sentyabr yenicə girmişdi.

Kəndə gəldiyimiz vur-tut dörd gün olsa da, anamda ciddi dəyişiklik hiss edirdim. Deyəsən, həkim haqlı idi. Kənd anama düşmüşdü. Bilmirəm, bunda havanınmı payı çox idi, ya illərlə həsrətini çəkdiyi ata yurdunun, qohum-qonşusu ilə yenidən görüşməsininmi, amma hər nə idisə anamın çiçəyi çırtlamışdı. Gəldiyimiz günün səhəri qardaşı uşaqlarını başına yığıb kol-kos basmış həyət-bacanı təmizləməyə, bağın mal-heyvan dağıtmış çəpərlərini düzəltməyə başlamışdı.

Mənsə darıxırdım. Dörd gün mənə dörd il kimi gəlirdi. Məşğul olmağa heç nə tapmırdım. Bir-iki dəfə köhnə televizoru açmağa çalışsam da, həyətdəki trubaya bağlanmış antenanı küləyin çoxdan sıradan çıxartdığın, trubanın pas atdığını gördüm.

Hərdən həyətdə kol-kos kəsib ağac sürüyən, yer belləyən uşaqlara yaxınlaşsam da, uzun və manikürlü dırnaqlarımla toz-torpağa, kol-kosa toxunmaq gəlmirdi içimdən. Yenicə düzəltdirib gəlmişdim, əllərimə, dırnaqlarıma bir şey olsa bu Allahın unutduğu kənddə necə düzəldəcəkdim onları?

İyirmi il öncə bu kənddən çıxanda altı yaşlı uşaq idim. Atam Neft daşlarında işə düzəlmişdi. Ailəsini də özü ilə





aparırdı. Qardaşım sevincək olsa da, mən sevinmirdim. Əl-ayaq qabqaran anama qoşulub xısın-xısın ağladığımızı xatırlayıram. Anam kimi mən də ömrümün bu kənddə keçdiyini düşünür, dünyamın bu kənddən ibarət olduğunu sanırdım. "Şəhər" sözü mənə o qədər uzaq, qəribə, qorxulu gəlirdi ki. Uşaq ağlımla ağaclardan asdığımız yelləncəklərin, qoz, tut, heyva ağaclarının, qırmızıyanaq, uzun hörüklü qohum-qonşu uşaqlarının ayrılığı mənə ağır gəlirdi. Qardaşım deyirdi ki, şəhərdə bu yelləncəklərdən daha gözəlləri var. Orda qızlar da oğlanlar kimi şalvar geyinir, ordakı ağaclar bizim ağaclardan daha gözəldir və evlər üst-üstə tikilib...

Bircə ay çəkdi. Bir aydan sonra şəhərin səs-küyü, maşınları, binaları, parkları, yelləncəkləri başımı necə qatdısa... Hər şeyi və hamını unutdum. Unutdum və şəhərli kimi böyüdüm.

Kəndin bircə müsbət tərəfi o idi ki, burda maska taxmağa məcbur deyildin. Koronanın vahiməsindən uzaq, sakit, səksəksiz həyat var idi burda. Di gəl, darıxırdım. Və ən pisi çantamda gətirdiyim siqaret tükənmək üzrə idi. Dörd dənə qalmışdı. Bitəndə neyləyəcəkdim? Dükandan ala bilməzdim, hamı maraqlanacaqdı! Axı evdə anamla mən qalırdım, kimə alırdım siqareti? Anamın mənə görə narahatlıq yaşamasını, söz-söhbət olmasını istəmirdim. Özümü çarəsiz dərdə düşmüş insan kimi kədərli hiss edirdim.

Mənasız və darıxdırıcı günlər idi. Zaman keçmək bilmirdi.

Bağı dolanıb çəpərin qurtaracağına gəldim. Çəpəri əməlli-başlı təmir etmişdilər. Həyət-bacaya həyat əlaməti

qayıtmışdı. Boynumu uzadıb qaraja tərəf boylandım. Bir neçə traktor dayanmışdı. Traktorlardan birinin altında adam uzanmışdı. Ayaqqabıları görünürdü. Deyəsən, dünənki oğlan idi. Yerdən bir daş götürüb ona atdım. Daş ayaqqabısına dəydi. Oğlandan qəribə səs çıxdı. Deyəsən, başını qaldırıb nəyəsə çırpmışdı. Gülməkdən özümü zorla saxlayırdım. Boynumu qısıb çəpərin arxasında gizləndim. Oğlan traktorun altından çıxıb döyükə-döyükə ətrafa boylandı. Başımı qaldırıb astaca "şşşt!" elədim. Oğlan səsə boylanıb kol-kosun arxasında məni gördü və yaxınlaşdı:

– Xumar?

– Adımı hardan bilirsən? – təəccüblə ona baxdım.

– Anam deyib.

– Hə? – nə deyəcəyimi bilmədim.

Oğlan çəpərin o tayındakı qovaq ağacına söykənib düz gözlərimin içinə baxa-baxa siqaret yandırdı. Ətrafa boylandım, heç kim gözə dəymirdi. Şər qarışmaq üzrə idi. Bir qədər tərəddüddən sonra:

– Mən də istəyirəm, – deyə qəfildən dilləndim və mən də düz onun gözlərinin içinə baxdım.

– Nə? – oğlan çaşqınlıq içində idi.

– Siqaret. Birini də mənə yandır.

Təəccüblü gözlərini gözümdən çəkmədən cibindəki qutudan bir siqaret çıxardı, dodaqlarına yaxınlaşdırdı, o biri əlində tutduğu siqaretin közüylə yandırdı və itaətkar şəkildə çəpərin üstündən mənə uzatdı. Əli qapqara mazut içində, dırnaqları çirkli idi. Siqareti uzadanda utanırmış kimi əlini tez geri çəkib cibinə saldı.

Siqareti qapan kimi dodaqlarıma yaxınlaşdırdım. Qəribədir, az öncə bu mazutlu oğlanın dodaqlarına dəyən





siqaretdən iyrənmədim. Çəpərin arxasında gizlənib siqareti çəkdim. Oğlan iki əli cibində, qovağa söykənib heyranlıqla mənə baxırdı.

– Pul versəm, mənə də siqaret alarsan? Amma heç kim bilməsin.

– Hansından çəkirsən?

– "Vinston-slim". Burda tapılar?

– Bilmirəm, baxaram. Burda ucuz siqaretlər olur.

– Dayan, gəlirəm, pul gətirim.

– Lazım deyil, Xumar.

İkinci dəfə idi onun dilindən öz adımı eşidirdim. Min ilin tanışı kimi çox səmimi deyirdi. Ona məhəl qoymadan evə tərəf qaçdım.

Geri qayıdanda çəpərin o üzündə heç kim yox idi. Məni gözləməyib getmişdi. Ovcumda sıxdığım iyirmi manata baxa-baxa qaldım. Heyf. Ümidlənmişdim. Boğazımda bir az əvvəl çəkdiyim ucuz siqaretin acı tüstüsü qalmışdı. Pulu cibimə dürtüb kor-peşman evə qayıtdım.

* * *

Ertəsi günün axşamı bağı bir neçə dəfə dolanıb çəpərin qurtaracağına getmiş, qaraja boylanmışdım. Bir neçə nəfər traktorların yan-yörəsində dolanır, mazut tökür, təkər düzəldirdi. Mənim qaraqaş oğlanım gözə dəymirdi.

Həyatdə uşaqların asdığı yelləncəkdə oturub rəfiqəmlə yazışırdım. Durna əhvalatını və dünənki siqaret söhbətini ona danışıb, gülürdüm. Oğlanı ələ salır, üst-başının, əllərinin çirkindən danışırdım. Rəfiqəm də gülə-gülə səs atır, "səni o oğlana verəcəm" deyib məni cinləndirirdi.

Birdən qaraj tərəfdən traktor səsi eşidildi. Bir qədər dinşədim. Deyəsən, traktor qaraja yaxınlaşırdı. Yelləncəkdən düşüb telefonu cibimə basdım və qaraja tərəf qaçdım.

Çəpərə çatanda kolların birindən asılıb, içəriyə tərəf sallanmış qara sellofan torba gördüm. Sakitcə yola boylandım. Qarajda bir neçə nəfər vardı. Qaraqaş oğlan da burda idi. Sellofan torbanı astaca koldan çıxarıb açdım. İçində üç qutu adını ilk dəfə gördüyüm siqaret, üç dənə plitka şokolad vardı. Boynumu uzadıb baxdım. Qaraqaş qaraj tərəfdən boylanırdı. Məni görən kimi əl işarəsi ilə "get" dedi. Başımı "yox" mənasında tərpədib pişik kimi ona baxdım. Təxminən on dəqiqə gözlədim. Öz aralarında nəsə danışırdılar. Qaraqaş hərdən baxır, hələ də burda olduğumu gördükcə başını yelləyirdi.

Axır, kişiləri yola saldı. Ətrafa boylana-boylana çəpərə yaxınlaşdı və qovaq ağacına söykəndi.

– Bunlar çoxdur. Dünən sənə məni gözlə deməmişdim?

– Başqa siqaret tapmadım, bunları rayondan aldım bu gün. Siqaret qəhətə çıxıb, deyəsən, müharibə başlayacaq.

– Necə yəni? Müharibənin siqaretlə nə əlaqəsi? – təəccüblə soruşdum.

– Qalın siqaretlər yoxa çıxıb mağazalardan. Naziklər də azalıb. Müharibəyə hazırlaşanda siqaret istehsal edən fabriklərdə güllə hazırlayırlar. Bunları çək, yollar açılsa, Gürcüstandan siqaret gətirəcəm sənə.

Heç nə başa düşmədim; açığı mənə maraqlı da deyildi. Onsuz da kənddə həmişə belə qəribə şayiələr yayılırdı. Siqaret zavodu hara, güllə istehsalı hara?! Qucağımda üç qutu siqaret vardı, qənaətlə işlətsəm düz bir ay çatardı.





– Şokoladlara görə çox sağ ol. Xahiş edirəm, gözlə pulunu gətirim. Yoxsa götürməyəcəm.

– Artıq götürmüsən, – oğlan güldü.

– Burda gözlə məni, yaxşı? Bax getsən, bir də heç nə istəməyəcəm səndən.

– Yaxşı, – oğlan hiyləgər təbəssümlə baxırdı.

– Beş dəqiqəyə gəlirəm, – deyib çevrildim. Sonra dayanıb geri döndüm və çəpərə yaxınlaşdım.

Oğlan sakitcə mənə baxırdı.

– Yaxınlaşa bilərsən? Söz deyəcəm sənə.

Oğlan ehtiyatla çəpərin üstündən mənə tərəf əyildi. Mən qəfildən boynumu uzatdım və onun yanağından astaca öpüb evə tərəf qaçdım. Burnuma mazut qoxusu dolmuşdu.

Bir neçə dəqiqə sonra geri qayıdanda o yox idi. Yenə gözləməyib getmişdi. Pul yenə ovcumda qaldı.

O gecə saatlarla rəfiqəmlə bunu danışıb-güldük. Rəfiqəm elə bir oğlanı öpdüyümə inana bilmirdi. Heç özüm də inanmırdım. Bəlkə də, ömründə ilk dəfə idi bir qız onu öpürdü. Rəfiqəm deyirdi, o oğlan indi bir ay üzünü yumaz.

Bunu niyə etdiyimi bilmirdim. Heç bir hissim olmadan öpmüşdüm onu. Heç təşəkkür öpüşü də deyildi. Sırf əyləncə üçün...

* * *

Virus söz-söhbəti səngimişdi. İndi bütün xəbərlərdə ancaq bir söz oxuya bilirdin: "Müharibə!" Səssiz-sədasız qəfildən başlamışdı müharibə. Və qəribəsi bu idi ki, heç kim qorxmurdu. Əksinə, hamı sevinc, həyəcan içində idi.

Hər yerdə "Qarabağ Azərbaycandır!" sədaları yüksəlirdi. Kəndin bütün oğlanları dəstə-dəstə rayon mərkəzinə, çağırış bölməsinə axışır, könüllü cəbhəyə yazılırdı. Düzü, mənim müharibə haqda konkret bir fikrim yox idi. Müharibə mənim üçün yalnız ölüm demək idi. Çox insan öləcəkdi...

Axşamüstü yenə günlərdir görüş yerinə çevirdiyim çəpərin dibinə getdim. Sabir, – artıq onun adını öyrənmişdim, – qarajda eşələnirdi. Astaca "şştt" deyə səsləndim. Ətrafa boylana-boylana mənə yaxınlaşdı. Onu öpəndən bəri məndən utanırdı. Gözlərimin içinə baxmırdı.

– Necəsən? – deyə təbəssümlə dilləndim.

– Yaxşı, sən necəsən?

– Sən də getmişdin?

– Hara?

– Könüllü yazılmağa. Müharibəyə gedəcəksən?

– Gedim? – gözlərimin içinə baxdı, nəhayət.

Bir anlıq duruxdum. Mən ondan cavab gözləyərkən indi özüm cavab axtarmalı olmuşdum.

– Hamı gedir də. Sənin nəyin əskikdir? – gülümsəməyə çalışdım.

– Yaxşı, mən gedim. Anamı evə gətirməliyəm.

– Yaxşı, sağ ol, mən də qaçdım.

– Xumar, – arxadan astaca məni səslədi.

Çevrilib ayaq saxladım və nə deyəcəyini gözlədim.

– Getsəm, mən gəlincə gözləyərsən burda?

Nə dediyini başa düşmədim.

– Hara?

– Müharibəyə. Getsəm, qayıdana qədər gözləyərsən burda?

– Bəs qayıtmasan? – gülə-gülə dilləndim.





– Heç nə. Qayıtmasam, gedərsən.

Nə deyəcəyimi bilmədiyim üçün çevrildim və evə tərəf addımladım. Arxadan yenə adımı səsləsə də, eşitməzliyə vurdum.

Həmin gecə yenə rəfiqəmlə bu hadisəyə xeyli güldük. Rəfiqəm deyirdi, o oğlan sənə vurulub, yazıqdır. Daha ümid vermə ona. Sabah-birigün çıxıb gedəcəksən, oğlan neyləyəcək? Nə deyəcəksən? Deyəcəksən, bağışla, mən darıxdığım üçün əylənirdim?

O gecə yata bilmədim. Sinəmin altında ağırlıq hiss edirdim. Sanki nəsə oğurlamışdım, ya da nəyi isə salıb sındırmışdım. İlk dəfə idi özümü belə nigaran və qəribə hiss edirdim.

* * *

Sonrakı gün qarajda onu görmədim. Ondan sonrakı gün də yox idi.

Və daha sonrakı günlərin heç birində Sabir yox idi. Döyüşə yollanmışdı. Könüllü.

İçimdə qəribə bir əminlik, narahatlıq və kədər vardı. Sanki onu bir daha burda, qarajda, hətta bir daha heç yerdə görməyəcəyimi hiss edirdim.

Kəndin uşaqları könüllü-könülsüz müharibəyə yollanmışdılar. Artıq iki həftə idi döyüşlər davam edirdi. Şəhid və zəfər xəbərləri bir-birinə qarışmışdı. Bütün ölkə bir nəfər kimi birləşib, bu qanlı və şanlı günlərdən üzüağ çıxmaq arzusuyla yaşayırdı.

Üçüncü həftənin ikinci günü kəndə ilk qara xəbər yayıldı. Şəhidimiz vardı. Düz dörd nəfər. Kənd bir-birinə

dəymişdi. Ağlayan qadın səsləri, sirenalar kəndi başına götürmüşdü. Bayraqlara bürünmüş uşaqlar "Şəhidlər ölməz!" deyə qışqıra-qışqıra yollarda təpik döyür, bütün evlərin, talvarların üstündə ay-ulduzlu bayraqlar dalğalanırdı.

...Çəpərin dibində yerə çöküb başımı əllərimin arasına almışdım. Göz yaşları içində boğulurdum. Şəhidlərdən biri Sabir idi. İnana bilmirdim. Tez-tez qaraja tərəf boylanır, Allaha yalvarırdım ki, yalan olsun. Kaş Sabir yenə ordan mənə "get" – deyəydi. "Get" yox, lap elə "rədd ol" deyəydi. Beş dəfə, on dəfə, yüz dəfə baxdım bəlkə. Amma Sabir yox idi. Günlər öncədən hiss etdiyim kimi bir də heç vaxt olmayacaqdı...

Hamı bir-birinə qoşulub müharibəyə dözməyə, şəhidlərə səbir etməyə, zəfərə sevinməyə çalışırdı. Qadınlar bütün gün ağlaşır, oğlanlar bir ucdan cəbhəyə yollanırdı. Kəndə ara-sıra yenə şəhid xəbərləri gəlirdi.

Günlərdir evdən bayıra çıxmır, telefonu söndürüb yatırdım. Hər şeyin yuxu olduğuna inandırmaq istəyirdim özümü. Hər dəfə bu ümidlə yatırdım.

Qaraja tərəf gedə bilmirdim. Çantamda bir neçə qutu siqaret, şokolad və saqqızlar vardı. Heç birinə toxunmaq istəmirdim.

Neçənci gün olduğunu bilmirdim. Yerimdə bir xeyli uzanandan sonra durub otaqdan çıxdım. Anam bir dəstə qadınla aynabənddə söhbət edirdi. Pəncərəyə söykənib onlara qulaq asmağa başladım:

– Deyir, cibindən bir kağız çıxıb baxtıqaranın. Yazıbmış ki, sənə ümid vermişdimsə, məni bağışla. Bir də böyük "X" hərfi yazılıbmış kağızın küncünə.





– Kimin, Bəsirə xala? – qeyri-ixtiyari, həyəcanla soruşdum.

Səsim arvadları diksindirdi. Burda olduğumdan xəbərsiz idilər, deyəsən.

– Sabirin, ağrın alım, Surayanın baxtıqarasının, – qadın dəsmalı gözünə sıxıb hönkürdü, – görəsən, hansı yığvalsız qız imiş Sabirin ümid verdiyi? Anası deyir, tapsam, o qızın ayaqlarına düşüb yalvaracam, oğlumun dilindən "bağışla" deyəcəm.

Yer-göy başıma fırlandı. Üzümü çevirib, otağa qaçdım. Yorğanın altına girib, dişimlə dodaqlarımı sıxdım ki, hönkürtüm eşidilməsin. Boğulurdum. Nəfəs ala bilmirdim.

Mənim ona deməli olduğum "bağışla" sözünü o mənə demişdi. Özü də öləndən sonra...

Gör ona nə boyda ümid vermişəmmiş, ilahi, mən bu yükün ağırlığı ilə necə yaşayacaqdım?

Nə edəcəyimi bilmirdim. Hara gedəcəyimi, bundan sonra necə yaşayacağımı, dərdimi kimə danışacağımı bilmirdim.

"Necə"lər və göz yaşları içində azıb qalmışdım, vurnuxurdum.

Kimsə hardasa bir daş çevirmişdi və mən yolu tapa bilmirdim.

Onun sözləri qulaqlarımda cingildəyirdi: "Durnaların lənəti bizi tutacaq, biləsən..."

## Gülzar İbrahimova

# Bir gecədə dəyişən arzu və ya uşaqlığın son gecəsi

Nənəmi eyvanda görən kimi Orxan dedi:

– Bala, ehtiyatlı olun, yavaş sürün!

Nənəm də Orxan dediyi sözləri təkrar deyəndə, üçümüz də güldük. Orxana irad tutdum:

– Deməmişəm nənəmə sataşma, mən onu çox istəyirəm.

– Ay Səbinə, neylədim ki mən?

– Onu yamsılayırsan!

– Nailə, sən şahidsən, nənə mənim dediyimi təkrar elədi, mən onun?

Hamı güldü. Yavaşca Orxanın qolundan tutdum, guya hirsləndim:

– Sən hər dəfə niyə nənəmə sataşırsan?

Orxan zarafatca "Vay, qolum sındı!", deyib velosipedini sürüb uzaqlaşdı.

Nailə ilə güldük. Orxan hərdən bizi o qədər güldürürdü ki ...





– Orxan sənin nənəni çox istəyir, məhəlləmizin ən şirin nənəsidir, – deyə Nailə də velosipedini sürüb Orxanın ardınca getdi. Mən onlara çata bilmədim, çünki həmişəki kimi velosipeddə problem var idi. Oturacaq boş idi, bərkitdim.

Biz, üç dost, dördüncü sinifdən bir yerdə oxuyurduq, mən, rəfiqəm Nailə və dostumuz Orxan. Biz həm də yaxın qonşu idik. Mən ikinci mərtəbədə, Nailə beşinci mərtəbədə olurdu. Orxan da binamıza yaxın həyət evində yaşayırdı. Gəzməyə bir gedər, ad günlərini bir keçirərdik. İndi doqquzuncu sinfə keçmişdik. Oktyabr ayı olmasına baxmayaraq, koronavirusa görə hələ də dərs yox idi.

Məhəlləmizin camaatı çox mehriban idi. Bayramlarda birgə şənlənərdik. Novruzda tonqalın başına yığışar, bayram keçirərdik. Orxan balaca olanda həmişə Kosa olar, hoqqabazlıq edib hamını güldürərdi. İndi böyümüşdü deyə, Kosa olmağa utanırdı. Amma yenə də məzəli idi. Uşaqların şən səsi məhəlləni bürüyərdi. Yeni ilimiz bir başqa cür maraqlı keçərdi. Qar yağanda gecəyarıya qədər həyətimiz uşaqla dolu olardı. Qüdrət baba bizə külləmə kartof bişirib verər, dadından doymazdıq.

Hərdən fikirləşirdim ki, mən ali məktəbə – Bakıya oxumağa getsəm, ya da ailə qurub uzağa getməli olsam, Gəncəsiz, bu məhəlləsiz necə dözərəm?

Orxan artıq velosipedlə uzaqlaşmışdı. Nailə də... Tələsirdim onlara çatım. Velosipedə minmək istəyirdim ki, eyvandan Sona xalanın səsi gəldi:

– İndidən səni təbrik edirəm, sabah 15 yaşın tamam olur, bu gecə sənin üçün uşaqlığın son gecəsi olacaq. Sən də böyüdün, maşallah!

– Sona xala, uşaqlıq illərimdən heç ayrılmaq istəmirəm!

O, anamın rəfiqəsi idi. Xətrini istəyirdim... Amma nədənsə, Sona xalanın sözləri məni sıxdı. "Doğrudanmı uşaqlıq illərimin bu gün axırıncı gecəsidir?"

Orxanla Nailənin səsi məni fikirdən ayırdı:

– Bayaqdan səni gözləyirik, niyə gəlmirsən?

Dostlarımla ad günümə hazırlaşırdıq. Mağazadan bəzi bəzək şeyləri almaq lazım idi. Bu gün evi bəzəməli idik ki, sabaha işimiz az olsun. Piano müəllimim Nəcibə müəllim də, xorun uşaqları da, sinif yoldaşlarım da ad günümə gələcəkdilər. Sevinirdim. Sabahın tez açılmasını səbirsizliklə gözləyirdim. Qonaqlara pianoda gözəl bir əsər də çalacaqdım.

İlin əvvəli Orxanın 15 yaşı olmuşdu, üç ay əvvəl də Nailənin. Ad günlərimiz çox maraqlı keçirdi. Ad günümün tez gəlməsini arzulayırdım. Bir ay əvvəldən kibrit çöplərini sayıb qutuya yığmışdım, hər gün qutudan bir çöp çıxardıb, ad günümə neçə gün qaldığını hesablayırdım.

Nəhayət, ad günüm yaxınlaşdı. Sabah – oktyabrın 12-si on beş yaşım olacaqdı.

Axşam Orxanla Nailə bizə gəldilər. Otağımı qəşəng bəzədik. Sonra onlar getdi, amma bir azdan qayıtdılar. Özləri ilə böyük, ağ rəngdə velosiped gətirmişdilər. Əsl mən istəyən model idi.

– Ürəyimiz dözmədi, dedik hədiyyəni tez verək sənə. Bir gün də artıq sevinəsən, dedik! – deyə Nailə məni qucaqladı.

– On beş yaşın mübarək! Tanınmış pianoçu olanda sən də bizə maşın alarsan! – deyə Orxan yenə hamını güldürdü.





Sevinc və həyəcandan az qalırdım ağlayam. Nə vaxtdan mən belə velosiped istəyirdim, amma ala bilmirdik. Velosipedim köhnəlmişdi deyə, tez-tez xarab olurdu. Atam söz vermişdi, təzəsini alacaqdı. Ad günümə mobil telefon almışdı. Gizlincə xəbər tutmuşdum gizlədib, sabah ad günümdə mənə sürpriz edəcək. Dostlarım mənə istədiyim velosipedi almışdılar. Anam ən çox sevdiyim tortdan bişirmişdi. Çox xoşbəxt idim...

Gecə yatmırdım. Bilirdim ki, saat 12 olan kimi atam da, anam da ad günümü təbrik etmək üçün otağıma gələcəklər. Əvvəl anam gəldi, məni öpüb təbrik elədi:

– Xoşbəxt ol, Səbişim, ağıllım, bir dənəm! Arzularına çat, böyük pianoçu ol, konsertlərin olsun. Biz də Səbinə Şəmslinin valideynləriyik, deyib fəxr edək.

Bu vaxt atam da qollarını açıb hay-küylə otağa girdi:

– Mənim nazlı qızım, duzlu qızım! Ad gününü təbrik edirəm! Xoşbəxt olasan! Həmişə səninlə fəxr edək, necə ki, indi edirik!

Otaqdan çıxanda hər ikisinə möhkəm tapşırdım:

– Sabah yaddan çıxmasın, üçümüz şəkil çəkdirək.

Albom düzəldirdim, üçümüz bir yerdə olduğumuz şəkil tapmamışdım. Biri var idi, o da mən körpə olanda çəkilmişdi.

Sevindiyimdən yuxum qaçmışdı, axır ki, yuxuya getdim. Kaş ki getməyəydim. Atamın, anamın əllərindən möhkəm tutaydım, onlardan heç vaxt ayrılmayaydım.

Yatanda çox vaxt yuxuda səhnədə piano çalırdım. Məni alqışlayırdılar. Ya da uçurdum, göydə quş kimi qanad çalırdım.

Amma bu gecə – uşaqlığımın son gecəsi, gözlərimi yuman kimi yuxuda qara duman, qara tüstü, tüstü arasında

alov gördüm. Birdən bütün bunlar bir anda yox oldu, böyük, beton divar üstümə gəldi. Vahimə içərisində qışqırdım. Səsimə elə vahiməli, gurultu bir səs qarışdı ki, qulaqlarım bu dəhşətli səsdən ağrıdı. Gözümü açanda hər tərəfi dağınıq gördüm. Velosipedimin təkəri əyilmişdi. Üstünə bağlanmış hədiyyə lenti cırılmışdı.

– Velosipedimi kim əzib? – deyə qışqırsam da, öz səsimi özüm güclə eşitdim.

Pianomun yeri boş idi. Sevimli pianomun bir tərəfi yerin altına girmiş, üstünə torpaq tökülmüşdü. Qapağı açılmış, ağ dillərin üstünü qara torpaq örtmüşdü. Yorğanımın üstündə o qədər daş, torpaq var idi, altından çıxa bilmirdim. Dəhşət içərisində "ana", deyə qışqırdım. Bu dəfə səsim çıxdı.

Çağıranda anam mənə "Ay can!", deyərdi. Səs gəlmədi. Atamı çağırdım. Atam isə mənə "Ay can, mənim nazlı qızım!", deyərdi. İndi ondan da səs çıxmadı. Nənəmi səslədim. Gözlədim mənə "Başına dönüm, nə deyirsən?", desin, o da susdu.

İstəyirdim gördüklərim dəhşətli yuxu olsun, yuxudan oyanım, olmadı. Oyana bilmədim bu dəhşətli yuxudan.

Yaxından gələn qışqırtı, fəryad səsləri kəsilmirdi. Bir azdan hərbi geyimli adamlar mənə yaxınlaşdı. Daşları çox çətinliklə qaldırıb, məni uçuqların arasından çıxartdılar. Nə sual verirdilərsə, cavab verə bilmirdim. Uçunurdum. Yarıhuşsuz halda fikirləşirdim: "Görəsən, əsgərlər atamı, anamı, nənəmi də xilas edə biliblər? Mənim sabah ad günüm olacaq? Velosipedimin təkəri düzələr? Pianonun dilləri arasındakı qumlar təmizlənəcək? Üçümüz şəkil çəkdirə biləcəyik?".





Ondan sonra daha heç nə xatırlamadım. Bir də qolum ağrıyanda bildim ki, mənə iynə vurdular. Bir xeyli yatdım, axşam oyananda azca özümə gəldim. Əvvəl elə bilirdim zəlzələ olub. Amma danışıqlardan başa düşdüm ki, ermənilər Gəncəyə dəhşətli bir raket atıblar, üç bina birdən dağılıb. Məhəlləmiz yox olub. Mənim sevimli məhəlləm. Doğmalarım, qonşularım həlak olub. Çoxlu şikəst olan, yaralanan var. Ermənilərin vəhşi və qəddar olduğunu bilirdim, amma heç vaxt inanmazdım ki, müasir zamanda kimsə dinc əhaliyə raket atar. Ayaqlarım əzilsə də, çox pis yaralanmamışdım.

Palatada Artur adlı oğlan da yatırdı. Elə mənimlə yaşıd olardı. Bir az dostum Orxana oxşayırdı. Bilmirdim Orxan, Nailə sağdırlar, yoxsa yox. Bu haqda fikirləşəndə az qalırdım boğulum.

Yazıq Artur huşsuz halda idi, heç gözlərini açmırdı. Ona süni nəfəs vermək üçün aparata qoşmuşdular. Deyilənə görə, Moskvadan bibisigilə qonaq gəlibmiş.

Tibb bacıları, həkimlər məni görəndə ya üzlərini çevirir, ya da gözləri dolurdu. Başa düşürdüm ki, yetim qaldığıma görə kövrəlirlər. Heç kim də ürək edib mənə bu haqda bir söz demirdi. Ağlamaq necə gözəlmiş... Ağlaya da bilmirdim.

– Bu qəşəng qız kimdir? – səsi eşidəndə gözlərimi açdım. Qadını tanısam da, gözlərimə inanmadım. Prezidentin xanımı Mehriban Əliyeva idi. Yəqin ki, yaralılara baş çəkməyə gəlmişdi.

– Səbinədir, adı. Hər iki ayağı əzilib, sarğı qoymuşuq, – həkim səsi titrəyə-titrəyə cavab verdi. – Faciəli ailələrdən biri də bu uşağın ailəsidir.

Mehriban xanım əyilib alnımdan öpdü. Kövrəlsəm də, yenə ağlaya bilmədim.

Mehriban xanım soruşdu:

– Necəsən, qızım?

İstədim cavab verəm, səsim çıxmadı. O, bir əli ilə əlimdən tutdu, o biri əli ilə başımı sığallaya-sığallaya dedi:

– Darıxma, həkimlər nə lazımdır, edəcək. Ailənin başına gələn faciəyə görə təəssüf edirəm. Sən bu gündən mənim qızımsan, Səbinə! Neyləyək, bu da bizim taleyimizdir ki, qonşuluğumuzda belə pislər yaşayır. Ermənilər Gəncəyə raket atmaqla bütün dünyaya sübut etdilər ki, faşistdən də qəddardırlar. Körpələr, uşaqlar yatdığı yerdə, gecə vaxtı üstlərinə raket atmaq... Dünya müharibələri tarixində belə vəhşilik olmayıb. Ali Baş Komandan xalqa söz verib ki, Gəncənin qisası alınacaq! Hamı ona inanır. Sən sağal, bircə tez sağal!

Sözlərinə azacıq ara verib, yenə də mehribanlıqla soruşdu:

– Böyüyəndə kim olmaq istəyirsən?

Danışa bilmədim. Həkim köməyimə çatıb dedi:

– O, pianoçudur. Neçə dəfə Bakıda Milli Kanservatoriyada konsert müsabiqələrində iştirak edib, qalib gəlib.

Həkim elə danışırdı, deyəsən, haqqımda hər şeyi bilirdi.

– Əla. Biz istedadlılara dəyər veririk. Təhsilinə kömək edəcəyəm. Arzularını yarımçıq qoyma. Məktəbi bitir, Konservatoriyaya gəl. Gözəl pianoçu olmağın üçün əlimdən gələni edəcəyəm.

Sonra gələnlər Arturun çarpayısına yaxınlaşdılar. Bir xeyli orda dayanıb Arturdan danışdılar. Çalışırdım nəsə eşidim, bilim Artur sağalacaq, yoxsa yox. Çox istəyirdim Artur gözlərini açsın. Amma açmırdı.





Hamı otaqdan çıxanda birdən mənim səsimi eşidib geri qayıtdılar. Amma nə dediyimi heç kəs başa düşmədi.

– Nəsə demək istəyirsən? – həkimim yaxınlaşıb soruşdu:

Özümdə güc toplayıb dediyimi təkrar etdim:

– Mən pianoçu yox, snayper olacağam!

Belə deyəndə Mehriban xanım geri qayıdıb məni qucaqladı. Bir xeyli belə qalandan sonra tez palatadan çıxdı. Çiynimin yaş olmağından başa düşdüm ki, ağlayırmış.

**Günel Anarqızı**

# Sərhədsiz səma

*(radiopyes)*

**İştirakçılar:**

A z ə r *(70-75 yaşlarında)*
Ş a h i d *(21 yaşında)*

A z ə r :

– Çoxdan olan hadisədi bu. Bilmirəm niyə indi birdən yadıma düşdü. Yəqin, lap qocalmışam, şair demişkən, ölənlərim, dirilərim düzülür sırayla gözümün qabağında. Bəlkə də, belə olur qocalığın bu çağında?.. Bir Allah bilir nədi bu! (Gülümsəyir) Axı heç vaxt qoca olmamışam, hardan bilim... Hər nəysə. Doğrudan, niyə yenə düşdü o cavan uşaq yadıma, səsi də elə hey qulaqlarımdadı:

Ş a h i d :

– Gəl, qağa, gəl, az qalıb, bu işi bitirməliyik! Bir az qalıb, lap az, döz bir az...





A z ə r :

– Həmin gecə həlledici gecəydi. Artıq Qarabağı almışdıq. Sonuncu döyüş Şuşa uğrundaydı.

İllərdi bütün tarix kitabları bunu yazır, alimlərin elmi əsərləri bundan bəhs edir, nə bilim, roman, poema, teatr, kino, opera, balet bu günləri, ordumuzun Şuşa üzərində üçrəngli bayrağımızı sancmağını yorulmadan vəsf edir. Vətənimizin ən yeni tarixi də elə o gündən başlanır. Yəni, dediyim odur ki, artıq yerə nə danışım? İndi balaca bağça uşaqları da bu qəhrəmanlıq günlərini saatbasaat, saniyəbəsaniyə əzbər bilir.

Amma maraqlı olanı bilirsinizmi nədir? O uşaq. Əslində, uşaq deyirəm, amma belə baxanda elə mən də uşaq sayılırdım da. Nə yaşımız vardı ki. Onun 20-21... Mənim də 24-25. Bir sözlə, sütül uşaqlar. Fərqimiz ondaydı ki, mən kasıb idim, o isə dövlətli balası. Özüm də indiyə kimi məəttəl qalıram, o uşaq ata-anasını necə aldadıb qaçmışdı cəbhəyə? Vaxt eləydi, bilirsiniz. Cavanlar bezmişdi. Hamı gedib yazılırdı orduya ki, səfərbərlik elan olunanda yollansınlar müharibəyə. Cəbhədə vəziyyət qızışan kimi o vaxtın internetində day kim şəkil qoymadı və yazmadı ki, gedirəm müharibəyə. Vallah, bişmiş toyuğun gülməyi gəlirdi. Ümumiyyətlə, o vaxtlar necə idi? Hər yerindən duran ağzına gələni yazırdı, danışırdı. Nə böyük sayırdı, nə kiçik. Bilmirdin bu arvaddı, ya arvad qınına girən kişi. Abırsız şəkillərini qoyan kim, özünü açıq-aşkar bazardakı kimi satan kim, bir-birinin ətini didən kim. Eləliklə Qarabağı ala bilərdik?!.

Doğrusu, indi o vaxtlara boylanıb baxanda düşünürəm ki, əhsən bizimkilərə. Necə baş çıxartdılar bu vəziyyətdən,

necə ağılla və tədbirlə hərəkət elədilər. Bilirsiniz, ən böyük bəla nədi? Savadsızlıq. Üstünə tərbiyəsizlik də gələndə olur faciə. Cahillərin sayı çoxalanda da, bu olur millətin faciəsi. Məncə, bizim dərdlərimizin çoxu da elə belə cahillərin ucbatından baş vermişdi. Vaxtilə doğru-dürüst siyasət apara bilməyən gədə-güdənin, Qarabağı satan, torpağımızı qoyub gedən qansız, əqidəsiz cahillərin...

Amma, deyəsən, çox dərinə getdim...

Hə, nədən danışırdım... O uşaqdan. Şahiddən. Adı eləydi. Qəribədi, adı da sanki onun nə vaxtsa şəhid olacağını bilirdi, o tale yükünü, şəhidlik ruhunu özündə daşıyırdı.

Şahid əvvəldən ön cəbhəyə yazılmışdı. Deyirdi ki, ehtiyatda olmaq istəmirəm, mən cəbhəyə vuruşmaq üçün gəlmişəm. Ümumiyyətlə, qəribə uşaq idi. Baxsan, deyərdin ki, ata-ananın gül balasıdı, əvvəllər belələrinə "qaqulya" deyərdilər. Bahalı maşını, son model telefonu, qolunda qızıl saatı... Açığı mən belələriylə çox da oturub-durmurdum. Düzün desəm, özüm kasıb olduğumdan sıxılırdım belələrinin yanında. Başqasının hesabına da yeyib-içməyi heç vaxt xoşlamamışam. Nəyim varsa, özümün olsun, kimsə qonaq etsə də, sonra min əvəzin çıxardım. Amma Şahid tamam başqa idi. Sanki bütün bu dədə-baba malı-mülkü buna qalmayacaqdı, ölsə də vecinə deyildi. Əslində, elə öldü də kürəyi üstə, qolları göyə sarı açılmış vəziyyətdə: baxın, əliboş gedirəm.

Elə bil göyü qucaqlamaq istəyirdi. Gözü açıq. Zərrə qədər də qorxu yoxdu gözlərində. Əksinə, sanki sərhədsiz səmaya zillənib sadəlövh bir sual verirdi o müdhiş baxışıyla:





– Elə bu, qağa?!

– Elə bu, qardaşım. Day nə olacaqdı ki?

Amma və lakin...

Ş a h i d :

– Amma və lakin...

Öldüm. Daha doğrusu şəhid oldum. Vətən uğrunda döyüşdə düşmən gülləsinə tuş gəldim. Sonra da sən məni vuran namərdi vurdun. Ürəyimi deşib keçən güllə həm də sənə dəymişdi, qırmanın üzərindəki qanım sənin qanına qarışmışdı, beləliklə həm də qan qardaşı olmuşduq. Gördüyüm son şey sonsuz sərhədsiz göy üzü, eşitdiyim son kəlmələr, sənin: "Qanın yerdə qalmadı, qağa, öldürdüm o namərdi" sözlərin oldu...

A z ə r :

– Bax, yenə də səsi qulaqlarımdadır. Elə bil burdadır, yanımızda oturub söhbət edir mənimlə, nəsə soruşur, nədənsə gileylənir.

Ş a h i d :

– Bilirsən, ən çox nəyə heyfim gəlir?

A z ə r :

– Nəyə, qağa?

Ş a h i d :

– Amma söz ver ki, gülməyəssən.

A z ə r :

– Çətin məsələdir. Amma söz!

Ş a h i d :

– İstəyirdim Braziliyaya gedim. Uşaqlıqdan arzum idi karnaval vaxtı səfər edim ora, o qəşəng qızlarla bir rəqs edim...

A z ə r :

– Pah-o! Heç hənanın yeridi? Bax, indi niyə yadına salırsan bunları?

Ş a h i d :

– Nə bilim axı. Arzudur da. Onun da yaxşısı, pisi olmaz ki...

A z ə r :

– Mən deyəndə ki, biz yerlə göy qədər fərqli insanlarıq, inanmırsınız mənə. Mən – məhləmizdən əlli kilometr o yana getməyən Allahın biçarə bəndəsi. Və o, Braziliya karnavalında rəqs etməyi arzulayan papa-mama uşağı.

Ş a h i d :

– Nolsun ki? Bir fərqi oldu ki, bu fərqin?

A z ə r :

– Açığı, heç bir fərqi olmadı...

*Gülürlər.*

Ş a h i d :

– Sən harda, mən harda...

A z ə r :

– Qağa, başqa istəyin var idimi bu həyatdan?

Ş a h i d :

– Nə bilim... yəqin ki, hamı kimi istəyərdim ailəm olsun, ata-anamın nəvə görüb sevinməyini arzulayardım. Yer üzündə yaşayan milyonlarla insanın istədiklərini mən də xəyal edərdim. Mənim başqalarından nə fərqim var ki?

A z ə r :

– Bilmirsən?

Ş a h i d :

– Nəyi?..





A z ə r :

– Başqalarından fərqini.

*Sükut.*

A z ə r :

– Qağa, sən – o tarixlərə düşəcək, bitməyən gecənin səhəri həlak olan həmin o Qəhrəman oldun. Sonralar adına nəğmələr qoşulan, şeirlər həsr olunan qəhrəman. Doğulduğun küçənin adını dəyişib sənin adını qoydular, məktəb dərsliklərində sənə ayrıca paraqraflar ayırdılar, adına mükafatlar təsis etdilər, hətta fəzada yeni kəşf edilən bir ulduza da Şahid adını verdilər...

Ş a h i d *(heyrətlə):*

– Mən neyləmişdim ki?..

A z ə r :

– Qağa, sən Azərbaycanın Bayrağını Şuşaya sancan ilk əsgər oldun.

*Sükut.*

Ş a h i d :

– Bəs nədən mən bunu heç xatırlamıram, qağa?

A z ə r :

– Çünki həmin an səni vurdular. Sonra da məni...

Ş a h i d :

– Səni də?

A z ə r :

– Məni də...

Ş a h i d *(təşviş içində):*

– Demək, sən də şəhid oldun həmin gecənin səhəri?

A z ə r :

– Yox, qağa. Mən ölmədim. Sağ qaldım, yaşadım, sənin xatirəni, gözlərindəki o son müdhiş ifadəni yaddaşıma həkk etmək, öz xatirələrimdə səni yaşatmaq, ömür boyu bu şərəfli ağrını içimdə qorumaq üçün. Sənə səndən sonra yaşananları danışmaq üçün.

Ş a h i d :

– Elə isə danış, nələr oldu məndən sonra...

A z ə r *(bir qədər düşünərək):*

– Qarabağı aldıq, Azərbaycanın torpağı olduğunu bütün dünyaya Ali Baş Komandanımızın dediyi kimi nida işarəsiylə bəyan etdik, yurdumuzu təmizlədik, elə təmizlədik ki, havasında heç izi də qalmadı o üfunətin, sildik bir dəfəlik murdar çirkabı. Sonra əkib becərdik, geniş yollar və bağlar saldıq, yeni-yeni gözəl-gözəl evlər tikdik, yerlə yeksan edilən tariximizi bərpa etdik. İndi Cıdır düzündə hər il "Qarabağ bülbülləri" adlı musiqi festivalları təşkil olunur, "Qarabağ atları" cıdır yarışları, "Vaqif gecələri", "Natəvan axşamları" kimi şeir-sənət məclisləri keçirilir, Qarabağımız isə dünyanın ən çox ziyarət edilən turist məkanı sayılır. Şuşa qalasında üçrəngli Azərbaycan bayrağı dalğalanır...

*Sükut.*

A z ə r :

– Niyə dinmirsən, qağa?

Ş a h i d :

– Heyif, mən bunları görmədim.

A z ə r :

– Sən bu xalqın əsgəri oldun. Bayrağımızı torpağımızda dalğalandıran ilk əsgərimiz. Bundan şərəfli işmi var insan həyatında, ay qardaş?





*Sükut.*

A z ə r :

– Ağlama, qağa, kişi ağlamaz axı...

*Bir qədər sükutdan sonra.*

A z ə r :

– Bilirsən, əvvəllər mən sənin kimilərə gülürdüm, ciddi qəbul etmirdim sənin kimilərini. Düşünürdüm ki, vətənpərvərlikləri elə sözdədi. Bahalı maşınlarının pəncərələrindən başlarını çıxardıb, bayraqlarımızı kürəklərinə atıb boş-boş hay-küy salmaqdan başqa bir işə yaramırlar. Həmişə də fikirləşirdim ki, müharibə elan olunsa ön cəbhəyə gedən, ilk həlak olanlar kasıb-kusubun balaları olacaq. Mənim kimi... Amma sonra səni tanıdım və anladım ki, iş kasıb, ya da dövlətli olmaqda deyil. İş həyatında tutduğun yolda və məqsəddədir. Əgər sən bu vətənlə canı bir, qanı birsənsə, əgər hər şeydən öncə sənə vacib olan namusundursa, demək sən heç kimim sözüylə yox, qəlbinin çağırışıyla düşmən qarşısına çıxıb, lazım gəlsə canını qurban verəcəksən... Sənin kimi.

Ş a h i d :

– Elə olmağına elədir, qağa... Həm də kim bilə bilərdi! Məsələn, həyatın bu qədər qısa olduğunu bilsəydim, ən azı valideynlərimlə halallaşardım...

A z ə r :

– Ürəyini üzmə. Əmin ol ki, onlar da sənə haqqını halal edib...

*Sükut.*

Ş a h i d :

– Onda mən gedim, qağa, daha səni də yormayım... Sən də haqqını halal elə.

A z ə r :

– Əlbəttə, qardaşım. Vətən sənə haqqını halal edib, mən kiməm ki...

*Sükut.*

A z ə r :

– Bax belə... Bilmirəm bu qoca yaşımda nədən xatırladım bu çox-çox illər öncə olan hadisəni. Bəlkə də ona görə ki, mənim yaşıdlarımdan heç kim qalmayıb. Övladlarım da artıq yaşlı adamlardı, özlərinin nəvələri böyüyüb ağıllı-kamallı balalar olub.

Yaqin xatirələrim də mənə onu işarə edir ki, day bəsdi yaşadın, getmək vaxtıdır. Bəlkə də... Amma və lakin.

O səhnə indiki kimi yadımdadı. Qolları göyə sarı uzanmış, geniş açılmış gözlərinin təəccüb dolu baxışında sonsuz, sərhədsiz səma. Uşaqsayağı, sadəlövh bir sual:

– Elə bu, qağa?!



**Xalid Kazımlı**

# Mələyin dəftəri və təsəlli seansları

Havası tez-tez dəyişən, gah isti, gah sərin, gah da soyuq payız günlərində yenicə, məcburiyyət üzündən hərbi hospitala çevrilmiş klinikanın həyəti də, foyesi də hər gün insanlarla dolu olurdu. Əslində qlobal pandemiya ilə bağlı elan edilmiş karantin rejimində bu qədər insanın bir arada olması yolverilməz idi. Fəqət heç kəs ölkənin dörd bir yanından axışıb yaralı oğlunun hayına gəlmiş əsgər valideynlərinə bir söz demirdi, deyə bilmirdi. Ölkədə müharibə gedirdi.

Dərdli valideynlərin üzündən qüssə-kədər, hüzn tökülürdü, intizarda olan gözlərinə iztirab çökmüşdü. Hamısı səksəkə içindəydi, içəridə ağır vəziyyətdə olan yaralı övladları barədə ən ufacıq bir müjdə uma-uma gözləyir, reanimasiya otaqlarına, palatalara girib-çıxan hər kəsin üzünə ümidlə baxırdılar. Onların yarıcanı içəridəydi. Yaralısı ağır olan ata-analar qorxurdular ki, indicə yalnız